Xalqın qəzeti!

# Xalq qəzeti

№ 140 (30834) 11 iyul 2025-ci il, cümə

Gündəlik ictimai-siyasi qəzet

1919-cu ildən çıxır Təsisçi: Azərbaycan Respublikası Prezidentinin İşlər İdarəsi və qəzetin redaksiya heyəti

# Sülh prosesi birbaşa dialoqla davam etdirilir

## Əbu-Dabidə Azərbaycan Prezidenti İlham Əliyevin Ermənistanın Baş naziri Nikol Paşinyanla görüşü



**İyulun 10-da Birləşmiş Ərəb Əmirliklərinin Əbu-Dabi şəhərində Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin və Ermənistan Respublikasının Baş naziri Nikol Paşinyanın əvvəlcə nümayəndə heyətlərinin iştirakı ilə görüşü keçirilib.**

**Sonra görüş təkbətək formatda davam edib.**

***AZƏRTAC***

# Azərbaycan–Ermənistan sülhü: Əbu-Dabi görüşünün nikbinlik vədi

## *BƏƏ "günəşi" Cənubi Qafqazda barış "cücərdəcəkmi"?*



**Qətiyyətlə deyə bilərik ki, Azərbaycan Prezidenti İlham Əliyevlə Ermənistanın baş naziri Nikol Paşinyanın Birləşmiş Ərəb Əmirliklərinin paytaxtı Əbu-Dabidə bir araya gəlmələri həm Cənubi Qafqaz, həm də dünya gündəmində mühüm əhəmiyyət daşıyan hadisədir. Hədəfində Bakı-İrəvan sülhünün dayandığı bu hadisə barədə söz açacaq, bir sıra əlaqəli məqamlara aydınlıq gətirəcəyik.**

**Birincisi,** Əbu-Dabi görüşü Cənubi Qafqaz üçün sülh mühitinin prioritetliyini vurğuladı. Deməli, münasibətlərdəki normallaşmanın vacibliyi keçmiş münaqişə iştirakçılarının hər biri tərəfindən yetərincə dərk edilir və onlar təmasları intensivləşdirib yekun nəticəyə gəlməkdə maraqlıdırlar. Ölkəmiz, eyni zamanda, israrlıdır. Qalır Ermənistanın da eyni iradəni nümayiş etdirməsi.

**İkincisi məqam.** Qarabağla bağlı Azərbaycan-Ermənistan danışıqları uzun müddət vasitəçilik institutunun egidası altında aparılıb. Bu baxımdan ATƏT-in Minsk qrupunun, habelə, 44 günlük müharibədən sonrakı Rusiya, ABŞ, Avropa təşəbbüslərinin üzərində dayanmaq mümkündür. Hərçənd, bunlar real fayda vermədi. O səbəbdən ki, vasitəçilər danışıqları qlobal məqsəd və mənafe gündəmlərinin əsirinə çevirdilər. Onların hərəsi, obrazlı desək, sülhü öz tərəfinə "dartdı". Rəsmi İrəvanın itirilmişlərin bərpasına yönələn kor inadı isə Ermənistanı illüziya bataqlığına sürüklədi.

*(ardı 3-cü səhifədə)*

# Sülhə dönüş anı

**Real sülhə aparan konkret addım. Azərbaycan Prezidenti İlham Əliyev və Ermənistan baş naziri Nikol Paşinyan arasında Birləşmiş Ərəb Əmirliklərinin paytaxtı Əbu-Dabi şəhərində keçirilən görüşü və onun yekunlarını məhz bu cür xarakterizə etmək olar. Çünki görüş Bakı-İrəvan barış gündəminin bütün spektrini əhatə edib. Buna qədər qət edilən dövrə – 44 günlük müharibədəki Zəfərdən sonrakı son dörd il səkkiz aya nəzər yetirsək, aydın bir siyasi mənzərəni görə bilərik. Azərbaycanın liderliyi mənzərəsini.**



Rəsmi Bakı ötən müddətdə sülhpərvər təşəbbüslərini daim, fasiləsiz davam etdirməklə yanaşı, özünün irəli sürdüyü sülh variantının Ermənistan üçün də məqbul və faydalı olduğunu göstərdi. Nəinki göstərdi, eyni zamanda buna rəsmi İrəvanı da inandırmağı bacardı. Əlbəttə, qarşı tərəfin düz yola gəlməsi heç də rəvan məcrada getmədi...

*(ardı 6-cı səhifədə)*

# Orta Dəhliz – Avrasiyada nəqliyyatın şah damarı

## Təkcə dəmir yolu ilə ildə 75 milyard dollarlıq yük daşınır

**Türkiyənin nəqliyyat və infrastruktur naziri Abdulkadir Uraloğlu mediaya müsahibəsində bildirib ki, Türkiyə ərazisindən keçən Transxəzər Beynəlxalq Nəqliyyat Marşrutu (Orta Dəhliz) illik 75 milyard ABŞ dolları həcmində ticarət dövriyyəsi potensialına malikdir. Eyni zamanda, geosiyasi gərginlik, xüsusilə İran və İsrail arasında kəskinləşmə qlobal logistika marşrutlarının şaxələndirilməsinin zəruriliyini bir daha təsdiqləyir.**

*(ardı 8-ci səhifədə)*



# Almaniya hərbi xidmətin yeni modeli axtarışında

səhifə ⇨ 11

# İrəvanda "daşnak ovu"



səhifə ⇨ 6

# Avropa qurumlarının Gürcüstanda seçki təxribatları



səhifə ⇨ 7

# Siyasi rəqibə qarşı hüquqi maneə

**Avropa İnsan Hüquqları Məhkəməsi (AİHM) Fransanın ultrasağçı, mühafizəkar və millətçi "Milli birlik" (əvvəlki adı "Milli cəbhə") siyasi partiyasının parlament fraksiyasının lideri Marin Le Penin Paris məhkəməsinin 2025-ci il 31 mart tarixli qərarına qarşı iddiasını rədd edib. Məlumat üçün bildirək ki, Paris məhkəməsi qeyd edilən tarixdə çıxardığı qərarla Le Peni 4 il müddətinə azadlıqdan məhrum edib. Bunun 2 ili şərti hesab olunacaq. Həmçinin, məhkəmə fraksiya liderinin beş il müddətinə seçkilərdə iştirakını qadağan edib.**



*(ardı 5-ci səhifədə)*

# Prezident İlham Əliyevin Birləşmiş Ərəb Əmirliklərinə səfəri başa çatıb



**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Birləşmiş Ərəb Əmirliklərinə işgüzar səfəri iyulun 10-da başa çatıb.**

Əbu-Dabinin Zayed Beynəlxalq Aeroportunda dövlətimizin başçısının şərəfinə fəxri qarovul dəstəsi düzülmüşdü.

Prezident İlham Əliyevi Birləşmiş Ərəb Əmirliklərinin ədliyyə naziri Abdulla bin Avad Əl-Nueymi və digər rəsmi şəxslər yola saldılar.

***AZƏRTAC***

# XİN-in Əbu-Dabi görüşünün yekunlarına dair məlumatı

**İyulun 10-da Birləşmiş Ərəb Əmirliklərinin Əbu-Dabi şəhərində Azərbaycan Respublikasının Prezidenti və Ermənistan Respublikasının Baş naziri arasında görüş keçirilib və Azərbaycan–Ermənistan dövlətlərarası normallaşma gündəliyinin müxtəlif aspektləri müzakirə edilib.**

XİN-dən bildirilib ki, ikitərəfli danışıqların normallaşma prosesi ilə bağlı bütün məsələlərin həlli üçün ən səmərəli format olduğu təsdiqlənib və bu əsasda belə nəticəyönümlü dialoqun davam etdirilməsi razılaşdırılıb.

Sərhədin delimitasiyası prosesi ilə bağlı əldə olunmuş nailiyyətləri dəyərləndirən liderlər bu istiqamətdə əməli işlərin davam etdirilməsi üçün müvafiq dövlət komissiyalarına tapşırıqlar veriblər.

Tərəflər iki ölkə arasında ikitərəfli danışıqları və etimad quruculuğu tədbirlərini davam etdirmək barədə də razılığa gəliblər.

Azərbaycanın Prezidenti və Ermənistanın Baş naziri Birləşmiş Ərəb Əmirliklərinin Prezidenti Əlahəzrət Şeyx Məhəmməd bin Zayed Al Nəhyana səmimi qonaqpərvərliyə və ikitərəfli görüşün təşkilinə görə təşəkkür ediblər.

***XQ***

# FHN polkovniki Beynəlxalq Mülki Müdafiə Təşkilatının baş katibi seçilib





**İyulun 10-da Bakıda Beynəlxalq Mülki Müdafiə Təşkilatının Baş Assambleyasının 3-cü növbədənkənar sessiyası keçirilib. Əvvəlcə BMMT-nin himni səsləndirilib. Sonra Prezident İlham Əliyevin sessiyanın iştirakçılarına müraciəti səsləndirilib. Müraciəti Azərbaycanın Baş naziri Əli Əsədov oxuyub.**

Təşkilatın İcraiyyə Şurasının vitse-prezidenti Vinisio Feliks Çavarria Bayez və BMMT-nin Baş katibinin səlahiyyətlərini icra edən Roman Lapin çıxışlarında sessiyanın qarşısında duran məsələlərdən danışıblar.

Daha sonra Təşkilatın Etimad Komitəsinin hesabatı dinlənilib, sessiyanın gündəliyi təsdiq olunub. BMMT-nin Baş katibi vəzifəsinə namizədlərin təqdimatından sonra səsvermə keçirilib. Səsvermənin nəticəsinə əsasən, Azərbaycan Fövqəladə Hallar Nazirliyi Beynəlxalq əlaqələr idarəsinin rəisi polkovnik Ərgüc Kələntərli yekdilliklə Beynəlxalq Mülki Müdafiə Təşkilatının baş katibi seçilib. Yeni baş katib çıxış edərək, ona göstərilən etimada görə təşəkkürünü bildirib, üzərinə düşən vəzifələri layiqincə yerinə yetirmək üçün səylə çalışacağını deyib.

Azərbaycanın fövqəladə hallar naziri Kəmaləddin Heydərov tədbirdə yekun nitq söyləyib. Nazir BMMT-nin Baş Assambleyasının 3-cü növbədənkənar sessiyasının bütün iştirakçılarına məhsuldar və konstruktiv fəaliyyətlərinə görə səmimi təşəkkürünü bildirib. K.Heydərov Prezident İlham Əliyevə mülki müdafiə sahəsində beynəlxalq əməkdaşlıq məsələlərinə göstərdiyi hərtərəfli dəstəyə, strateji baxışına və davamlı diqqətinə görə dərin minnətdarlığını çatdırıb.

Nazir BMMT-nin Bakıda keçirilən sessiyalarının fövqəladə hallarla mübarizə məsələlərində real və müsbət nəticələrin yalnız birgə və əlaqəli fəaliyyət sayəsində əldə edilməsinin mümkünlüyünü bir daha göstərdiyini vurğulayıb. Fövqəladə halların qarşısının alınması və nəticələrinin aradan qaldırılması üzrə beynəlxalq əməkdaşlığın fəal və məsuliyyətli iştirakçısı kimi ölkəmizin bundan sonra da BMMT-nin fəaliyyətini dəstəkləməkdə, onun inkişafına əməli töhfə verməkdə davam edəcəyini diqqətə çatdırıb.

***XQ***

# "Tərlan – 2025" PUA təlimi yekunlaşıb

**Azərbaycan və Qazaxıstanın hərbi qulluqçularının iştirakı ilə ölkəmizdə keçirilən Pilotsuz Uçuş Aparatları (PUA) sahəsində "Tərlan - 2025" birgə taktiki-uçuş təlimi uğurla başa çatıb.**



Müdafiə Nazirliyinin Mətbuat və ictimaiyyətlə əlaqələr idarəsindən verilən məlumata görə, təlim çərçivəsində qarşıya qoyulmuş tapşırıqlar hər iki ölkənin hərbi qulluqçuları tərəfindən dəqiqliklə yerinə yetirilib. Plana uyğun olaraq, mərhələlər üzrə qarşılıqlı əlaqədə icra olunan fəaliyyətlər zamanı iştirakçılar yüksək döyüş hazırlığı və peşəkarlıq nümayiş etdiriblər.

Təlimdə taktiki və əməliyyat PUA-larının uçuşları həyata keçirilib. Əraziyə çıxarılan mini PUA-lar vasitəsilə əvvəlcədən aşkarlanmış hədəflər barədə detallı kəşfiyyat məlumatları toplanıb, sonra isə əməliyyat-taktiki PUA-lar vasitəsilə həmin hədəflər zərərsizləşdirilib.

Təlim rəhbərliyi şəxsi heyətin peşəkarlığını və hazırlıq səviyyəsini yüksək qiymətləndirib.

Sonda "Tərlan-2025" birgə taktiki-uçuş təlimində xüsusi fərqlənən Azərbaycan və Qazaxıstanın hərbi qulluqçuları "Hərbi əməkdaşlıq sahəsində xidmətlərə görə" medalı və qiymətli hədiyyələrlə mükafatlandırılıb, iştirakçılara sertifikatlar təqdim olunub.

# Beynəlxalq Mülki Müdafiə Təşkilatının Baş Assambleyasının 3-cü növbədənkənar sessiyasının iştirakçılarına

**Hörmətli sessiya iştirakçıları!**

Sizi Beynəlxalq Mülki Müdafiə Təşkilatının Baş Assambleyasının 3-cü növbədənkənar sessiyasının açılışı münasibətilə Bakı şəhərində səmimi-qəlbdən salamlayıram.

Dünyada insanların təhlükəsizliyi, əmin-amanlığı və rifahının təmin edilməsi üçün həyati əhəmiyyət kəsb edən məsələlərə həsr olunmuş bu yüksəksəviyyəli beynəlxalq tədbirə ev sahibliyi etməkdən məmnunluq duyuruq. Bu sessiyanın Azərbaycanda keçirilməsi ölkəmizin qlobal təhlükəsizlik, fəlakət risklərinin azaldılması və mülki müdafiə məsələlərinə verdiyi önəmin bariz nümunəsidir.

Hazırkı sessiya bəşəriyyət üçün həlledici bir məqama – təbii və texnogen fəlakətlərin sayının artdığı, iqlim böhranlarının dərinləşdiyi, dövlətlərin yeni təhlükələr və çağırışlarla üzləşdiyi və mülki müdafiə sistemlərinin ciddi sınaqdan keçirildiyi vaxta təsadüf edir. Bu xüsusda, mülki müdafiə və əhalinin mühafizəsi sahəsində çoxtərəfli əməkdaşlığın inkişafını təşviq edən və bu sahədə qlobal koordinasiyanı təmin edən beynəlxalq səviyyədə ixtisaslaşmış yeganə hökumətlərarası təşkilat olaraq Beynəlxalq Mülki Müdafiə Təşkilatının aparıcı və unikal rolu xüsusi əhəmiyyət kəsb edir. Beynəlxalq Mülki Müdafiə Təşkilatı milli strukturların gücləndirilməsinə dəstək göstərir, müxtəlif inkişaf səviyyəsinə və resurslara malik ölkələr arasında təcrübə və bilik mübadiləsini asanlaşdırır, mülki müdafiə xidmətləri arasında həmrəylik və tərəfdaşlıq ruhunu möhkəmləndirir.

Bu gün burada böhranlara və fəlakətlərə qarşı mübarizənin ön cərgəsində duran, həyatını cəmiyyətə xidmətə həsr etmiş, müxtəlif ölkələri təmsil edən peşəkarlar və mütəxəssislər toplaşıblar. Mən qlobal mülki müdafiə, o cümlədən fövqəladə hallara hazırlıq, fəlakətlərə reaksiya sahəsində dost ölkələrin aidiyyəti orqanları arasında dinamik surətdə inkişaf edən tərəfdaşlıq əlaqələrini yüksək qiymətləndirirəm.

Azərbaycan mülki müdafiə sahəsində beynəlxalq əməkdaşlığa böyük önəm verir. Beynəlxalq ictimaiyyətin məsuliyyətli üzvü kimi ölkəmiz insan həyatının müdafiəsinə, ətraf mühitin və infrastrukturun qorunmasına yönəlmiş qlobal təşəbbüslərin formalaşmasında və həyata keçməsində yaxından iştirak edir. Azərbaycanın ev sahibliyi etdiyi bir sıra mühüm beynəlxalq tədbirlər, xüsusilə də keçən il baş tutmuş COP29 və gələn il keçiriləcək Ümumdünya Şəhərsalma Forumu bəşəriyyəti narahat edən ən aktual problemlərin həllinə, onların fəsadlarının aradan qaldırılmasına və ümumilikdə qlobal həmrəyliyin gücləndirilməsinə xidmət edir.

Bu gün mülki müdafiə mexanizmlərinin inkişafı üçün universal platforma olan Beynəlxalq Mülki Müdafiə Təşkilatının beynəlxalq arenada davamlılığını və nüfuzunu gücləndirmək üçün bütün üzv dövlətlərin səylərinin səfərbər olunması və birgə fəaliyyətinin təmin edilməsi strateji əhəmiyyət daşıyır. Müasir dünyamızda artan risklər fonunda dövrün çağırışlarına cavab verə bilən, ona uyğunlaşan, beynəlxalq həmrəylik və qarşılıqlı yardımın effektiv aləti kimi güclü Beynəlxalq Mülki Müdafiə Təşkilatının olması olduqca labüddür.

Məhz bu kontekstdə, sessiya zamanı keçiriləcək Baş katib vəzifəsinə seçkilər təşkilatın gələcək inkişaf istiqamətlərinin müəyyən olunmasında həlledici mərhələ olacaqdır. Seçkiyə təqdim olunan namizədlər arasında Azərbaycan Respublikasının nümayəndəsi də yer almaqdadır. İnanıram ki, ölkəmizi təmsil edən nümayəndə Baş katib seçiləcəyi təqdirdə Beynəlxalq Mülki Müdafiə Təşkilatının fəaliyyətində səmərəliliyin artırılması, şəffaflığın təmin olunması və hesabatlı idarəçilik prinsiplərinin möhkəmləndirilməsi, beynəlxalq tərəfdaşların tam etimad bəslədiyi, çevik və effektiv bir təşkilati modelin formalaşdırılması istiqamətində ardıcıl və prinsipial səylər göstərəcəkdir.

Əminəm ki, Beynəlxalq Mülki Müdafiə Təşkilatının Baş Assambleyasının 3-cü növbədənkənar sessiyası beynəlxalq mülki müdafiə sisteminin daha da möhkəmlənməsinə və təşkilatın fəaliyyətinin təkmilləşdirilməsinə töhfə verəcəkdir.

Sizə ən xoş arzularımı yetirir, tədbirin işinə uğurlar arzulayıram.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

**Bakı şəhəri, 10 iyul 2025-ci il**

# Sahibə Qafarova Bosniya və Herseqovinaya işgüzar səfərə gəlib



**İyulun 10-da Milli Məclisin sədri Sahibə Qafarova Bosniya və Herseqovinaya işgüzar səfərə gəlib.**

Milli Məclisin Mətbuat və ictimaiyyətlə əlaqələr şöbəsindən bildirilib ki, səfər çərçivəsində Milli Məclisin sədri Sahibə Qafarova Serebrenitsa qurbanlarının Anım mərasimində iştirak edəcək, həlak olanların xatirəsini yad edərək Memorial abidə üzərinə gül dəstəsi qoyacaq.

***XQ***

# Ölkəmiz korrupsiyaya qarşı mübarizədə region lideridir



**İqtisadi Əməkdaşlıq və İnkişaf Təşkilatının (OECD) Paris qərargahında Şərqi Avropa və Mərkəzi Asiya üzrə Antikorrupsiya Şəbəkəsinin (ACN) 24-cü Plenar iclası və Şəbəkənin İdarə Heyətinin 30-cu görüşü keçirilib.**

Toplantıda ölkəmizi Baş prokurorun müavini - Baş prokuror yanında Korrupsiyaya qarşı Mübarizə Baş İdarəsinin rəisi Nazim Rəcəbovun rəhbərlik etdiyi nümayəndə heyəti təmsi edib.

İclasda Şəbəkənin İstanbul Anti-Korrupsiya Fəaliyyət Planının V monitorinq mərhələsi çərçivəsində ölkəmiz üzrə təqdim edilmiş tövsiyələrin icrası ilə əlaqədar tərəqqi hesabatı müzakirə edilərək qəbul edilib. Ölkəmizdə həyata keçirilən korrupsiyaya qarşı mübarizə üzrə dövlət siyasəti ekspertlər tərəfindən olduqca yüksək qiymətləndirilib və qeyd edilib ki, müvafiq sahədə əldə etdiyi nəticələrə görə Azərbaycan region ölkələri arasında ilk yerlərdən birini tutur.

Nümayəndə heyətimiz Şəbəkənin İdarə Heyətinin iclasında çıxış edərək son dövrdə ölkəmizdə korrupsiya və oxşar neqativ halların qarşısının alınması və ona qarşı mübarizə ilə bağlı həyata keçirilmiş tədbirlər barəsində geniş məlumat verib.

# Daxili İşlər Nazirliyində 6 ayın yekunlarının müzakirəsi





**İyulun 10-da Daxili İşlər Nazirliyində 2025-ci ilin 6 ayında əməliyyat-xidməti fəaliyyətin yekunlarına və qarşıda duran vəzifələrə həsr olunmuş Kollegiya iclası keçirilib.**

İclası giriş sözü ilə açan daxili işlər naziri general-polkovnik Vilayət Eyvazov cari ilin birinci yarısında cinayətkarlıqla mübarizədə müsbət nəticələrin əldə edildiyini, kütləvi tədbirlərdə asayişin və təhlükəsizliyin peşəkarlıqla təmin olunduğunu, eyni zamanda qarşıda mühüm vəzifələrin durduğunu və onların ətraflı müzakirəsinin, xidməti fəaliyyətin təkmilləşdirilməsi üçün əlavə təşkilati tədbirlərin müəyyən edilib həyata keçirilməsinin vacibliyini nəzərə çatdırıb.

İclasda hesabat məruzəsi və məruzəətrafı çıxışlar dinlənilib.

Qeyd olunub ki, ötən 6 ayda əməliyyat-axtarış və istintaq fəaliyyətinin subyekti olan bütün dövlət qurumları üzrə 17049 cinayət qeydə alınıb, onların 94,4 faizi daxili işlər və prokurorluq orqanları tərəfindən prosessual qaydada araşdırılan hüquqazidd əməllər olub. 2024-cü ilin analoji dövrü ilə müqayisədə ağır və xüsusilə ağır cinayətlər 18,9, odlu silahın tətbiqi ilə törədilənlər 2 dəfə, əvvəllər məhkum olunmuş şəxslər tərəfindən törədilənlər 19,8, qrup halında baş verənlər 18,8, məişət zəminində törədilənlər 5,5, qəsdən adam öldümələr 39,1, mülkiyyət əleyhinə olanlar 4,2, o cümlədən oğurluqlar 6,2, dələduzluqlar 7,3 faiz azalıb.

Həyata keçirilmiş istintaq hərəkətləri və əməliyyat tədbirləri ilə cinayətlərin 92,8 faizi, o cümlədən prokurorluq orqanları ilə birgə keçmiş illərdən bağlı qalmış 232, görülmüş operativ cavab tədbirləri ilə 2196 cinayət açılıb, 4344 hüquqazidd əməlin qarşısı alınıb, axtarışda olan təqsirləndirilən şəxslərin 79,7 faizi tutulub, 3378 ədəd müxtəlif növ atıcı silah yığılıb və tapılıb.

Baş Prokurorluq və Daxili İşlər Nazirliyi tərəfindən əvvəlki illərdən bağlı qalmış cinayətlərin açılması ilə bağlı yaradılmış birgə işçi qrupun istintaq və əməliyyat-axtarış tədbirlərinin müsbət nəticələr verdiyini vurğulayan nazir vətəndaşların qanuni mənafelərinin qorunmasına və qanunçuluğun möhkəmlənməsinə xidmət etdiyini, o cümlədən cinayətlərin, onların ağır və xüsusilə ağır növlərinin azaldığını, açılması və istintaqı sahəsində əhəmiyyətli irəliləyişlərin əldə olunduğunu diqqətə çatdırıb.

Mütəşəkkil cinayətkarlıqla mübarizə tədbirləri çərçivəsində 305, o cümlədən ağır və xüsusilə ağır cinayətlər törətmiş 103 kriminal qrup zərərsizləşdirilib, qanunsuz olaraq odlu silah saxlayan və daşıyan 82 nəfər cinayət məsuliyyətinə cəlb edilib. Qeyri-leqal dövriyyədən 2 ton 958 kiloqram narkotik vasitə çıxarılıb və 151 tondan artıq narkotik xassəli bitki aşkarlanaraq məhv edilib.

Vətəndaşların qəbulu və müraciətlərinə baxılması işinin xüsusi nəzarətdə olduğu, bu baxımdan mediada qabaqcadan məlumat verilməklə 4032 şəxsin qəbul edildiyi və qaldırılan məsələlərin əksəriyyətinin öz qanuni həllini tapdığı vurğulanıb.

Kollegiya iclasına yekun vuran nazir general-polkovnik V.Eyvazov xidməti vəzifələrin və qarşıya qoyulan tapşırıqların hesabat dövründə bütövlükdə layiqincə yerinə yetirildiyini qeyd edib, qanunçuluğun və hüquq qaydasının möhkəmləndirilməsi sahəsində əldə olunan müsbət nəticələrin inkişaf etdirilməsi üçün fəaliyyətin effektivliyinin artırılması ilə bağlı tapşırıq və tövsiyələrini verib.

Vurğulanıb ki, hüquq-mühafizə orqanlarının fəaliyyətinin təkmilləşdirilməsi, cəmiyyətin təhlükəsizlik tələblərinə cavab verən kadr potensialının formalaşdırılması DİN-in strateji prioritetlərindəndir. Müasir dövrün çağırışlarına cavab verən, qabaqcıl texnologiyaları və süni intellekt imkanlarını əməliyyat-xidməti fəaliyyətə inteqrasiya edə bilən, eyni zamanda hüququn aliliyinə sadiq, vətənpərvər və mənəvi cəhətdən formalaşmış polis əməkdaşlarının hazırlanması diqqətdə saxlanılır.

Bu baxımdan, daxili işlər orqanlarında xidmət etmək istəyən gənclərin peşəyə düzgün istiqamətləndirilməsi, onların Polis Akademiyası və Daxili Qoşunların Hərbi İnstitutuna qəbulunun təşviqi xüsusi əhəmiyyət daşıyır.

Daxili işlər naziri general-polkovnik Vilayət Eyvazov bildirib ki, bu sahədə həyata keçirilən tədbirlər yalnız kadr çatışmazlığının aradan qaldırılması deyil, eyni zamanda yüksək mənəvi-psixoloji keyfiyyətlərə malik, intizamlı və vətənpərvər gənclərin daxili işlər orqanlarında xidmətə cəlb olunmasına yönəlib.

Qeyd olunub ki, Polis Akademiyası və Hərbi İnstitut bu gün yalnız hüquq-mühafizə sahəsi üzrə deyil, ümumilikdə dövlətçilik ideallarına sadiq, ictimai maraqlara cavab verən kadrların yetişdirilməsi baxımından strateji əhəmiyyət daşıyan xüsusi təyinatlı təhsil ocaqlarıdır.

Bu məqsədlə, Polis Akademiyası və Daxili Qoşunların Hərbi İnstitutu çərçivəsində kadr hazırlığı prosesi təkcə hüquq bilikləri ilə məhdudlaşmır. Tədris proqramları qabaqcıl beynəlxalq standartlara uyğunlaşdırılır, innovativ yanaşmalar tətbiq olunur, gənclər süni intellekt, informasiya texnologiyaları, kiber təhlükəsizlik, hüquq və psixologiya kimi sahələrdə geniş bilik və bacarıqlarla təmin olunurlar.

Cəmiyyətin narkotiklərlə mübarizədə polislə həmrəyliyinə toxunan daxili işlər naziri general-polkovnik Vilayət Eyvazov bu sahədə profilaktik və maarifləndirici tədbirlərin davam etdirilməsinin əhəmiyyətini qeyd edib, bütün şəxsi heyətə antinarkotik təbliğatın daha da genişləndirilməsi, gənclərin zərərli vərdişlərdən qorunması və ictimai yanaşmanın formalaşdırılması istiqamətində konkret tapşırıqlar və tövsiyələr verib.

Qeyd olunub ki, narkotiklərlə mübarizə yalnız hüquq-mühafizə orqanlarının deyil, eyni zamanda ictimaiyyətin də birgə səylərini tələb edən mühüm bir məsələdir. Bu kontekstdə vətəndaş cəmiyyəti institutlarının, media nümayəndələrinin və ictimai fəalların bu sahədəki dəstəyi xüsusi önəm daşıyır.

Nazir narkotiklərlə mübarizəyə dair təşəbbüslərdə aktiv iştirak edən jurnalistlərə, ictimaiyyət nümayəndələrinə və qeyri-hökumət təşkilatlarının nümayəndələrinə təşəkkürünü ifadə edib.

Eyni zamanda, o da diqqətə çatdırılıb ki, aidiyyəti qurumlarla birgə reabilitasiya mərkəzlərinin fəaliyyəti dəstəklənməli, süni maneələr yaradılmamalı, narkotik asılılığından əziyyət çəkən şəxslərin yenidən cəmiyyətə inteqrasiyası istiqamətində səmərəli addımlar atılmalıdır.

Həmçinin vətəndaş məmnunluğunun təmin edilməsinin Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin müəyyənləşdirdiyi əsas vəzifələrdən olduğunu vurğulayan nazir cinayətlərin qarşısının alınması, açılması, hüquqazidd əməllər nəticəsində vurulmuş maddi ziyanın ödətdirilməsi, müraciətlərə baxılması və qəbul işinə daha böyük həssaslıqla yanaşılmasını tələb edib.

*XQ*

# Azərbaycan–Ermənistan sülhü: Əbu-Dabi görüşünün nikbinlik vədi

**(əvvəli 1-ci səhifədə)**

Əlqərəz, Əbu-Dabidəki görüş vasitəçilik institutunun təsirlərindən kənar idi. Çünki BƏƏ, prinsip etibarilə, tərəfsizdir. Baxmayaraq ki, Azərbaycanla dostluğun çəkisi, Ermənistanla yaxşı münasibətlərin çəkisindən ağırdır. Hər halda, tərəzinin bir gözü o birindən o qədər fərqlənmir və çox güman, Ermənistanda da bunu bilirlər.

Bəli, Əbu-Dabidə kənar maraq sahiblərinin özlərini göstərmələri üçün meydan olmadı. Ancaq bu, Bakı ilə İrəvan arasında vasitəçilərsiz ilk təmas deyildi. İndiyədək tərəflər həm sərhəd xəttində, həm də müxtəlif beynəlxalq platformalarda dəfələrlə üzləşiblər. Ancaq dünənki görüşü fərqləndirən bir mühüm cəhət var. Görüşdə həm Azərbaycandan, həm də Ermənistandan barış mühitinin bütün komponentləri üzrə məsuliyyət daşıyan rəsmi şəxslər iştirak etdilər. Deməli, sülhə fundamental yanaşmanın zəruriliyi qəbul və dərk edilir. Bu isə o deməkdir ki, Əbu-Dabi görüşü təkcə diplomatiya hadisəsi olaraq qiymətləndirilməməlidir. Ona daha geniş aspektdən yanaşılmalıdır.

**Üçüncü məqam.** Dediyimiz kimi, Azərbaycan və Ermənistan rəsmiləri bu yaxınlaradək müxtəlif beynəlxalq tədbirlərdə üz-üzə gəlib, müzakirələr aparıblar. O cümlədən, onların vasitəçilərsiz hansısa məqamlar ətrafında qarşılıqlı fikir mübadilələri olub. Hər iki ölkənin liderləri arasında da həmçinin. Ancaq vasitəçilərsiz ayaqüstü, epizodik təmasların dünyaya mesaj səsi yüksəkdən eşidilməyib. Belə görüşlər, adətən, regional miqyasda müəyyən rezonans doğurub. Dünən isə nəinki Cənubi Qafqazın, ümumən, sülhə təşnə dünyanın nəbzi Əbu-Dabidə döyündü.

Beynəlxalq ictimaiyyət hiss etdi ki, tarixən qlobal konfrantasiyalar məkanı olan Cənubi Qafqazdakı ölkələr öz talelələrini özləri müəyyənləşdirmək əzmindədirlər. Əbu-Dabi görüşünün nəticələrindən asılı olmayaraq, durumu məhz belə qiymətləndirmək mümkündür. Dünyaya, o cümlədən, vasitəçilik iddiasına düşüb öz məqsədlərini güdənlərə, manipulyativ mövqe tutanlara da başlıca mesaj budur.

**Dördüncü məqam.** Münasibətlərdə səmimiyyət son dərəcə vacib amildir. Əslində, Azərbaycan 44 günlük müharibə qalibi kimi Ermənistana sülh əlini lap əvvəldən uzatdı. Təəssüf ki, qarşı tərəf bundan nəticə çıxarmağı bacarmadı. Dəfələrlə də eyni hal təkrarlandı. Amma məqsədimiz bu haqda söz açmaq deyil. Məqsədimiz Əbu-Dabidə də ilk əl uzadan tərəfin məhz Azərbaycan olduğunu vurğulamaqdır. Prezident İlham Əliyev yüksək alicənablıq və diplomatik nəzakətlə ona doğru yaxınlaşan baş nazir Nikol Paşinyanı salamladı. Dövlətimizin başçısının erməni nümayəndə heyətinin digər üzvlərinin də əlini sıxmaq üçün hərəkətə keçməsi fonunda ikincilərin müəyyən çaşqınlıq yaşamaları da diqqətdən yayınmadı. O cümlədən, onların daha sonra Azərbaycan nümayəndə heyətinin üzvləri ilə salamlaşmaq üçün növbəyə dayanmaları. Həqiqətən, xoş görüntülər idi və bu mənzərə müsbət ab-havanın, qarşılıqlı inamın formalaşmasına töhfə elementi olaraq qiymətləndirilə bilər.

Bəli, Prezident İlham Əliyev özünəxas jesti ilə münasibətlərdəki başlıca amilin səmimiyyət olduğunu vurğuladı. Dövlətimizin başçısı örnək davranışı ilə əslində, yalnız səmimi yanaşmanın sülh gündəmini irəli aparan nəticələr doğuracağına eyham vurdu. Deməli, qarşı tərəf də adekvat olmalıdır. Nəzərə alaq ki, səmimiyyət həm də etimad doğururur. Deməli, qarşıda duran ümdə vəzifə Azərbaycan və Ermənistan arasında etimad quruculuğu tədbirlərini möhkəmləndirməkdir. Hesab edirik ki, Əbu-Dabi görüşü bu mənada da xüsusi əhəmiyyət daşıdı.

**Beşinci məqam.** Azərbaycan və Ermənistan arasında birbaşa dialoq səciyyəsi daşıyan Əbu-Dabi görüşü dünyanın, obrazlı desək, çalxalandığı dövrdə reallaşdı. Hindistan-Pakistan qarşıdurması, 12 günlük İran-İsrail müharibəsi sonrası müəyyən gərginliklərin qalması, hələ də davam edən və getdikcə amansızlaşan Rusiya-Ukrayna savaşı fonunda Cənubi Qafqaz siyasi coğrafiyası müstəvisində BƏƏ-dən dünyaya sülh mesajı ünvanlandı. Bunun mənəvi tərəfləri də var, sağlam məntiqi də. Axı heç bir müharibə, böyük ölçüdə, xalqlara fayda verməyib, əksinə, faciələr yaşadıb. Hakimiyyətlər öz xalqlarını düşünürlərsə, rasional davranmalıdırlar. Rasional davranış isə ilk növbədə iqtisadi mənfəət amilini rəhbər tutmalıdır.

Əlbəttə, iqtisadi mənfəətə hesablanmış rasional davranış heç də prinsipsizlik ola bilməz və daha çox səbəb-nəticə əlaqələrindən qaynaqlanır. Böyük itkilər doğurmuş, məhrumiyyətlər və acılar yaşatmış müharibəni törədən Azərbaycan olmayıb. Ölkəmiz öz qətiyyəti ilə ixtilafa son qoymuş, ədaləti müqəddəs Zəfər pilləsinə qaldırmış tərəfdir. Savaş və qarşıdurma baiskarı Ermənistan dövlətinin rəhbərliyi isə indiki mərhələdə avantüradan tam uzaqlaşaraq, səbəb faktorunun – I və II Qarabağ müharibələrinin yekun nəticəsinin, yəni ölkəmizin şanlı Zəfərinin formalaşdırdığı reallıq çərçivəsində rasional davranışa üstünlük verməli, mənfəətini məhz bu reallığın çərçivələri daxilində axtarmalıdır. Rəsmi İrəvan nəzərə almalıdır ki, mənfəət yalnız prinsiplərə hörmətlə yanaşılacağı təqdirdə mümkündür. Ümid edirik ki, Əbu-Dabi görüşü rəsmi İrəvanın mövcud məqamı düşünüb sabit qərara gəlməsində həlledici rol oynayacaq. Qeyd edək ki, haqqında söz açdığımız dünyaya sülh mesajının gerçəklik fazası bundan asılıdır.

**Altıncı məqam.** Əlbəttə, tam şəkildə demək olmaz ki, Əbu-Dabi görüşü Azərbaycan və Ermənistan arasında sülh sazişinin imzalanması reallığını doğuracaq. Şübhəsiz, gələcəkdə yeni təmaslar da olmalıdır. Ancaq dünənki görüşün nəticələrinə dair rəsmi məlumatların təhlili göstərir ki, Bakı-İrəvan dialoqunda tərəflərin müzakirə mövzularının əhatəsi genişdir. Ümid etmək olar ki, bu cəhət prinsipial məsələlərə ortaq münasibət müstəvisində də özünü göstərəcək. Prinsipial məsələlərə gəldikdə, Ermənistan bir daha təcavüz yolu tutmayacağını əməli tədbirlərlə göstərməli, tutarlı təminat verməli və regional kommunikasiyaların açılması ilə bağlı konstruktiv davranmalıdır. Ölkə, ümumən, konstruktiv mövqe nümayiş etdirməli və 44 günlük müharibənin meydana çıxardığı prinsipial baxışlarla razılaşmalıdır. Həm də ona görə ki, Azərbaycan tərəfindən irəli sürülmüş həmin baxışlar Ermənistanın düşdüyü təcriddən qurtulması üçün yeganə zəmanətdir. Nəinki Paşinyan iqtidarı, bütövlükdə hay ictimai-siyasi industriyası illüziyalara qapılmaq dövrünün keçmişdə qaldığının fərqinə varmalıdır.

Sonda bir daha dialoq formatı barədə söz açaq. Belə nəticəyə gəlmək olar ki, Azərbaycan və Ermənistan liderlərinin, eləcə də onları müşayiət edən dövlət rəsmilərinin Əbu-Dabi görüşü məhz ikili dialoqun böyük təntənə müstəvisi kimi yadda qaldı. Mövcud cəhətin özü də sülh perspektivinə nikbin yanaşmaq üçün əsaslar verir. O zaman inanaq ki, sözügedən dialoq formatı qorunacaq, Cənubi Qafqaza uzun müddətdir gözlənilən sabitliyi, əmin-amanlığı və rifahı, böyük anlamda isə dayanıqlı və davamlı sülhü gətirəcək. İndi sülh zamanıdır. Onu gözlətmək, şansı əldən vermək olmaz.

***Ə.CAHANGİROĞLU***
***XQ***

# Yeni dəyişikliklər xarici medianın ölkəmizdə fəaliyyətini tənzimləyəcək

**Milli Məclis iyulun 8-də keçirilən iclasında "Media haqqında", "Hüquqi şəxslərin dövlət qeydiyyatı və dövlət reyestri haqqında" qanunlarda, həmçinin Mülki və İnzibati Xətalar məcəllələrində dəyişiklikləri qəbul edib. Bu dəyişikliklərə əsasən, Azərbaycanda xarici media subyektlərinin filial və nümayəndəliklərinin qeydiyyatı, fəaliyyəti və ləğvi ilə bağlı yeni tənzimləmələr müəyyən olunub. Xüsusi hal odur ki, bundan sonra Azərbaycanda fəaliyyət göstərmək istəyən xarici media subyektlərinin filial və nümayəndəlikləri dövlət qeydiyyatına alındıqdan sonra Media Reyestrinə daxil edilmək üçün də müraciət edəcəklər.**

Məlumat üçün qeyd edək ki, xarici jurnalistlərin ölkəmizdə fəaliyyəti əvvəlki dönəmlərdə 2015-ci ilin 18 mart tarixində qəbul edilmiş "Azərbaycan Respublikasında xarici kütləvi informasiya vasitələri nümayəndələrinin akkreditəsi Qaydaları"-na uyğun olaraq tənzimlənib. Qaydalara əsasən, xarici jurnalistlər Azərbaycan ərazisində fəaliyyət göstərmək üçün Xarici İşlər Nazirliyində akreditasiyadan keçməli idilər. Onlar XİN-ə ünvanladıqları müraciətə 30 gün ərzində müsbət cavab alardılarsa, fəaliyyətə başlayırdılar.

Amma bu qaydalarda müəyyən qədər boşluqlar mövcud idi. Xarici media subyektləri və jurnalistlər də həmin boşluqlardan məharətlə yararlana bilirdilər. 2022-ci ildə həmin qaydaların dəqiqləşdirilməsi, konkretləşdirilməsi, mövcud boşluqların aradan qaldırılması və yeni dövrün terminologiyasına uyğunlaşdırılması üçün təşəbbüs irəli sürülüb. XİN kollegiyasının 2022-ci il 1 avqust tarixli qərarı ilə "Azərbaycan Respublikasında xarici media nümayəndələrinin akkreditasiyası Qaydaları" yenilənmiş versiyada qəbul edildi. Qaydaların 2022-ci il versiyası həm ad, həm də prinsiplər baxımından eyni ildə qüvvəyə minmiş "Media haqqında" yeni Qanunun 11-ci maddəsinə uyğunlaşdırılıb. Qeyd edək ki, həmin maddə "Xarici media nümayəndələrinin Azərbaycan Respublikasının ərazisində fəaliyyəti"ni nəzərdə tutur.

2022-ci ildən sonra ötən 3 illik dövr ərzində ortaya çıxan faktlar göstərir ki, xarici media nümayəndələrinin Azərbaycan ərazisində fəaliyyətini tənzimləmək üçün yenidən bəzi dəqiqləşdirmələr etmək zəruridir. Məsələn, yuxarıda adının çəkdiyimiz sənədlərə - "Azərbaycan Respublikasında xarici media nümayəndələrinin akkreditasiyası Qaydaları"na və "Media haqqında" Qanuna nəzər salsaq görərik ki, orada mövcud qaydaları pozan xarici media təmsilçiləri üçün hansı məsuliyyət tədbirləri görüləcəyi ilə bağlı prinsiplər yayğındır. Həmin yayğınlığın toparlanıb konkretləşdirilməsinə ehtiyac vardır. Bu baxımdan, indi Milli Məclisdə "Xarici media filiallarının qeydiyyata alınması və Media Reyestrinə daxil edilməsi prosedurları"nın müzakirəyə çıxarılması mühüm əhəmiyyət daşıyır.

Müzakirəyə çıxarılan son təkliflərin əsas mahiyyəti budur ki, xarici media nümayəndələrinin respublikamızın ərazisində qeydə alınma prosedurları yenilənir. Yeniliyə əsasən, xarici media subyektləri, həmçinin, xarici media subyektlərinin təmsilçiləri Azərbaycan ərazisində fəaliyyət göstərmək üçün XİN-də akkreditasiyadan keçdikdən sonra, həm də Media Reyestrində qeydiyyata alınacaqlar. Media Reyestrində qeydə alınmaq o deməkdir ki, Azərbaycanın ərazisində fəaliyyət göstərən xarici media subyektlərinin təmsilçiləri "Media haqqında" Qanunun tələblərinə əməl etməli olacaqlar. Bu tələbləri və prinsipləri pozduqları halda, Qanunda nəzərdə tutulmuş məsuliyyət tədbirləri ilə üzləşəcəklər.

Milli Məclisdə müzakirəyə çıxarılan dəyişikliklərin sırası xarici media subyektlərinin qeydiyyatı proseduru ilə yekunlaşmır. Bəllidir ki, media məkanında ciddi narahatlıq doğuran məqamlardan biri də mənbəyi bilinməyən, saxta məlumatların yayılması, manipulyativ məzmunlu informasiyaların sosial şəbəkə platformalarını aşaraq peşəkar media subyektlərinin səhifələrinə yol açmasıdır. İndiki dəyişikliklər həm də informasiya mühitinin çirklənməsinə səbəb olan amillərin qarşısını almaq məqsədi daşıyır. Yeniliyə əsasən, "Media haqqında" Qanunda informasiyaya dair tələbləri əks etdirən 14-cü maddəyə "saxta məlumatların dərc edilməsinə yol verilməməsi üzrə norma"nın əlavə edilməsi nəzərdə tutulub. Qanuna edilən dəyişikliklər Medianın İnkişafı Agentliyinin (MEDİA) informasiya mühitinin çirkləndirilməsi hallarına qarşı fəaliyyətinin çevikliyini təmin edəcək.

Daha bir dəyişiklik informasiya agentliklərinin fəaliyyətini əhatə edir. Məlumdur ki, "Media haqqında" Qanun xəbər portallarının, qəzetlərin, audiovizual media subyektlərinin struktur tərtibatı və fəaliyyət çərçivələri barədə aydın təsəvvür formalaşdırır. Amma informasiya agentlikləri sahəsində belə konkretlik yox idi. Qanuna indi təklif edilən dəyişikliyə əsasən, informasiya agentliyinin azı 20 media subyekti ilə məlumat verilməsi haqqında müqaviləsi olmalıdır. Minimum 5 xarici ölkədə jurnalisti akkreditasiya düşməli, həmçinin hər ay 20 gün ərzində gündəlik dərc etdiyi kütləvi informasiyanın ümumi həcminin 80 faizi onun özü tərəfindən istehsal edilmiş olmalıdır.

Yeniliklər müəllif hüquqlarının qorunması baxımından da əlverişlidir. Təklif olunan dəyişikliyə əsasən, media subyektlərinin adları digər redaksiyaların adları ilə eyni və ya oxşar olmamalıdır. Onların adlarında ictimai qaydaya, mənəviyyata və əxlaqa zidd olan, istifadəçiləri yanılda bilən ifadələrdən istifadə edilməməlidir.

Yekun rəy budur ki, son dəyişikliklər mediadan sui-istifadə hallarının qarşısını alacaq. Azərbaycanın informasiya mühitinin sağlamlaşdırılması üçün tətbiq edilən mexanizmləri tamamlayacaq.



**Müşfiq ƏLƏSGƏRLİ,**
**XQ-nin media eksperti**

# Siyasi partiya sədrlərinin Ağdam səfəri





**Ölkədə fəaliyyət göstərən siyasi partiya sədrlərinin və nümayəndələrinin növbəti səfəri iyulun 10-da Ağdam şəhərinə təşkil olunub.**

Siyasi partiya sədrlərinin işğaldan azad olunmuş ərazilərə səfərləri ölkəmizdə təşviq edilən siyasi dialoq mühitinin ayrılmaz hissəsidir. Demokratik ənənələrin dərinləşməsinə xidmət edən bu təcrübə Azərbaycan cəmiyyəti tərəfindən rəğbətlə qarşılanır və fəal şəkildə dəstəklənir. Dialoq mühiti siyasi müstəvidə tərəflər arasında etibarlı və güvənli münasibətlərin formalaşdırılmasına xidmət edir.

Son illər ərzində Ağdam, Şuşa (2 dəfə), Zəngilan (2 dəfə), Xocalı, Əsgəran, Xankəndi, Laçın və Cəbrayıla təşkil olunmuş bu cür səfərlər artıq müsbət demokratik ənənəyə çevrilmiş, onların reallaşdırılması isə cəmiyyətdə həmrəylik mühitinin qorunmasına, habelə xalqın intellektual potensialının səfərbər edilməsinə xidmət edir. Təsadüfi deyil ki, ölkənin siyasi ritorikasında ən çox rast gəlinən "siyasi dialoq" məfhumu, eyni zamanda, Azərbaycanın siyasi gündəliyinə də daxil olub. Ölkədə fəaliyyət göstərən siyasi partiya sədrlərinin Azərbaycan Respublikası Prezidenti Administrasiyasının Siyasi partiyalar və qanunvericilik hakimiyyəti ilə əlaqələr şöbəsinin təşkilatçılığı ilə növbəti səkkizinci birgə səfəri də məhz ölkədə mövcud açıq iqtidar-müxalifət dialoqunun bilavasitə təzahürüdür.

Prezident İlham Əliyevin təşəbbüsü ilə təşviq edilən siyasi dialoq mühiti çərçivəsində Azərbaycanda son beş il ərzində siyasi partiyaların iştirakı ilə mütəmadi olaraq müxtəlif səpkili layihələr icra edilir. Bütün təşəbbüslərin strateji hədəfi milli həmrəyliyin qorunması, habelə dövlət və cəmiyyətin inkişafı naminə vətənpərvər qüvvələrin səfərbər olunmasıdır.

İşgüzar və fəal fikir mübadiləsi şəraitində keçirilmiş səfər zamanı Prezident Administrasiyasının Siyasi partiyalar və qanunvericilik hakimiyyəti ilə əlaqələr şöbəsinin müdiri Ədalət Vəliyev Ağdamda siyasilərin qarşısında çıxış edərək demokratik ənənələrin dərinləşdirilməsi məqsədilə Prezident İlham Əliyevin təşəbbüsü ilə ölkədə təşviq olunan siyasi dialoq mühiti çərçivəsində görülmüş işlər haqqında geniş məlumat verib.

Sağlam və etibarlı əməkdaşlıq mühitinin siyasi sabitliyin, dayanıqlı inkişafın əsas və prinsipial göstəricilərindən olduğunu vurğulayan Administrasiya rəsmisi bildirib ki, mövcud istiqamətdə əldə edilmiş bütün uğurların əsasında məhz Prezident İlham Əliyev tərəfindən nümayiş olunan siyasi iradə dayanıb.

Azərbaycan Prezidenti, Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə 44 günlük Vətən müharibəsində qazanılan şanlı Qələbənin müasir Azərbaycan tarixinin ən qürurlu səhifəsi olduğunu bildirən Ədalət Vəliyev qeyd edib ki, bütün uğurların qorunmasında həmrəylik mühitinin müstəsna rolu var. Siyasi sabitlik, xalqın əzmkarlığı, cəmiyyətimizdə yaşanan milli həmrəylik mühiti və dönməz ali siyasi iradə Azərbaycanın inkişafının və beynəlxalq müstəvidə nüfuzunun artırılmasının əsaslarıdır.

Ölkəmizdə fəaliyyət göstərən siyasi partiyaların sədr və nümayəndələri, habelə politoloq, siyasi şərhçi, internet televiziyalarının rəhbərləri və qəzet redaktorlarının iştirak etdiyi Ağdam səfərinin proqramı kifayət qədər zəngin idi. Belə ki, səfər çərçivəsində partiya sədrləri Ağdam Dəmiryol və Avtovağzal Kompleksinin fəaliyyəti ilə yaxından tanış olublar. Daha sonra səfər iştirakçılarına Xıdırlı kəndində görülən inşaat işləri haqqında geniş məlumat verilib. Ağdam Muğam Mərkəzi, Ayköl Manas adına Xıdırlı kənd tam orta məktəbi, Ağdam Konqres Mərkəzi və Ağdam City Hotel mehmanxanasında olmuş qonaqlar, eyni zamanda, İmarət Kompleksi və Cümə Məscidini də ziyarət ediblər.

Ağdam, Füzuli və Xocavənd rayonlarda Azərbaycan Respublikası Prezidentinin xüsusi nümayəndəsi Emin Hüseynov qonaqların qarşısında çıxış edərək bildirib ki, Ağdamda qısa müddət ərzində görülən işlərin timsalında işğaldan azad olunmuş bütün ərazilərdə aparılan genişmiqyaslı işlər Azərbaycan dövlətinin iqtisadi qüdrətini nümayiş etdirir.

Eyni zamanda, Ağdam Sənaye Parkı haqqında da geniş məlumat verilib. Parkda ümumi investisiyalarının məbləği 238 milyon manatdan çox olan 27 sahibkarlıq subyektinə rezidentlik, 6 sahibkara isə qeyri-rezidentlik statusu verilib. Bu 33 sahibkarlıq subyekti tərəfindən sənaye parkında ümumilikdə 2090 iş yerinin yaradılması nəzərdə tutulur. Artıq bu günədək rezidentlər tərəfindən sənaye parkına 72 milyon manatdan çox investisiya yatırılıb, 300-dək daimi iş yeri yaradılıb.

"Böyük Qayıdış" Proqramı çərçivəsində görülən işlər haqqında səfər iştirakçılarına məlumatların verilməsi zamanı bildirilib ki, Ağdamın turizm potensialı digər rayonlarda yaradılacaq turizm imkanları ilə uzlaşdırılacaq. Burada hotellər, istirahət zonaları yaradılacaq və kənd turizmi də inkişaf etdiriləcək. Yaradılacaq yeni infrastruktur layihələri Qarabağa qayıdacaq insanlar üçün məşğulluq və gəlir mənbəyi olacaq. Ağdamda beynəlxalq tədbirlərin keçirilməsi faktı isə bütün Qarabağın dünyanın siyasi xəritəsində nüfuzlu məkanlarından birinə çevrilməsi deməkdir.

***XQ***

---

**Ermənistanın Azərbaycana qarşı hərbi təcavüzü nəticəsində sülh və insanlıq əleyhinə cinayətlər, müharibə cinayətləri, o cümlədən təcavüzkar müharibənin hazırlanması və aparılması, soyqırımı, müharibə qanunlarını və qaydalarını pozma, habelə terrorçuluq, terrorçuluğu maliyyələşdirmə, hakimiyyəti zorla ələ keçirmə, onu zorla saxlama və digər çoxsaylı cinayətlər törətməkdə təqsirləndirilən Ermənistan Respublikasının vətəndaşları Arayik Harutyunyan, Arkadi Qukasyan, Bako Sahakyan, Davit İşxanyan, David Babayan, Levon Mnatsakanyan və digərlərinin barəsində olan cinayət işləri üzrə açıq məhkəmə prosesinin baxış iclası iyulun 10-da davam etdirilib.**

# Ermənistan hərbçilərinin əsir və girovlara verdiyi dəhşətli işgəncələr təsdiqini tapır

Bakı Hərbi Məhkəməsində hakimlər Zeynal Ağayevin sədrliyi ilə, Camal Ramazanovdan və Anar Rzayevdən ibarət tərkibdə (ehtiyat hakim Günel Səmədova) keçirilən məhkəmə iclasında təqsirləndirilən şəxslərin hər biri bildikləri dildə tərcüməçi, həmçinin müdafiələri üçün vəkillərlə təmin olunub.

İclasda təqsirləndirilən şəxslər, onların müdafiəçiləri, zərərçəkmiş şəxslərin bir qismi, onların hüquqi varisləri və nümayəndələri, həmçinin dövlət ittihamını müdafiə edən prokurorlar iştirak ediblər.

Hakim Zeynal Ağayev prosesdə ilk dəfə iştirak edən zərərçəkmiş şəxslərə məhkəmə heyətini, dövlət ittihamını müdafiə edən prokurorları, tərcüməçiləri və s. təqdim edib, habelə onların qanunvericiliklə nəzərdə tutulmuş hüquqlarını və vəzifələrini izah edib.

Zərərçəkmiş Vüqar Eminov deyib ki, 1994-cü ildə Ağdamın Güllücə kəndində yaralı vəziyyətdə əsir götürülüb. Əvvəlcə Xankəndiyə, sonra Şuşaya aparılaraq həbsxanada saxlanılıb. Əsirlikdə saxlandığı müddətdə ona dəhşətli işgəncələr verilib. Hər gün rezin dəyənək, dəmir parçası ilə döyülüb, bədəninə elektrik cərəyanı verilib. Məcburi əməyə cəlb edilib, uzun müddət çətin işlərdə işlədilib. Dövlət ittihamçısı Vüsal Abdullayevin sualına cavabında bildirib ki, onunla birlikdə saxlanılan bəzi əsirlər verilmiş işgəncələr nəticəsində dünyasını dəyişib. O, 1995-ci ildə əsirlikdən azad olunub.

Zərərçəkmiş Teyyub İsmayılov da Ermənistanın Azərbaycana hərbi təcavüzü nəticəsində zərər çəkib. O, ifadəsində bildirib ki, bu müharibə nəticəsində yaralanıb və sağlamlığını itirib. Dövlət ittihamçısı Təranə Məmmədovanın sualına cavabında bildirib ki, həmin vaxt Ermənistan silahlı qüvvələri yaşayış məntəqələrimizə iriçaplı silahlar və ağır texnika ilə hücum edib.

Məhkəmədə ifadə verən İmran Quliyev deyib ki, Ermənistan Xocalını işğal edəndə bacısı Zöhrə Quliyeva şəhid olub, özü isə yaralanıb. Düşmən ona bacısının nəşini götürməyə belə imkan verməyib. İ.Quliyev buna üç gündən sonra böyük çətinliklə nail olub. Qardaşı Zakir Quliyevin taleyindən isə indiyədək xəbər yoxdur. Baş Prokurorluğun Dövlət ittihamının müdafiəsi üzrə idarəsinin şöbə rəisi Nəsir Bayramovun sualına cavabında bildirib ki, həmin vaxt mühasirədə olan Xocalının dinc sakinləri hər gün atəşə tutulub.

Zərərçəkmiş Ramil Ələkbərov ailə üzvləri ilə Xocalıda Qala dərəsi adlandırılan yerdə yaşadıqlarını, 1992-ci il fevralın 25-dən 26-na keçən gecə - Xocalı soyqırımı zamanı ermənilərin mülki azərbaycanlıları atəşə tutduğunu, nəticədə ölənlərin olduğunu, özünün isə sağ ayağından yaralandığını, 200 nəfərdən çox azərbaycanlı ilə birlikdə girov götürüldüyünü bildirib. Həmin vaxt 12 yaşı olan zərərçəkmiş deyib ki, orada





aralarından 12-13 nəfər girov şəxs ermənilər tərəfindən çölə çıxarılıb. Həmin şəxslərin hamısı güllələnərək qətlə yetirilib. Girovlardan bir qismi isə seçilərək avtomobillə naməlum istiqamətə aparılıb.

Ramin Əzizov Xocalı soyqırımı zamanı doğmalarının qətlə yetirildiyini söyləyib. O, hadisələr zamanı 14 yaşının olduğunu, ermənilərin atdığı "Alazan" raketinin partlaması nəticəsində bədəninin müxtəlif nahiyələrindən xəsarətlər aldığını deyib. R.Əzizov fevralın 26-da digər azərbaycanlılarla birlikdə ermənilər tərəfindən girov götürüldüyünü, martın 3-də azad edildiyini bildirib. Baş prokurorun xüsusi tapşırıqlar üzrə köməkçisi Tuqay Rəhimlinin sualına cavabında deyib: "Yaşımın az olmasına baxmayaraq, mənə də işgəncə verirdilər, döyürdülər. İşgəncə verənlərdən Edik adlı erməninin adı yadımda qalıb".

Xocalı işğal olunanda zərərçəkmiş Mübariz Həmidovun isə 13 yaşı olub. 1992-ci il fevralın 25-dən 26-na keçən gecə atəş, partlayış və insanların qışqırıq səsinə yuxudan oyanıb. Ermənistan silahlı qüvvələri şəhərə hücum edərək evləri yandırıb, insanları gülləyiblər. Mülki əhali canını qurtarmaq üçün qarda, şaxtada ayaqyalın, başıaçıq Kətik meşəsinə üz tutub. Amma düşmən onlara qaçmağa da imkan verməyib. Yolda insanlara atəş açaraq güllələbaran ediblər. Mübariz Həmidov dövlət ittihamçısı Fuad Musayevin sualına cavabında deyib ki, o, canını birtəhər qurtararaq Ağdamın Şelli kəndinə gəlib. Hadisə zamanı anasını, dayısını və daha bir neçə nəfər doğmasını itirib. İndiyədək anasının taleyindən xəbər yoxdur. Həmin vaxt ayaqları donduğundan həkimlər onun barmaqlarından üçünü amputasiya etməli olub.

Ramin Bağırov Xocalı faciəsi zamanı azyaşlı olduğunu, yaxınları ilə birlikdə Dəhraz adlı yerdə girov götürüldüyünü bildirib. Onlar donuz fermasında saxlanılıb. Fevralın 29-da digər azərbaycanlılarla birlikdə girovluqdan azad edilib. Xocalı hadisələri zamanı əmisi və dayısı itkin düşüb, onlardan hələ də məlumat yoxdur.

Rövşən Xudayarov Xocalı soyqırımı zamanı 19 yaşının olduğunu, hücumla əlaqədar qardaşları, bacıları və digər doğmaları ilə birlikdə yaşadıqları ərazini tərk etmək məcburiyyətində qaldıqlarını bildirib. O, digər qohumları və həmyerliləri ilə birlikdə meşədə qaldıqlarını, fevralın 28-də Ermənistan silahlı qüvvələri tərəfindən girov götürüldüklərini bildirib. Girov düşən zaman onlara atəş açılıb. Nəticədə ölənlər və yaralananlar olub. Həmin vaxt R.Xudayarov da yaralanıb.

Xaliq Mirzəyev ifadəsində 1996-cı ilin avqust ayında Gədəbəy rayonunun Qaravəlilər kəndində meşədə gəzərkən Ermənistan silahlı qüvvələri tərəfindən girov götürüldüyünü bildirib. 45 gündən sonra Azərbaycana qaytarılıb.

Vaqif Namazov ifadəsində Xocalı soyqırımı zamanı çoxsaylı qəlpə yaraları aldığını, qəlpələrdən təxminən 20-sinin hələ də bədənində qaldığını bildirib. Qeyd edib ki, Ermənistan hərbçiləri onu girov götürərək Əsgərana aparıb. Fevralın 27-də isə Azərbaycana qaytarılıb.

Ceyhun Əbdülov ifadəsində Xocalıda anadan olduğunu, soyqırımı zamanı ailə üzvləri ilə Xocalını tərk etdiklərini bildirib. Həmin vaxt o, yaralanıb və anası ilə birlikdə girov götürülüb. Zərərçəkmiş daha sonra Xankəndiyə aparılıb. Girovluqda üç ay saxlanılıb.

Mürvət Məmmədov deyib ki, onun ailəsi Qərbi Azərbaycandan məcburi şəkildə didərgin salınanlardandır. 1988-ci ildə Xocalıda məskunlaşıblar. Xocalı soyqırımı törədiləndə yaralanıb. Ailəsi ilə birlikdə girov götürülüb. Atasının və qardaşlarının başını kəsiblər. Onun gözü qarşısında Xocalıdan olan Əhməd adlı azyaşlı oğlanın isə əlinin içinə odlu silahla atəş açıblar. Baş prokurorun böyük köməkçisi Vüsal Əliyevin sualına cavabında deyib ki, 7 gün girovluqda saxlandığı zaman ona müxtəlif işgəncələr verilib. Onunla bərabər digər beş ailə üzvü də girovluqda saxlanılıb və işgəncələrə məruz qalıb.

"Atamın və qardaşlarımın başlarını kəsiblər. Onların indiyə qədər meyitləri tapılmayıb", - deyə o əlavə edib.

Bildirib ki, yeddi gün girovluqda saxlanılıb, həmin müddətdə işgəncələrə məruz qalıb.

Ələsgər Abbasov ifadəsində 1992-ci ildə Qazax rayonunun kəndlərinin müdafiəsi uğrunda gedən döyüşlərdə yaralandığını bildirib.

Vahid Quliyev 1992-ci ildə Qırmızıbazarda yaralanaraq əsir götürüldüyünü, 1 ay 4 gün sonra Azərbaycana təhvil verildiyini və həmin müddət ərzində amansız işgəncələrə məruz qaldığını deyib.

Səfər Sadıqov Fərrux dağı uğrunda gedən döyüşlərdə yaralandığını və əsir götürüldüyünü deyib. O, əsirlik müddətində müxtəlif ağır işgəncələrə məruz qaldığını söyləyib.

Mehman Yusifov, Əli İsmayılov, Adil Yusifov və Nazim Hüseynov 1992-ci ildə Qazaxın Quşçu Ayrım kəndinin müdafiəsi uğrunda gedən döyüşlərdə Ermənistan ordusunun açdığı atəşlər nəticəsində yaralandıqlarını bildirib.

Təhsin Həsənov 1991-ci ildə, Famil Məmmədov 2003-cü ildə Qazax rayonunda girov götürüldüklərini söyləyib. Hər iki şəxs girovluqda olan zaman işgəncələrə məruz qaldıqlarını qeyd edib.

Mikayıl İbrahimov 1992-ci ildə Qazaxın Balacəfərli kəndində ermənilərin mülki avtomobili atəşə tutması nəticəsində yaralandığını deyib.

Aydın Süleymanov 1995-ci ildə Qazax rayonunun Kəmərli kəndində heyvan otaran zaman girov götürülüb, 3 gün sonra Azərbaycana qaytarılıb. Həmin müddət ərzində müxtəlif işgəncələrə məruz qalıb və döyülüb.

Zaur Əliyev ifadəsində 1992-ci ildə Şuşanın Ermənistan silahlı qüvvələri tərəfindən işğalı zamanı atasının qabırğasının, əmisinin çənəsinin və dişlərinin qırıldığını deyib. Onların evi talan edilib, özləri Xankəndiyə aparılıb. Əmisi 4 ay, atası 5 ay girovluqda olub. Özü isə Ermənistanın Qafan rayonunda ermənilərdən birinin evinin həyətində damda saxlanılıb. İki həftə ayağından kəndirlə bağlı vəziyyətdə qalıb. Ümumilikdə 6 ay girovluqda saxlanılıb. Girov götürülən zaman onun 9 yaşı olub.

Bəşir Qarayev ifadəsində 1993-cü ildə girov götürüldüyünü, Şuşa həbsxanasında saxlanıldığını, həmin müddətdə işgəncələrə məruz qaldığını, ölən azərbaycanlı əsir və girovların həbsxananın həyətində basdırıldığını deyib.

Ömər Ələkbərov 2020-ci il noyabrın 9-da Xocavənddə yaralandığını, huşsuz vəziyyətdə əsir götürüldüyünü bildirib. O, əsirlikdə olduğu 34 gün ərzində işgəncələrə məruz qaldığını söyləyib.

Hamaya Alıyeva ifadəsində 1992-ci ilin aprelin 8-də Ermənistan silahlı qüvvələrinin Kəlbəcər rayonunun Ağdaban kəndinə hücum edərkən kənd sakinlərini qətlə yetirdiyini, həmin vaxt həyat yoldaşı Kamal Abıyevin və qızı Ülviyyə Abıyevanın öldürüldüyünü deyib.

Vazeh Qaraşov Ermənistan ordusunun Ağdabana hücumu zamanı kəndin digər evləri kimi onun da evinin talan edildiyini bildirib.

Duman Müseyibov ifadəsində 1992-ci ildə Goranboyda qardaşının Ermənistan silahlı qüvvələri tərəfindən güllələnərək öldürüldüyünü, özünün isə yaralandığını bildirib.

Yalçın Süleymanov ifadəsində 1992-ci ildə Ağdərə uğrunda gedən döyüşlər zamanı əsir götürüldüyünü, 2 il 11 ay Şuşada saxlanıldığını, həmin müddətdə işgəncələrə məruz qaldığını, məcburi şəkildə işlədildiyini söyləyib.

Bayram Kərəmov 2020-ci il noyabrın 8-də Ermənistan silahlı qüvvələrinin açdığı atəş nəticəsində yaralandığını, noyabrın 11-də əsir götürüldüyünü, dekabrın 14-də Azərbaycana təhvil verildiyini, əsirlikdə olduğu müddətdə müxtəlif işgəncələrə məruz qaldığını söyləyib.

Elxan Novruzov ifadəsində 1992-ci ildə Kəlbəcərdə yaralandığını və əsir götürüldüyünü bildirib. O, Ağdərə rayonunda saxlanılıb. Əsirlik müddətində döyülüb, çoxsaylı işgəncələrə məruz qalıb, o cümlədən dişləri çəkilib. E.Novruzov 4 il 1 ay əsirlikdə saxlanılıb, 1996-cı il mayın 10-da əsirlikdən azad olunub.

Samir Məcidov ifadəsində bildirib ki, Ağdam rayonu uğrunda gedən döyüşlərdə yaralanıb və Ermənistan silahlı qüvvələri tərəfindən əsir götürülüb, Şuşa həbsxanasına aparılıb. O, 2 ay 6 gün əsirlikdə saxlanıldığı müddət ərzində işgəncələrə məruz qalıb, müxtəlif alətlərlə döyülüb.

Zaur Alıyev ifadəsində 8 ay əsirlikdə saxlanıldığını bildirib. Həmin müddətdə digər əsir və girovlar kimi ona da işgəncə verilib.

Zərərçəkənlər, həmçinin təqsirləndirilən şəxslərin, onların müdafiəçilərinin və özlərinin nümayəndələrinin suallarını cavablandırıblar.

Məhkəmə prosesində, həmçinin zərərçəkmiş şəxslərin barələrində keçirilmiş məhkəmə-tibbi ekspertizasının rəyləri elan edilib.

Məhkəmə prosesi iyulun 11-də davam etdiriləcək.

# Geosiyasi yaddaşın yenidən yazılması

## *Qarabağ və Şərqi Zəngəzura səyyah axınının beynəlxalq əks-sədası*

**Cənubi Qafqazda yeni siyasi reallıqların formalaşdığı bir dönəmdə Qarabağ və Şərqi Zəngəzura təşkil olunan beynəlxalq səyyah səfərləri transformativ xarakterli geosiyasi aktlardır. Səfərlər Azərbaycanın post-münaqişə dövründə həyata keçirdiyi "yumşaq güc" siyasətinin konkret təzahürüdür və informasiya suverenliyinin bərpası üçün mühüm alətə çevrilir. Geosiyasətdə klassik sərt güc elementləri ilə yanaşı, identitet, yaddaş, informasiya və təsəvvürlər uğrunda gedən "səssiz müharibə" getdikcə daha aktual olur. Məhz bu kontekstdə MTP klubunun (Most Traveled People) Qarabağ və Şərqi Zəngəzura 13-cü dəfə təşkil etdiyi səfər qlobal miqyasda çoxqatlı simvolik mənalar kəsb edir.**

İlk baxışdan bir səyahət marşrutu kimi təqdim edilən bu təşəbbüs, əslində, beynəlxalq legitimlik, informasiya sahəsində hegemonluq və tarixi-narrativ üstünlük uğrunda gedən daha dərin mübarizənin hissəsidir. Elə bu baxımdan da, Qarabağ və Şərqi Zəngəzura edilən səfərlər beynəlxalq münasibətlərdə konstruktiv simvol siyasətinin klassik nümunəsinə çevrilməkdədir. Səfərlər vasitəsilə Azərbaycan "siyasi yaddaşın rekonstruksiyası" prosesini həyata keçirir — yəni işğal dövründə təhrif olunmuş tarixi-mədəni kontekstləri yeni-



dən tərtib edir və beynəlxalq ictimaiyyətin şüuruna doğru məlumat ötürür.

MTP klubunun təsisçisi və amerikalı səyyah Çarlz Vileyin bu missiyaya şəxsən rəhbərlik etməsi hadisəyə həm də "qlobal informasiya hadisəsi" statusu qazandırır. Beynəlxalq münasibətlərdə qeyri-dövlət aktorlarının – media, bloggerlər, qeyri-hökumət şəbəkələri və səyyah platformalarının artan rolu bu cür təşəbbüslərin strateji



çəkisini xeyli artırır. Çarlz Viley kimi şəxslər Qərb cəmiyyətində "təəssürat istehsalçıları" rolunu oynayır: onların gördükləri, yazdıqları, paylaşdıqları kontentlər ictimai rəyin formalaşmasına birbaşa təsir edir. Nəticədə Qarabağ kimi post-münaqişə bölgələr beynəlxalq miqyasda informasiya məkanında mübarizənin obyektinə çevrilir.

Belə səfərlər "informasiyanın beynəlxalq dövriyyəsi" baxımından Azərbaycan üçün strateji fürsət yaradır. Azərbaycan 2020-ci ildən sonra hərbi qələbəni informasiya və ictimai rəy uğrunda mübarizəyə transformasiya edərək, "məlumat cəbhəsi"ndə də mövqeyini möhkəmləndirir. Məhz bu kontekstdə səyyah səfərləri milli narrativin beynəlxalq auditoriyaya ötürülməsi baxımından "yumşaq güc diplomatiyası"nın effektiv alətinə çevrilir.

*

Uzun illər ərzində müharibə, işğal və qaranlıq tarixlə yadda qalan Qarabağ bu gün tədricən bərpa, inkişaf və beynəlxalq tanınma proseslərinin simvoluna çevrilməkdədir. Qlobal siyasi kontekstdə Qarabağ artıq keçmişin faciələri ilə deyil, gələcəyin quruculuğu ilə assosiasiya olunmağa başlayır. Transformasiya, sadəcə, infrastrukturun və şəhərlərin yenidən qurulması ilə məhdudlaşmır; burada əsas məsələ informasiya məkanında yeni imicin formalaşdırılmasıdır. Məhz bu nöqtədə "dark tourism" – yəni faciə, müharibə və tarixi travma məkanlarına edilən səfərlər – klassik turizm növündən çıxaraq, strateji kommunikasiya alətinə çevrilir.

Qarabağ və Şərqi Zəngəzura edilən növbəti səfər bu baxımdan həm də "qara yaddaşın ağ informasiyaya çevrilməsi" – yəni travmatik keçmişin beynəlxalq ictimaiyyətə yeni narrativlə təqdim olunması strategiyasıdır. Strategiyanın arxasında duran əsas məqsəd Azərbaycan həqiqətlərini informasiya blokadasından çıxarmaq, uzun illər boyunca təhrif olunmuş qlobal şüurun içində yeni bir şüur yaratmaq və regionu həm hüquqi, həm də mənəvi baxımdan tanıtdırmaqdır. Beləliklə, informasiya sahəsində gedən "yumşaq güc" rəqabətində Qarabağ artıq aktiv oyunçudur.

*

Səfərdə iştirak edən 15 ölkədən olan tanınmış səyyahlar – xüsusən də, ABŞ vətəndaşı, MTP klubunun təsisçisi Çarlz Vileyin rəhbərliyi – təşəbbüsün təsir gücünü qat-qat artırır. Qərb dünyasının ən nüfuzlu "təəssürat istehsalçıları" – yəni qlobal səyyahlar, bloqerlər, jurnalistlər və humanitar şəbəkələr – artıq yeni dövrün informasiya elçiləridir. Onlar informasiya suverenliyi uğrunda mübarizədə həlledici amillərdən birinə çevriliblər. Qarabağ kontekstində bu səfərlərin əsas funksiyası da məhz budur: regionun müasir simasını göstərmək, real vəziyyəti təqdim etmək və uzun illər təhrif olunmuş reallığı şəffaf, vizual və faktlara əsaslanan bir şəkildə beynəlxalq ictimaiyyətə çatdırmaq.

Səfərin təşkil edildiyi marşrut – Füzuli, Xocavənd, Şuşa, Xankəndi, Xocalı, Ağdam, Kəlbəcər, Laçın, Zəngilan və Cəbrayıl – bir zamanlar xarabalığa çevrilmiş bu ərazilərin bərpa olunmuş və ya bərpa prosesində olan vəziyyətini canlı şəkildə nümayiş etdirmək məqsədi daşıyır. Mövcud situasiya isə həm də "vizual diplomatiya" metodudur. İndi artıq bərpa edilən şəhərlər və qəsəbələr, məktəblər, hava limanları, yollar və yaşayış məntəqələri haqqında yazılan hesabatlar, çəkilən şəkillər və paylaşılan sosial media məzmunları birbaşa beynəlxalq informasiya platformalarına daşınır.

*

Burada diqqətçəkən və strateji əhəmiyyət daşıyan əsas məqam ondan ibarətdir ki, bu cür beynəlxalq səfərlərlə Qarabağ yalnız hərbi və fiziki baxımdan azad edilmiş bir ərazi deyil, eyni zamanda informasiyanın illərlə təhrif olunduğu, sükutun hökm sürdüyü bir boşluğun – yəni "mətnsiz məkanın" azadlığına da nail olunur. Geosiyasi reallıqlarda "boşluq" heç vaxt təsadüfi olmur – informasiya boşluğu da elə fiziki işğal qədər təhlükəli və dağıdıcı ola bilər. Çünki bu boşluqları illər boyu fərqli güclər öz maraqları üçün "virtual işğal" altında saxlayır, həqiqətləri təhrif edir və alternativ tarix yazırlar.

Qarabağda baş verən bu yeni proses isə həmin informasiya boşluğunun nəzarət altına alınması, yenidən yazılması və qlobal mediada reallıqlara əsaslanan mətnlərlə doldurulması deməkdir. Səyyah missiyaları bu mənada həqiqət bərpaçılarının səfərləridir – onlar bu bölgədə baş verənləri obyektiv şəkildə sənədləşdirərək, illərlə formalaşdırılmış saxta təsəvvürləri sarsıdırlar.

Qarabağla bağlı beynəlxalq mediada uzun müddət formalaşmış və çox zaman birtərəfli təsvirlərə əsaslanan narrativlərin dəyişdirilməsi, məhz bu cür şəffaf, vizual və yerində müşahidəyə əsaslanan səfərlərlə mümkün olur. Prosesin arxasında duran əsas məntiq belədir: "Yazılmamış hekayə başqasının yazdığı hekayəyə çevrilər." Azərbaycan bu reallığı anlayaraq, "informasiyanın işğaldan azad olunması" istiqamətində strateji addımlar atır və bu səfərləri öz informasiya suverenliyinin mühüm hissəsinə çevirir.

Sonda qeyd etmək lazımdır ki, bu səfər vasitəsilə Azərbaycan siyasi identitetini, suveren hüquqlarını və post-konflikt dövründə seçdiyi sülhə yönəlmiş inkişaf yolunu dünyaya nümayiş etdirir. Burada informasiya diplomatiyasının, qeyri-ənənəvi beynəlxalq təbliğatın və siyasi yaddaşın idarə olunmasının sintezindən söhbət gedir. Qarabağ gələcəyin məkanıdır – və bu gələcək beynəlxalq səviyyədə də tanınmağa doğru irəliləyir.

*Şəbnəm ZEYNALOVA,*
*XQ-nin siyasi analitiki,*
*siyasi elmlər üzrə fəlsəfə doktoru*

# Siyasi rəqibə qarşı hüquqi maneə

## *Avropa Məhkəməsi Parisin siyasi oyunlarında alətə çevrilir*

**(əvvəli 1-ci səhifədə)**

Məsələyə münasibət bildirən Le Pen onunla bağlı qərar qəbul edən hakimlərə qarşı ittihamlar səsləndirib. O, qərəzin qurbanı olduğunu iddia edərək, məhkəmənin siyasi tərəfkeşliyinə eyham vurub: "Bu, məhkəmə qərarı deyil. Bu, siyasi qərardır! Həqarət, qisas və məhkəmənin müxalifətə qarşı ova çıxmaq anlayışı mənim ədalət anlayışıma tamamilə ziddir".

Qeyd edək ki, M.Le Pen təkcə Fransada deyil, ümumavropa miqyasında nüfuzlu siyasətçidir. Fransız millətçi siyasətçisi Jan-Mari Le Penin qızı olan Marin 2011-ci ildən 2021-ci ilədək "Mili birlik" partiyasının lideri olub. O, 2017-ci ildən Fransa parlamentinin aşağı palatası – Milli Assambleyanın üzvüdür. "Milli birlik" partiyasının Fransa cəmiyyətində mövqeyi son illərdə xeyli güclənib, populyarlığı artıb. Təkcə onu demək kifayətdir ki, partiya Milli Assambleyadakı 577 deputat yerindən 126-sına malikdir. Halbuki, 2022-ci ilin iyununda keçirilən parlament seçkilərindən əvvəl partiya Milli Assambleyada cəmi 8 yerə sahib idi.

M.Le Pen Fransada 2012, 2017 və 2022-ci illərdə keçirilən prezident seçkilərində iştirak edib. 2012-ci ildə birinci turda üçüncü, 2017 və 2022-ci illərdə ikinci turlarda ikinci yeri tutub. İki ildən sonra – 2027-ci ildə ölkədə növbəti prezident seçkiləri keçiriləcək. Bir sıra ekspertlərin bildirdiyinə, eləcə də Fransanın Rəy və Marketinq Tədqiqatları İnstitutunun (IFOP) keçirdiyi sorğunun nəticələrinə görə, seçkilərin ikinci turunda "Milli birlik" partiyasının namizədi mərkəzçi qüvvələri təmsil edən namizədlə qarşılaşacaq. İnstitut sorğunu seçicilər siyahısında qeydiyyatdan keçmiş 10 min nəfər arasında aparıb. Qeyd edilib ki, 2027-ci il prezident seçkilərinin birinci turunun bir neçə konfiqurasiyası sınaqdan keçirilib. Sorğunun nəticələrinə görə, "Milli birlik" partiyası prezident seçkilərinin ilk turunda 32-35 faizlə qalib gələcək. Bu nəticələr ultrasağçı partiyanın Avropa Parlamenti (31,37) və yerli parlament (33,34) seçkilərində əldə etdiyi səs faizləri ilə bir daha təsdiqlənib.

**

Bu baxımdan istər Paris məhkəməsinin martın 31-də çıxardığı qərar, istərsə də AİHM-in bu qərarla bağlı Le Penin iddia-




sını rədd etməsi Fransa siyasi dairələrinin açıq müdaxiləsi və hüquqi institutların siyasi sifarişlərə tabe olması kimi dəyərləndirilə bilər. Hər iki qərar Le Penin yüksələn reytinqinə və seçki perspektivlərinə qarşı qabaqlayıcı zərbədir. Bu, həm də Avropa məhkəmə sistemində obyektivliyin selektiv şəkildə işlədiyinə dair narahatlıqları artırır. Xüsusilə, AİHM-in Le Penin iddiasını rədd etməsi nəinki hüquqi, həm də ciddi siyasi və ideoloji suallar doğurur. Paris Məhkəməsinin çıxardığı qərarı qüvvədə saxlayan AİHM özünü hüquqi obyektivliyin təminatçısı kimi təqdim etsə də, bu qərarın arxasında siyasi motivlərin dayandığını görmək çətin deyil.

Hər şeydən əvvəl, AİHM-in Fransada – Strasburqda yerləşməsi onun neytrallığına kölgə salan ciddi faktordur. Bu məhkəmə nəzəri baxımdan müstəqil olsa da, onun Avropa siyasi elitasının ideoloji sərhədlərindən kənara çıxan, xüsusilə də Brüssel və Parisin mövqelərinə zidd çıxış edən siyasətçilər üçün bir növ tələ rolunu oynadığına dair fikirlər yeni deyil. Le Penin timsalında isə bu tələnin tam işə salındığını müşahidə etmək olar.

Paris məhkəməsinin çıxardığı qərar və AİHM-in bu qərara tam dəstək verməsi ultrasağçıların getdikcə daha da gücləndiyi Fransada siyasi rəqiblərin hüquqi yollarla neytrallaşdırılması kimi izah oluna bilər. Qeyd etdiyimiz kimi, Le Pen son illərdə keçirilən bütün prezident seçkilərində ciddi nəticələr əldə edən, sosioloji sorğularda isə hətta Emmanuel Makronu qabaqlayan siyasətçidir. Bu səbəbdən, onun siyasi səhnədən kənarlaşdırılması təkcə hüquqi məsələ deyil, həm də siyasi manevrdir. Üstəlik, Le Penin mövqeyi təkcə Fransanın daxili siyasəti ilə məhdudlaşmır. O, həmçinin Avropa İttifaqının miqrasiya siyasətini, LGBT təbliğatını, federalizm yönümlü dəyərləri və Brüssel mərkəzçiliyini açıq şəkildə tənqid edir. Bu isə Avropa qurumlarında, o cümlədən AİHM-də onun simasında "sistem üçün təhlükə" obrazı formalaşdırır.

Əlbəttə, məhkəmənin bu qərarını hüquqi prosedurlar çərçivəsində əsaslandırmağa çalışması anlaşılandır. Ancaq maraqlıdır ki, digər Avropa ölkələrində oxşar hallarda, məsələn, Almaniyada və ya İtaliyada siyasi fiqurların bu cür radikal şəkildə cəzalandırılmasına nadir hallarda rast gəlinir. Le Penin siyasi fəaliyyətinin faktiki olaraq dayandırılması isə həm Fransa dövlət aparatının, həm də onun təsiri altındakı beynəlxalq hüquqi institutların siyasi motivli qərar verdiyini təsdiqləyir.

Nəticə etibarilə, bu qərar AİHM-in "hüququn tərəfsiz keşikçisi" imicinə ciddi zərbə vurur. Le Penin tərəfdarları haqlı olaraq hesab edirlər ki, onun siyasi xəttini dəyişmək, onu susdurmaq mümkün olmadıqda, hüquqi alətləri silah kimi istifadə edərək aradan götürmək strategiyası seçilib. Bu isə təkcə Fransa üçün deyil, bütövlükdə Avropa demokratiyası üçün təhlükəli presedentdir. Çünki bu cür qərarlar yalnız M.Le Peni deyil, həm də gələcəkdə istənilən sistemə zidd çıxan siyasətçini eyni aqibətə sürükləyə bilər.

*

Onu da bildirək ki, bir neçə gün əvvəl Fransa maliyyə polisi "Milli birlik" partiyasının mənzil-qərargahında axtarışlar aparıb. Partiyanın hazırkı rəhbəri Jordan Bardellanın sözlərinə görə, əsas müxalifət partiyasının bütün elektron məktubları, sənədləri və mühasibatlıq yazışmaları ələ keçirilib. O qeyd edib ki, maliyyə polisinin hansı iddialara əsaslandığını hələ bilmirlər. "Bizə yalnız o məlumdur ki, son regional, prezident, qanunvericilik və Avropa kampaniyaları, yəni partiyanın bütün seçki fəaliyyətləri ilə bağlı faylların hamısı indi məhkəmələrin əlindədir", – deyə Bardella bildirib.

**Beynəlxalq Avrasiya Mətbuat Fondunun vitse-prezidenti, siyasi şərhçi Oğuz Mirzəyev** bu istiqamətdə XQ-yə açıqlamasında bildirdi ki, əgər bu hadisə




hansısa Cənubi Qafqaz və ya Yaxın Şərq ölkəsində baş versəydi, hazırda Qərb mediasının bütün manşetləri məhz bu xəbərlə bağlı olar, "azadlıqlar tapdanır", "seçki hüququ pozulur", "avtoritarizm güclənir" kimi sərlövhələr hər tərəfdə səslənəcəkdi: "Amma bu dəfə məsələ Parisdədir deyə sanki hamının dili-ağzı bağlanıb. Sanki "demokratiya" anlayışı bu sərhədlərdə öz funksiyasını itirir. Heç kim danışmaq istəmir. Çünki söhbət "özlərindən biri"ndən – Avropanın "nümunəvi ölkəsi"ndən gedir. Halbuki eyni proses, yəni əsas müxalifət liderinin seçkilərdən kənarlaşdırılması, partiya qərargahında axtarışlar və seçki sənədlərinin müsadirə olunması başqa bir coğrafiyada, məsələn, Cənubi Qafqazda və ya Yaxın Şərqdə baş versəydi, artıq qətnamələr hazırlanır, "seçki monitorinqi" komissiyaları göndərilir, diplomatlar "dərin narahatlıq" ifadə edirdi.

Müsahibimiz qeyd etdi ki, Le Penin beş il müddətinə seçkilərdə iştirakdan məhrum edilməsi ,sadəcə, bir hüquqi qərar deyil. Fransa cəmiyyətində geniş dəstəyə malik müxalifət liderini istər hüquqi bəhanə, istərsə də inzibati mexanizmlərlə seçkilərdən əvvəl sıradan çıxarmaq sistemin alternativ fikrə dözümsüzlüyünü göstərir: "Bu qərarın ardınca partiyanın qərargahına edilən basqın və bütün seçki sənədlərinin, yazışmaların, maliyyə məlumatlarının müsadirə olunması artıq hüquqi çərçivəni aşan siyasi təzyiqdir. Artıq burada təkcə bir siyasətçinin deyil, bütöv bir siyasi cərəyanın hədəfə alınmasından söhbət gedir. Cəmiyyətin alternativ seçim hüququ bu cür "demokratik" mexanizmlərlə boğulur".

O.Mirzəyevin fikrincə, rəsmi Paris bu davranışı ilə uzun illər təbliğ etdiyi demokratik dəyərlərin öz daxilində nə qədər saxta olduğunu nümayiş etdirdi: "Seçib-seçilmək azadlığı, siyasi plüralizm, təşkilatlanma hüququ – bunların hamısı yalnız siyasi maraqlara uyğun gəldiyi halda keçərlidir. Beynəlxalq institutlar isə bu mənzərə qarşısında səssiz dayanaraq, bu seçici və riyakar münasibəti legitimləşdirir. Bu hadisə bir daha sübut edir ki, "demokratiya" anlayışı Qərb üçün prinsiplərdən çox, situativ maraqların alətidir. Əgər hansısa siyasi qüvvə sistemə meydan oxuyursa, onun qarşısını almaq üçün istənilən vasitə – hüquqi, inzibati, informasiya resursları – işə salınır. Bu vəziyyət onu göstərir ki, sistem artıq fərqli düşüncəni rəqib yox, təhlükə kimi görür. Belə olduqda isə siyasi mübarizə yox, siyasi bloklama prosesi işə düşür. Seçki hüququ yalnız kağız üzərində qalır, real təsir gücü olan alternativlərsə süni şəkildə aradan qaldırılır. Bu model nə qədər "qanuni" göstərilsə də, cəmiyyətin seçim hüququ ilə manipulyasiya etməkdən başqa bir şey deyil. Etimadın itməsi isə gec-tez sistemin özünü də udur. Bəlkə də ən narahatedici məqam odur ki, bütün bunlar Qərbin digər ölkələrinin susqun razılığı fonunda baş verir".

*Səxavət HƏMİD*
*XQ*

# Sülhə dönüş anı




(əvvəli 1-ci səhifədə)

Bəli, Ermənistanın Azərbaycanın irəli sürdüyü sülh konsepsiyasını qəbul etməkdən başqa yolu yoxdur. N.Paşinyanın regionda sülhün yaranmasında maraqlı olmayan xarici qüvvələrin kimliyini yaxşı tanımaq üçün kifayət qədər zamanı oldu. İrəvanın iki ölkə arasında “tet-a-tet” danışıqları və etimad quruculuğu tədbirlərini davam etdirmək barədə razılığa gəlməsinin bir səbəbi də məhz budur. Ermənistan hakimiyyəti bu görüşü və onun üçün yaranmış fürsəti düzgün dəyərləndirməli, tarixi şansı əldən buraxmamalıdır.

Onu da bildirək ki, Əbu-Dabinin görüş yeri kimi seçilməsi təsadüfi deyil. Çünki BƏƏ neytraldır, münaqişə tərəfləri ilə normal diplomatik münasibətlərə malikdir. Deməli, artıq tarixə çevrilmiş vasitəçilik ampluasından da uzaqdır.

Beləliklə, Əbu-Dabidə Azərbaycan–Ermənistan ölkələrarası normallaşma gündəliyinin müxtəlif aspektləri müzakirə edilib. Nəticədə həm texniki səviyyədə - ixtisaslaşmış işçi qruplarının işi çərçivəsində, həm də daha yüksək siyasi səviyyələrdə əlaqələrin davam etdirilməsi barədə ümumi razılıq əldə olunub. Bu barədə Azərbaycan Xarici İşlər Nazirliyinin görüşün yekunlarına dair yaydığı məlumatda qeyd olunub. Məlumata görə, ikitərəfli danışıqların normallaşma prosesi ilə bağlı bütün məsələlərin həlli üçün ən səmərəli format olduğu təsdiqlənib və bu əsasda nəticəyönümlü dialoqun davam etdirilməsi razılaşdırılıb.

Geniş formatlı görüşdə sərhədin delimitasiyası prosesi ilə bağlı əldə olunmuş nailiyyətləri dəyərləndirən liderlər bu istiqamətdə işlərin davamı üçün müvafiq dövlət komissiyalarına tapşırıqlar veriblər. Tərəflər həmçinin ölkələr arasında ikitərəfli danışıqları və etimad quruculuğu tədbirlərinin də davamı barədə razılığa gəliblər.



Azərbaycan və Ermənistan liderlərinin təkbətək görüşünün nəticələri də onu deməyə əsas verir ki, Ermənistanın regionda uzunmüddətli sabitliyə nail olmaq meyilləri, habelə ölkənin sülh müqaviləsinin imzalanması və kommunikasiyaların açılması məsələsində irəliləyiş əldə edilməsinə çalışması yaxın aylarda yekun müsbət nəticənin əldə olunmasını mümkünləşdirə bilər. Azərbaycan XİN-in məlumatında o da qeyd olunur ki, Əbu-Dabi görüşündə tərəflər onilliklər ərzində gərginlik mənbəyi olaraq qalmış sərhədlərin delimitasiyası məsələsinə diqqət yetirib, regionun iqtisadi və geosiyasi xəritəsini dəyişdirmək potensialına malik strateji nəqliyyat arteriyası olan Zəngəzur dəhlizinin açılmasına, bununla paralel olaraq sülh müqaviləsinin paraflanmasına hazırlıq prosesini müzakirə ediblər. Bu məsələlər üzrə müzakirələrin dərin və məzmunlu olması danışıqlar prosesinin keyfiyyətcə yeni mərhələyə qədəm qoyduğunu deməyə imkan verir.

Əslində, Bakı–İrəvan dialoqu yalnız rəsmi mövqelərin mübadiləsi ilə məhdudlaşmayıb. Görüşdə real və konkret təkliflərin müzakirəsi aparılıb ki, bu da ümumi maraqların sərhədlərini və fikir ayrılıqlarını daha aydın şəkildə müəyyənləşdirməyə imkan verib.

Belə nəticəyə gəlmək olar ki, Əbu–Dabidə görüşü sülhə aparan yolda çox mühüm mərhələ hesab edilməlidir. Bu görüş özündə vasitəçilik və himayəçilik missiyalarından imtina etmiş, qonşu kimi yaşamağı öyrənməli olan ölkələr arasında sağlam və yetkin dialoqa keçidi əks etdirir. Bəli, arzuolunan sülh müqaviləsi hələ qarşıdadır, amma ona nail olmağın mümkünlüyü heç vaxt olmadığı qədər realdır. Ümid edək ki, proses tezliklə reallaşacaq.

***İmran BƏDİRXANLI***
***XQ***

## Ekspert rəyi



**Fikrət SADIXOV,**
**Qərbi Kaspi Universitetinin professoru, politoloq**

– Əbu-Dabi görüşünün əsas üstünlüyü odur ki, danışıqlar heç bir vasitəçi olmadan aparıldı. Həm geniş formatda, həm də təkbətək təmaslarda çox ciddi məsələlər müzakirə olundu. Əlbəttə, yığılmış problemləri bir görüşdə həll etmək mümkün deyil. Üstəlik, Ermənistan Azərbaycanın əsas şərtlərinə hələ əməl etməyib. Həmin şərtlər kifayət qədər əsaslandırımış və aydın şəkildə irəli sürülüb. Söhbət Ermənistan konstitusiyasında qonşulara qarşı ərazi iddialarının yer aldığı müddəaların aradan qaldırılmasından və ATƏT-in Minsk qrupunun de-yure ləğvindən gedir. Zəngəzur dəhlizinin açılması kimi çox vacib məsələ də öz həllini tapmalıdır. Mövcud reallıq ondan ibarətdir ki, Nikol Paşinyan hazırda ölkə daxilində bir çox problemlərlə üzləşib. Müxalif siyasi qüvvələrin alyansı ona qarşı çıxışlar edir, satqın adlandırırlar. Belə bir şəraitdə baş nazirin hansısa sənədə imza atacağını gözləmək düzgün olmazdı.

Hər halda, verilən məlumatlara görə, danışıqlar konstruktiv şəkildə aparılıb. Hər iki hökumətin müvafiq qurumlarına konkret tapşırıqlar verilib. Bunun ardınca texniki məsələlərin həlli ilə bağlı daha aşağı səviyyədə görüşlərin keçirilməsi barədə razılıq əldə olunub. Düşünürük ki, gündəlikdə duran məsələlər addım-addım həll olunacaq. Doğrudur, bütün məsələlərin çox qısa zamanda aradan qaldırılacağını gözləmək sadəlövhlük olar. Ona tam əminəm ki, Bakı bundan sonra da özünün “hücum diplomatiyası”na köklənən addımlarını atacaq. Hazırda Ermənistanın dünyadan təcrid olunmuş vəziyyətə düşdüyünü yaxşı anlayırıq. İrəvanın həm Ankara, həm də Bakı ilə münasibətləri tezliklə bərpa etməyə ciddi ehtiyacı var. Bu münasibətlərə geosiyasi və iqtisadi amillər daxildir. Hesab edirik ki, Azərbaycanın yürütdüyü düzgün siyasi kurs sülh danışıqlarını məntiqi nəticəyə aparıb çıxaracaq.

# İrəvanda “daşnak ovu”

## *Ermənistan rəhbərliyinin məqsədi nədir?*

**Birləşmiş Ərəb Əmirliklərində Prezident İlham Əliyevlə Ermənistanın baş naziri Nikol Paşinyan arasında görüşün start götürməsi ilə demək olar eyni vaxtda İrəvanda “daşnak ovu” başlayıb. İlk baxışdan, bu, təəccüblü görünə bilər. Çünki N.Paşinyan və komandası bütün ermənilərin katolikosu, Erməni Apostol Kilsəsinin rəhbəri II Qareginə qarşı mübarizə aparırdı. Belə təəssürat var idi ki, din xadimi və onunla əlaqəli şəxslərin həbsi təhlükəsi yaranıb. Doğrudur, təhlükə hələ sovuşmayıb. Ancaq valın birdən-birə II Qaregindən daşnaklara çevrilməsi maraqlıdır.**



Bəli, hər şey Ermənistanın güc strukturlarının nümayəndələrinin Daşnaksütyun Partiyasını ölkə parlamentində təmsil edən deputat Geqam Manukyanın və qurumun digər təmsilçisi – aparat rəhbəri Vahan Matinyanın evinə basqın edib yoxlanış aparmaları ilə başlayıb. Adıçəkilən şəxslər saxlanılıblar. Bundan başqa, partiyanın bəzi fəalları da Ermənistan İstintaq İdarəsinə aparılıb. Saxlanılanlar içərində Daşnaksütyunun gənclər təşkilatının sədri Gevorq Muradyan və İrəvan şəhər komitəsinin üzvü Arsen Martoryan, həmçinin barəsində söz açdığımız G.Manukyanın oğlu Taron Manukyan da var. Bir sözlə, daşnaklar pərən-pərən salınıb.

Haşiyə çıxaq ki, Daşnaksütyun Partiyası Ermənistan parlamentində “Ermənistan” fraksiyasının tərkibində “Çiçəklənən Ermənistan” Partiyası ilə birgə təmsil olunur. “Çiçəklənən Ermənistan”ın sədri isə Rusiya ilə bağlı iş adamı, milyarder Qagik Tsarukyandır. Yəni, faktiki olaraq, daşnakları maliyyələşdirən Tsarukyandır ki, onun da Paşinyan iqtidarı tərəfindən bir neçə dəfə həbsə atıldığı məlumdur.

“Ermənistan” fraksiyasına gəldikdə, qurum 2021-ci ilin iyununda keçirilmiş növbədənkənar parlament seçkilərindən sonra yaradılıb. G.Manukyan onun əsas simalarından sayılsa da, faktiki rəhbərlik deputatlar İşxan Saqatelyana və Artur Xaçatryana məxsusdur. Bu iki şəxsin də erməni iqtidarına qarşı sərt çıxış və bəyanatlarının şahidi olmuşuq.

Beləliklə, G.Manukyan evində aparılan axtarışlarla bağlı təfərrüatları bölüşüb. Onun bildirdiyinə görə, əvvəlcə İstintaq Komitəsi və Təhlükəsizlik Xidmətinin əməkdaşları oğlunun yaşadığı evə daxil olaraq axtarış aparmaq istədilər. “Əsaslandırmaları çox cəfəng idi. Səhər bizə bildirdilər ki, gənclərimizin evlərində axtarış aparılır və mənim telefonumu da müsadirə etmək istəyirlər. Mən onlara başa saldım ki, deputatın şəxsi əşyalarını müsadirə etməyə hüquqları yoxdur və məhkəmə qərarında da belə bir şey nəzərdə tutulmur. Qərar yalnız Taronla (Manukyanın oğlu – red.) bağlı idi”, - deyən daşnak parlamentari özünə qarşı fiziki güc tətbiq edildiyini və baş verənlərin siyasi sifariş olduğunu diqqətə çatdırıb.

Əlbəttə, “daşnak ovu”nun siyasi sifariş mahiyyəti daşıdığı birmənalıdır. Başlıca məsələ sifarişin nə üçün məhz indi icra edilməsidir. Görünür, Paşinyan, loru dildə desək, sağ göstərib sol vurur. Axı o, birbaşa kilsənin üzərinə gedirdi. Yəqin, kampaniya nəzərdə tutulan effekti verməyib. Ona görə də baş nazir dini ruhaniliyin dəstəklədiyi daşnakları sıradan çıxarmağa qərar verib. Heç şübhəsiz, bu gediş kilsəni və onun rəhbəri II Qaregini başlıca dayaqlarından məhrum etmək məqsədi də daşıyır.




Ancaq onu da nəzərə alaq ki, Daşnaksütyun Ermənistanın köklü partiyalarındandır və hazırda Paşinyan iqtidarına qarşı ən sərt bəyanat və çıxışlar məhz bu təşkilatın kluarlarında hazırlanır. O da məlumdur ki, qurum təkcə sözlü etirazlar müstəvisi deyil. Daşnaksütyun həm də terrorçu təşkilatdır. Onun qatı türk düşmənçiliyinə kökləndiyi və kursunu bu gün də davam etdirdiyi sirr deyil.

Bəli, daşnaklar Ermənistanda revanşizmi və şovinizmi təbliğ edən qüvvədirlər. Onlar Azərbaycanla sülhə qarşı çıxırlar və ölkə xaricində də ciddi dəstəyə malikdirlər. Təsadüfi deyil ki, “daşnak ovu”na münasibət bildirən bir sıra erməni siyasilər prosesi Azərbaycan-Ermənistan normallaşmasının son fazaya daxil olması ilə əsaslandırırlar. Belələrinin düşüncəsinə görə, N.Paşinyan daşnakları təzyiqə məruz qoymaqla barış mühitinə zidd elementləri sıradan çıxardığına dair mesaj verir.

Daşnaksütyunun terrorçu mahiyyətinə gəlincə, üfüqdə Bakı-İrəvan sülhünün göründüyü bir zamanda qurumun bu yolu seçmək potensialının olduğunu vurğulamalıyıq. Heç şübhəsiz, barış mühiti dolğunluq qazandıqca Ermənistandakı həm daşnaklar, həm də digər revanşist-şovinistlər fəallaşacaqlar. Üstəlik, onların II Qareginin rəhbərlik etdiyi kilsənin timsalında, belə demək mümkünsə, ideoloji istinad mərkəzləri də var. Bu mərkəzin Daşnaksütyunun resursları və millətçi qaragüruh potensialı ilə Paşinyan iqtidarına qarşı terrora əl atacağı istisna edilmir. Erməni müxalif kəsim hazırda bütün imkanlardan məhrumdur və indiki durumda Paşinyanı aradan götürmək və hakimiyyəti devirmək qalır.

Sonda belə qənaətə gəlmək mümkündür ki, N.Paşinyan administrasiyası başda kilsə olmaqla, ölkədəki müxalif kəsimi zərərsizləşdirmək istiqamətindəki fəaliyyətinə daşnaklara qarşı total mübarizəni də əlavə edib. Özlüyündə bu, Ermənistanın mövcudiyyət tarixində ilk də sayıla bilər. Mübarizə hansı nəticələr verəcək, nəticələrin Bakı-İrəvan sülhünün əldə edilməsinə töhfəsi olacaqmı, bunu zaman göstərəcək. Hər bir halda, Daşnaksütyun kimi terrorçu qurumun Ermənistanın siyasi sistemindən silinməsi şərtdir. “Daşnak ovu” məhz bu məqsədi reallaşdıracaqmı, bunu da göstərəcək olan zamandır. Necə deyərlər, yaşayarıq, görərik.

***Ə.RÜSTƏMOV***
***XQ***

# Folklor, folklorşünaslıq və dövlətçilik



II MƏQALƏ

### Ortaq dünyaduyumu: folklorun təməl funksiyası

Biz məsələni artıq epistema sahəsində (rasional məntiq sahəsi) təhlil edirik. Folklorun sosial-mədəni funksiyaları çoxaspektlidir. Onların təməlində xeyli dərəcədə mücərrəd (abstrakt) xarakterə malik və incə düşüncə kültürü tələb edən bir funksiya vardır. O, folklorun kollektiv birgəyaşamda (tayfa, xalq, millət, toplum və s. formalarda) insanların özlərinə və dünyaya münasibətlərinin ümumi xarakterini ifadə edən faktorla bağlıdır. Həmin keyfiyyətdə folklor qövmün dünyaduyumunu inteqrativ formada ifadə edir.

Folklor bu statusda təməldən birləşdirici, sintezedici rola malikdir. Xalqın emosional duyumu ilə rasional-məntiqi baxışlar müstəvisi arasında ideya bağlantısı yaradan isə folklorşünaslıqdır. Folklor (doksa kimi) folklorşünaslığa (epistema kimi) kollektiv dünyaduyumunun müdriklik kodlarını verir. Folklorşünaslıq isə rasional məntiq bucağı altında həmin müdriklik elementlərini kodlar (və ya memlər) kimi toplumun həyatının bütün sferalarına "yükləyir".

Burada özlüyündə iki məqam bir-biri ilə vəhdətdə sübutsuz yer alır – birincisi, folklor folklorşünaslıq vasitəsi ilə Vətənsevərliyə, ikincisi, xalq müdrikliyinin sosial-mədəni və siyasi müdrikliyə proyeksiyası üçün imkanlar yaradır. Bu iki özəlliyin vəhdəti ümumi anlamda Azərbaycanşünaslığın mühüm parametrləri kimi qəbul edilməlidir. Onların hər biri üzərində ayrıca dayanaq.

### Vətənsevərlik və azərbaycançılıq

İlk baxışdan bu anlayışların bir-birinə bağlılığı aksiom kimi görünür. Yəni azərbaycançı olmaq elə vətənsevərlik deməkdir. Əlbəttə, bu doğrudur. Lakin fərdi və kollektiv şüurda həmin bağlılığın özünütəsdiqi ayrıca məsələdir və özlüyündə onu reallaşdıran rasional mexanizm tələb edir. Onun üçün ciddi konseptual özəlliklərə malik ideya məfkurəsi gərəkdir. Azərbaycanda bu funksiyanı Heydər Əliyev anlamında azərbaycançılıq yerinə yetirir.

Hələ azərbaycançılığın ideya, konsept və ideoloji konsepsiya kimi tam adekvat dərki mövcud deyildir. Azərbaycanda buna doğru gedilir. Bu prosesdə də insafən AMEA-nın son illərdəki fəaliyyətini təqdir etmək lazımdır. Eyni zamanda, azərbaycançılığın vətənsevərlik aspektinin sosial mühitdə təsdiqində sosio-humanitar emlərin müxtəlif sahələrinin rolu xüsusidir. Bura fəlsəfə, tarix, filologiya, şəqrşünaslıq, folklorşünaslıq, kulturologiya, etika, estetika və digərləri daxildir. Bütün bu elmi istiqamətlərin vətənsevərliyin özünütəsdiqində rolu məsələsi folklora bağlıdır.

Bizcə, vurğulanan elm sahələri folklor elementini nəzərə almasalar, azərbaycançılıq kontekstində vətənsevərlik yarımçıq olacaq. Və hətta möhkəm kökü olmayan dayanıqsız təsəvvürlər kompleksi halına düşəcək.

Belə alınır ki, həqiqi azərbaycançı Vətənsevərdir. Vətənsevərlik isə xalqın dünyaduyumunun duyğusallığının keçmişdən indiyə Zamanda daşınması (Yaşar Qarayev) sayəsində dünyagörüşünün kodu kimi mövcud ola bilir. Bu proses intellektual fakt qismində folklorşünaslıqda rasional-məntiqi baxışlar sistemi statusunu ala bilir.

Buradan isə AMEA-da müəyyən edilmiş birinci prioritet istiqamət kontekstində folklorşünaslığın Azərbaycanşünaslığın mühüm tərkib hissəsi kimi həm təsdiqinə, həm də perspektivli inkişafına keçid etmək mümkündür.

Eyni zamanda, bu prosesin dövlətçilik kontekstində yuxarıda vurğuladığımız iki əlaməti fəlsəfi baxımdan kreativ yanaşma tələb edir. Həmin əlamətlər xalq müdrikliyinin sosial-mədəni və siyasi müdrikliyə proyeksiya imkanları ilə bağlıdır.

### Xalq müdrikliyindən siyasi müdrikliyə

Bütövlükdə "sosial-mədəni müdriklik" mürəkkəb elmi məsələdir və onun üzərində burada dayanmaq mövzunu qəlizləşdirər. Əslində, xüsusi olaraq həmin anlayışın məzmunu aydınlaşmalıdır. Buna görə də folklorşünaslıq üçün Azərbaycanşünaslıq kontekstində vacib olan xalq müdrikliyi-siyasi müdriklik münasibətlərinə baxaq.

Azərbaycan dövlətçiliyində qədimdən xalq faktoru əsas rol oynamışdır. Azərbaycanda xalqın dövlət qurmaq mədəniyyəti ənənə halını almışdır. Burada başlıca faktor kimi azərbaycanlıların kollektiv səviyyədə özünütəşkili fəlsəfəsinin bütövlükdə dövlətçilik fəlsəfəsinin təməlini təşkil etməsi ilə bağlıdır. Bu məsələ mücərrəd xarakterli deyildir – tarix boyu konkret reallaşma mexanizmlərinə malik real quruculuq prosesidir.

Araşdırmalar göstərir ki, onun üç mühüm müəyyənedici faktoru mövcuddur.

Birincisi, kollektiv mövcudolmanın sosial-mənəvi özünütəşkili forması. Bura azərbaycanlıların ailə, qəbilə, tayfa, tayfalar birliyi, xalq və millət kimi özünüyaratmalarının sosial, mədəni, mənəvi və ideya aspektlərinin vəhdəti daxildir. Faktlar göstərir ki, Azərbaycan cəmiyyəti geniş anlamda bu trekdən kənara çıxamışdır.

İkincisi, Azərbaycan cəmiyyətinin özünüyaratması həmişə qanun-hüquq vəhdəti kontekstində olmuşdur. Azərbaycanda dövlətin təməlində cəmiyyət (el) üçün həlledici sayılan hüquqi qanunlar dayanmışdır. Onun üç növünü ayırmışlar – hökmdar Qanunu, divan (parlament, məclis) Qanunu və Yosun Qanunu. Hökmdar və divan qanunları cəmiyyəti idarəedənlərin yaratdıqlarıdır. Yosun Qanunu isə cəmiyyətin özünü sosial-mədəni praktikada yaratmasına aiddir. Onun başlıca mənası azərbaycanlıların öz köklərinə, qədimdən gələn ənənəyə (törə), kollektiv mövcudolmanın başlıca prinsiplərinə tam sadiqliyinin saxlanmasından ibarətdir.

Folklor mövzusu və dövlətçilik münasibətləri baxımından burada əsas məsələ Yosun Qanununun sosial-mədəni praktikada reallaşması ilə əlaqədardır. Tarixən Hökmdar və Divan Qanunları məhz Yosun Qanununa tabe olmuşlar. Yəni dövlətin rəhbərliyi və icraedici orqanı son həddə xalqın daxili təkamül qanununa tabe olmuşdur. O mənada ki, xalqın özünüyaratması fəlsəfəsi dövlətçiliyin üsul, forma və mövcudolma mexanizmlərini müəyyən etmişdir. Buna görədir ki, müasir Azərbaycan Respublikasının Konstitusiyasında dövlət suverenliyinin mənbəyi kimi xalq suverenliyi göstərilmişdir. Müqayisə üçün deyək ki, Rusiya Konstitusiyasında dövlət suverenliyinin fonunda xalq suverenliyindən bəhs edilir. Azərbaycanda isə millət dövləti yaratmışdır, əksinə yox. Bu da Ulu öndərin dövlətçilik ənənəsini incəliyinə qədər mükəmməl bilməsi və ona daim siyasi-hüquqi məzmun verməsi deməkdir.

Beləliklə, qədimdən azərbaycanlının dövlətçilik şüurunda xalqın özünüyaratması fəlsəfəsi hökmdar (müasir terminlərlə, "dövlət başçısı", "prezident", "lider") və parlament (indi – Milli Məclis) fəaliyyətinin təşkil edilməsinin baza şərtlərini müəyyən etmişdir. Azərbaycan Prezidenti İlham Əliyev dəfələrlə vurğulamışdır ki, xalq əsas dayağıdır, dövlətin mənbəyi xalqın iradəsidir. Bunlar dərin düşünülmüş siyasi mövqenin və siyasi müdrikliyin göstəriciləridir.

Vurğulanan fəlsəfi xarakterli məsələlər aydın surətdə göstərir ki, dövlətçiliyimizn təməlində xalqın özünüyaratma formaları dayanır. Onun isə çox mühüm aspektini folklor təşkil edir. Bununla folklor xalq yaradıcılıq nümunəsi kimi kollektiv özünütəsdiqin başlıca üsuludur. Folklor həmin keyfiyyətdə xalq müdrikliyinin praktiki təcrübə kimi sosiallaşması və cəmiyyətin fəaliyyət "orqanizminə hopmasıdır". Folklor xalq müdrikliyinin yaradıcısı, özünütəsdiq "məkanı" və sosiallaşma mexanizmidir.

### AMEA-da yeniləşmə və folklorşünaslığa 3 baxış

Əgər Azərbaycan dövlətçiliyinin təməlində xalqın özünüyaratma fəlsəfəsi dayanırsa, onda təməldən folklor birbaşa dövlət quruculuğunun "mayası"ndadır. Həmin anlamda da Azərbaycan dövlətçiliyində xalq müdrikliyinin siyasi müdrikliyə adekvat proyeksiyası ənənə halını almış qaydadır.

Aparılan təhlildən üç mühüm nəticə hasil etmək olar.

Birincisi, AMEA rəhbərliyinin təşkilatı Azərbaycanşünaslığın mərkəzinə çevirmək strategiyası müstəqil dövlətçilik baxımından olduqca əhəmiyyətlidir. Bu məqamı AMEA-nın yeniləşmə kursu fəlsəfəsinin başlıca özəlliklərindən biri kimi qəbul etmək zəruridir.

İkincisi, müasir şərtlər daxilində folklorşünaslıq dövlət quruculuğunda ancaq Azərbaycanşünaslığın tərkib hissəsi kimi faydalı ola bilər. Həmin keyfiyyətdə folklorşünaslıq ayrıca tədqiqat sahəsi kimi xüsusi diqqət mərkəzində olmalıdır.

Üçüncüsü, folklorşünaslıq Azərbaycanşünaslığın digər tərkib hissəsləri kimi tarixin, fəlsəfənin, filologiyanın, şərqşünaslığın, mədəniyyətşünaslığın və başqalarının qarşılıqlı münasibətlərndə stimullaşdırıcı rol oynaya bilər.

Bu üç aspekt Azərbaycanşünaslığın strukturu, funksional özəllikləri və reallaşma mexanizmlərinə vahid bucaq altında yanaşmağa imkan verir. Azərbaycanşünaslığın nəzəri dərki və praktiki faydasını dövlətçilik kontekstində obyektiv anlamaq üçün onun struktur-funksional xüsusiyyətlərinin tədqiqi seçim deyil, zərurətdir.

Alimlər onun müxtəlif aspektlərdə tam obrazını yaratmadan cəmiyyət azərbaycançılığın dərin və fundamental ideya potensialını dərk edə bilməyəcək. AMEA-nın fəaliyyətinin prioritet istiqamətlərindən biri kimi Azərbaycançılıq və Azərbaycanşünaslığın xüsusi qeyd edilməsinin müstəqil dövlətçilik baxımından əsas mənası və mahiyyəti bundan ibarətdir.

Bu prosesdə folklorşünaslığın əsas stimulverici ideya gücü kimi qəbul edilməsi isə heç bir elm sahəsində qısqanclıq yaratmamalıdır. Təbii ki, hər bir elmi istiqamətin nümayəndələri öz sahəsini daha önəmli hesab edə bilər. Məsələn, fəlsəfə mənim üçün prioritetdir. Lakin müasir şərtlərdə müstəqil dövlətçiliyin ölkənin strateji inkişaf kursu çərçivəsində davamlı tərəqqisi aspektində folklorşünaslığın kollektiv birgəyaşamın və sosial-mədəni birliyin təminінin aparıcı faktorlarından biri olmasını inkar etmək olmaz. Bu, Azərbaycan dövlətçiliyinə və cəmiyyətin öz kimliyini saxlamaqla inkişaf prosesinə uyğun gəlmir.

Görünür, Azərbaycanda xalq müdrikliyinin siyasi müdrikliyə proyeksiyasının yeni nümunələrinə bundan sonra da rast gələcəyik. Ulu öndər Heydər Əliyevin məharətlə xalqın müdrikliyini siyasi müdrikliyə proyeksiya etməsi burada müəyyənedici faktor rolunu oynayacaqdır. Prezident İlham Əliyevin həmin istiqamətdə fəaliyyətinin kreativ aspekti xüsusi öyrənilməlidir.

Bunlar onu göstərir ki, vurğulanan problem əslində, alimləri səfərbər edir, dəqiq istiqamət üzrə yaradıcılığı fokuslandırır. Hazırda bu aspektdə AMEA-nın yeniləşmə kursu daxilində geniş tədqiqat imkanları yaranmışdır. Ümid edirik ki, həmin kursun həyata keçirilməsinin növbəti mərhələlərində bu məqamın yeni səviyyəyə yüksəldilməsinin şahidi olacağıq. AMEA-nın mövcudluğu və fəaliyyəti müstəqil dövlətçilik baxımından tarixdə görünməmiş dərəcədə Azərbaycan üçün əhəmiyyətli olmuşdur!

***Füzuli QURBANOV,***
***XQ-nin analitiki,***
***fəlsəfə elmləri doktoru***

# Avropa qurumlarının Gürcüstanda seçki təxribatları

## *Tbilisi və ATƏT/DTİHB arasında "müşahidəçilik böhranı"*

**"Gürcüstan hakimiyyəti qarşıdan gələn yerli özünüidarə seçkilərinə ATƏT-in Demokratik Təsisatlar və İnsan Hüquqları Bürosunu (DTİHB) müşahidəçi kimi dəvət etməyəcək. Çünki avropalı tərəfdaşların özləri bu təşkilatın nəticələrinə hörmət göstərmirlər. Əgər siz ATƏT/DTİHB-nin missiyalarına və nəticələrinə hörmət etmirsinizsə, bizim də onları dəvət etməməyimiz təəccüblü deyil". Bunu "Gürcü Arzusu – Demokratik Gürcüstan"ın nümayəndəsi Levan Maxaşvili deyib.**



O, ATƏT/DTİHB-nin parlament seçkiləri ilə bağlı hesabatlarını xatırladıb: "Hesabatda yalnız müəyyən prosedur pozuntuları qeyd olunub, lakin bu hallar seçkilərin nəticələrinə təsir göstərməyib. Gürcüstanda seçicilərin iradəsi tam şəkildə seçki nəticələrində öz əksini tapıb və bu, ATƏT-in baş katibi tərəfindən açıq şəkildə təsdiqlənib. ATƏT-in baş katibi Feridun Sinirlioğlu təşkilatın hesabatında qeyd olunan nöqsanlara baxmayaraq, seçkilərin nəticələrinin xalqın seçimini əks etdirdiyini və müxalifətin parlamentdə 40 faizdən çox təmsil olunmasının siyasi plüralizmin göstəricisi olduğunu bildirib. Buna baxmayaraq, bəzi şəxslər media vasitəsilə manipulyasiya xarakterli açıqlamalarla, guya, seçkilərin saxtalaşdırıldığını və bunu ATƏT-in sənədlərinin də təsdiqlədiyini iddia ediblər".

Onun sözlərinə görə, Gürcüstan hakimiyyətinin bu təşkilatı yerli seçkilərə dəvət etməməsinə təəccüblənmək lazım deyil. Çünki ATƏT/DTİHB-nin reputasiyası bir neçə aydır ki, qəsdən və sistemli şəkildə aşağı salınıb: "Əgər siz qurumun müşahidə missiyalarında dəyər görürsünüzsə, o zaman onların qərarlarına və nəticələrinə hörmət göstərin. Biz onlara qarşı hörmət görməmişik".

Baş nazir İrakli Kobaxidze bu günlərdə bildirib ki, ATƏT/ DTİHB-ni müşahidəçi qismində əsasən parlament seçkilərinə dəvət edirlər: "ATƏT /DTİHB-nin rəyinə məhəl qoymayanlar indi bizi missiyanı oktyabrda keçiriləcək bələdiyyə seçkilərini müşahidə etmək üçün dəvət etməyə çağırırlar. Lakin təcrübəyə əsasən, missiya parlament seçkilərini müşahidə etmək üçün dəvət olunur. Ona görə hesab edirik ki, onları yerli seçkilərlə yükləməyə dəyməz. ATƏT /DTİHB parlament seçkilərini müşahidə edib, rəy hazırlayıb, lakin hesabatla heç kim maraqlanmayıb. Bu gün həmin insanlar bizi missiyanı dəvət etməyə çağırırlar".

Xatırladaq ki, Böyük Britaniyanın Gürcüstandakı səfirliyi Gürcüstan hökumətini bu ilin oktyabrında keçiriləcək bələdiyyə seçkilərini müşahidə etmək üçün ATƏT/DTİHB-ə dəvət göndərməyə və onun 2024-cü il parlament seçkiləri ilə bağlı yekun hesabatındakı bütün tövsiyələri yerinə yetirməyə çağırıb.

Bu arada, ATƏT/DTİHB Gürcüstan hakimiyyətinin onlara dəvət göndərməməsi ilə bağlı təəssüf hissi keçirdiyini bildirib. Təşkilat açıqlayıb ki, bu addım "uzunmüddətli və ardıcıl birgə əməkdaşlıq təcrübəsindən uzaqlaşmaqdır" və əgər rəsmi dəvət alınarsa, qurum müşahidə missiyası göndərməyə tam hazırdır.

Bu arada iqtidardan fərqli olaraq müxalifət parlament seçkilərinin nəticələrini saxtalaşdırılmış adlandıraraq, onları tanımadığını bəyan edib və parlamentin fəaliyyətini boykot edərək növbədənkənar seçkilər tələb edirlər. Bununla yanaşı, Qərbdən "Gürcü Arzusu"na qarşı sanksiyalar tələb edırlər. Məsələn, bu günlərdə "Vahid Milli Hərəkat"ın sədri Tina Bokuçava, baş katib Petre Tsiskarişvili və partiyanın aparıcı simalarından biri – Levan Sanikidze Böyük Britaniyada Lordlar Palatasının üzvləri – Lord Corc Folks və Lord Ceyms Tuig ilə görüşdə bu tələblə çıxış ediblər.

Avropa Parlamentində oturanlar da müxalifətlə eyni mövqe sərgiləyir. AP-da Gürcüstanla bağlı iyulun 9-da qəbul edilən son qətnamə bunu deməyə əsas verir. Sənəddə Gürcüstan hökumətinə, xüsusilə hakim "Gürcü Arzusu – Demokratik Gürcüstan" partiyasına qarşı sərt ittihamlar yer alıb, ölkədə demokratik geriləmə ilə bağlı ciddi narahatlıq ifadə olunub. Qətnamədə keçmiş prezident Mixeil Saakaşvili və müxalifət liderləri azadlığa buraxılması, seçkilərin müstəqil və qərəzsiz seçki administrasiyasının nəzarəti altında, ədalətli, azad və şəffaf şəraitdə keçirilməsi və sabiq prezident Salome Zurabişvilinin rəsmi legitim təmsilçi kimi tanınması tələb olunub. Sənəddə "Gürcü Arzusu-Demokratik Gürcüstan"ın qurucusu Bidzina İvanişviliyə qarşı sanksiyaların tətbiqinə çağırış da yer alıb.

Qətnamədə bildirilir ki, hazırkı siyasi və hüquqi şərait bələdiyyə seçkilərində iştirak etmək istəyən namizədlər üçün çətinliklər yaradır: "Mövcud şəraitdə bələdiyyə seçkilərində iştirak potensial namizədlər üçün böyük çağırışdır – xüsusilə də azad və ədalətli rəqabətə ümid edənlər üçün. Hakimiyyət bu seçkidən yeni status-kvonun legitimləşdirilməsi üçün istifadə edə bilər".

AP qətnamədə vurğulayıb ki, Gürcüstanda yaranmış siyasi və konstitusiya böhranından yeganə çıxış yolu yaxın aylarda azad və ədalətli parlament seçkilərinin keçirilməsidir. Bu seçkilər təkmilləşdirilmiş seçki mühitində, beynəlxalq və yerli müşahidəçilərin ciddi monitorinqi ilə baş tutmalıdır ki, xalqın həqiqi iradəsi düzgün şəkildə əks olunsun. İndiki şəraitdə Gürcüstandakı vəziyyət Aİ-nin gözləntilərinə cavab vermir, demokratik institutlar zəifləyir və hökumət ictimai müzakirələr olmadan repressiv qanunvericilik təşəbbüsləri ilə çıxış edir. AP "Gürcü Arzusu–Demokratik Gürcüstan"nı demokratik islahatlar və Avro-Atlantik inteqrasiya yoluna qayıtmağa çağırır. Əks halda Gürcüstanın Aİ-yə gedən yolunun təhlükə altında qalacağını bildirir.

İqtidar partiyası və onun tərəfdarları isə bu qətnamələri qeyri-ciddi, birtərəfli və daxili siyasi proseslərə müdaxilə cəhdi kimi qiymətləndirirlər. Gürcüstan parlamentinin vitse-spikeri Gia Volski qətnamə layihəsini ədalətsiz və siyasi cəhətdən qərəzli adlandırıb. O bildirib ki, sənəddə yazılan hər bir söz Gürcüstana qarşı qərəzli münasibətin nümunəsidir: "Təəssüf ki, bu,



bizim reallığımızdır. Gürcüstana münasibətdə istifadə olunan hər bir ifadə ədalətsiz və birtərəflidir".

Gürcüstan parlamentin sədri Şalva Papuaşvili də AP-nin son qətnaməsinə reaksiya verib. O, bu sənədi "dəyərlərin çaşqınlığı" kimi qiymətləndirib. Papuaşvili sosial şəbəkədə paylaşdığı açıqlamada AP-nin Gürcüstanın üçüncü prezidenti Mixeil Saakaşvilinin azadlığa buraxılması ilə bağlı çağırışını tənqid edib. Onun sözlərinə görə, AP "diktator" adlandırdığı Saakaşvilinin qanuni həbsdən azad olunmasını tələb edir, halbuki, Saakaşvili Avropa İnsan Hüquqları Məhkəməsi tərəfindən məhbuslara qarşı sistemli və sistematik işgəncələrə görə ittiham olunub: "Dəyərlərin çaşqınlığı. Brüsselin bugünkü vəziyyəti haqqında bilməli olduğumuz tək şey budur", – deyə Papuaşvili qeyd edib.

Beləliklə, Gürcüstanın ATƏT/DTİHB müşahidə missiyasını seçkiyə dəvət etməmək qərarı ölkənin beynəlxalq demokratik öhdəlikləri ilə daxili siyasi narahatlıqları arasında gərginliyi ortaya qoyur. Digər tərəfdən, müxalifət qüvvələrinin seçkinin nəticələrini tanımaması ölkə daxilində siyasi qeyri-sabitliyi daha da dərinləşdirə bilər. Seçkilərin obyektivliyinə dair beynəlxalq legitimliyin zəifləməsi isə gələcək siyasi böhranların toxumu ola bilər.

***Pünhan ƏFƏNDİYEV***
***XQ***

# Orta Dəhliz – Avrasiyada nəqliyyatın şah damarı

(əvvəli 1-ci səhifədə)

Orta Dəhliz boyunca yerləşən ölkələrin nəqliyyat nazirləri ilə görüşlər, həmçinin avtomobil, dəmir yolu, dəniz və hava nəqliyyatı sektorlarından aparıcı nəqliyyat şirkətlərinin rəhbərlərinin iştirakı ilə dəyirmi masalar keçirilməsinin planlaşdırılması da məhz bu amillə bağlıdır. Nazirin sözlərinə görə, Ədalət və İnkişaf Partiyasının (AK Parti) hakimiyyəti illərində Türkiyə nəqliyyat və kommunikasiya infrastrukturuna, təxminən, 293,5 milyard ABŞ dolları məbləğində investisiya yatırıb. Mərkəzində Türkiyənin olduğu Orta Dəhliz dəmir yolu ilə 21 ölkəni birbaşa birləşdirir və qlobal ticarətin mühüm həlqəsinə çevrilir. 5 dəfədən çox artaraq 2021-ci ildəki 840 min tondan 2024-cü ildə 4,5 milyon tona çatıb. Ötən illə müqayisədə artım 62 faiz təşkil edib. Marşrutda iştirak edən ölkələrin qarşısına 2030-cu ilə qədər yük axınını 10 milyon tona çatdırmaq, eyni zamanda, yükdaşıma müddətini 53 gündən 23 günə qədər azaltmaq və bu göstəricini 15 günədək qısaltmaq qarşıya mühüm vəzifə kimi qoyulub.

Qazaxıstan və Azərbaycan tarixən yaxın münasibətlərə malik olublar. Hər iki ölkə türk dövlətləri ailəsinin fəal üzvüdür və regional əməkdaşlığın möhkəmlənməsində birgə maraqlıdır. Orta Dəhlizin inkişafı bu əməkdaşlığın iqtisadi dayağını gücləndirir. Qazaxıstan Xəzər dənizi vasitəsilə nəinki milli maraqlarını təmin edir, həm də Avrasiyada yeni iqtisadi nizamın formalaşmasına töhfə verirlər. Bu baxımdan, Orta Dəhliz gələcək onilliklərdə regionun inkişaf lokomotivlərindən biri olacaq.

Orta Dəhliz Rusiya üzərindən keçən Şimal marşrutundan fərqli olaraq daha dayanıqlı və şaxələndirilən tranzit imkanı təklif edir ki, bu da geosiyasi münaqişələr və sanksiyalarla bağlı risklərin azalmasına əlverişli şərait yaradır. Yalnız nəqliyyat funksiyası ilə kifayətlənməyən bu dəhliz, eyni zamanda, regional iqtisadi artım və inteqrasiyanın güclü katalizatoruna çevrilərək, infrastrukturun, sənayenin inkişafını və yeni iş yerlərinin yaradılmasını stimullaşdırır.




Əgər Süveyş kanalı ilə yük daşınması orta hesabla 35 gün, Ümid Burnu ilə 45 gün çəkirsə, Orta Dəhliz ilə bu müddətin 15 gündən az olacağı gözlənilir.

A.Uraloğlu qeyd edib ki, hazırda dəmir yolu şəbəkəsinin 651 kilometr uzunluğunda əsas hissələrində (Halkalı–Kapıkule, Gebze–Köseköy, Yerköy–Kayseri, Kars–Aralık–Dilucu, Sivas–Zara daxil olmaqla) işlər davam etdirilir, həmçinin ümumi uzunluğu 1394 kilometr olan yeni layihələr hazırlanır. Bu investisiyalar sayəsində Orta Dəhliz üzrə illik daşımaların həcminin 6,5 milyon tona çatacağı gözlənilir. Təkcə marşrutun dəmir yolu komponenti üzrə illik 75 milyard dollarlıq ticarət dövriyyəsi potensialı olduğu bildirilir.

Xatırladaq ki, 2024-cü ildə Orta Dəhliz ilə yükdaşımaların həcmi 62 faiz artaraq 4,5 milyon tona çatıb. 2025-ci ildə onun 5,2 milyon tona qədər artacağı gözlənilir ki, bunun da 4,2 milyon tonu marşrutda iştirak edən ölkələrdən keçəcək. Bu həcmin 2,5 milyon tonu quru yük (96 min TEU ekvivalenti), 1,7 milyon tonu isə neft olacaq.

Marşrutun ötürücülük qabiliyyəti 2027-ci ilə qədər ildə 10 milyon tona çata bilər ki, bu da Azərbaycanın tranzit potensialının genişləndirilməsi və infrastruktura əlavə investisiyaların cəlb edilməsi üçün davamlı zəmin yaradacaq.

Bu məqamda onu da qeyd edək ki, Qazaxıstan da Orta Dəhlizin sürətli inkişafında maraqlıdır. Bu ölkə ilə Azərbaycan arasında iqtisadi əməkdaşlığın əsas sütunlarından birinə çevrilən Orta Dəhliz kimi tanınan nəqliyyat-logistika marşrutu getdikcə daha strateji önəm daşıyır, iqtisadi əməkdaşlığın əsas amillərindən birinə çevrilir. "Astana" Beynəlxalq Maliyyə Mərkəzi və ADA Universiteti nəzdində İnkişaf və Diplomatiya İnstitutunun birgə hesabatında bu barədə deyilir: "Son 3 il ərzində Orta Dəhliz üzrə yükdaşımaların həcmi Azərbaycan limanlarına çıxış əldə etməklə öz məhsullarını Avropa bazarlarına çatdırmaqda mühüm üstünlüklər qazanır. Azərbaycan isə regionda logistik mərkəz kimi rolunu gücləndirir, Bakı Beynəlxalq Dəniz Ticarət Limanı bu baxımdan xüsusi əhəmiyyət daşıyır.

Beləliklə, Orta Dəhliz Asiya və Avropa bazarlarını birləşdirən əsas ticarət arteriyalarından biri olmaqla, yükdaşımaların həm çevikliyini, həm də təhlükəsizliyini təmin edir. Qazaxıstan və Azərbaycan bu marşrutda yalnız tranzit ölkələr kimi deyil, həm də logistika mərkəzləri kimi çıxış edirlər. Xəzər dənizi vasitəsilə bu iki ölkə arasında daşımaların genişlənməsi regionda yeni iqtisadi imkanlar yaradır.

Orta Dəhliz çərçivəsində irimiqyaslı infrastruktur layihələrinə beynəlxalq maliyyə qurumlarının marağı artır. Dünya Bankı, Avropa Yenidənqurma və İnkişaf Bankı (EBRD), Asiya İnkişaf Bankı (ADB) və digər qurumlar dəhlizin inkişafına dair layihələri dəstəkləyirlər. Bu, bir tərəfdən bölgəyə xarici investisiya axınını sürətləndirir, digər tərəfdən iştirakçı ölkələrin nəqliyyat və logistika imkanlarını dünya standartlarına uyğunlaşdırır.

Orta Dəhlizin rəqəmsallaşdırılması istiqamətində atılan addımlar da xüsusi qeyd olunmalıdır. "Bir pəncərə" prinsipinin tətbiqi, elektron sənəd dövriyyəsinin genişlənməsi və gömrük əməliyyatlarının avtomatlaşdırılması tranzit proseslərinin səmərəliliyini əhəmiyyətli dərəcədə artırır. Bu, həm də korrupsiya risklərini azaldır və yükdaşımalarda şəffaflığın təmin olunmasına xidmət edir.

Nəticə etibarilə, Orta Dəhliz təkcə yükdaşımaları sürətləndirən iqtisadi arteriya deyil, həm də regional sabitliyin və əməkdaşlığın güclənməsinə xidmət edən strateji platformadır. Qazaxıstan və Azərbaycan bu platformada birgə fəaliyyət göstərməklə

Avropa Yenidənqurma və İnkişaf Bankının (AYİB) proqnozlarına da yer verilir. Bankın hesablamalarına görə, Mərkəzi Trans-Xəzər marşrutu üzrə konteyner daşımalarının həcmi 2022-ci ildəki 18 min TEU-dan 2040-cı ildə 130 min TEU-ya çatacaq. Əgər böyük infrastruktur layihələri həyata keçirilərsə, bu rəqəm 865 min TEU-ya qədər yüksələ bilər ki, bu da mövcud göstəricidən 48 dəfə çoxdur. Dünya Bankı isə 2030-cu ilə qədər yükdaşımaların üç dəfə artaraq ildə 11 milyon tona çatacağını proqnozlaşdırır.

AYİB-nin hesabatına əsasən, Orta Dəhlizin inkişafına töhfə verən mühüm amillər sırasında nəqliyyat sənədlərinin rəqəmsallaşdırılması, gömrük prosedurlarının sadələşdirilməsi, sistemlərin qarşılıqlı uyğunluğunun artırılması və dövlət – özəl tərəfdaşlığının genişləndirilməsi qeyd olunub. Bundan əlavə, sənəddə "Astana" Beynəlxalq Maliyyə Mərkəzində qeydiyyatdan keçmiş şirkətlərin Orta Dəhlizin təşviqində oynadığı fəal rola da toxunulub. Belə ki, Qazaxıstan, Azərbaycan və Gürcüstanın dəmir yolu şirkətlərini birləşdirən "Middle Corridor Multimodal Ltd" birgə müəssisəsinin Çin və Avropa arasında multimodal daşımaların rəqəmsallaşdırılması və optimallaşdırılması üzərində müvafiq layihə reallaşdırdığı bildirilib.

Bütün bunlar deməyə əsas verir ki, son illərdə Avrasiya məkanında nəqliyyat-logistika infrastrukturunun inkişafında baş verən dönüş nöqtələrindən biri Orta Dəhlizin aktuallaşması və geosiyasi əhəmiyyətinin artması ilə bağlıdır. Bu dəhliz Qazaxıstan, Azərbaycan, Gürcüstan və Türkiyə ərazilərindən keçən strateji multimodal marşrut olmaqla, həm regional, həm də qlobal ticarət münasibətlərində mühüm rol oynayır. Xüsusilə, Qazaxıstan və Azərbaycan arasında ticari-iqtisadi əməkdaşlığın dərinləşməsində Orta Dəhliz körpü funksiyası daşıyır.

# Xankəndi gözəlləşir, Ağdərə yeniləşir, Xocalı dirçəlir

*Bu şəhərlərə 45,5 milyon manat investisiya qoyulub*

**Xankəndi şəhəri, Ağdərə və Xocalı rayonlarında sahibkarların səmərəli fəaliyyəti üçün geniş imkanlar yaradılıb. Həmin şəhər və rayonlardakı 474 tikili müraciətlər əsasında qanunvericiliyə uyğun olaraq sahibkarlara icarəyə verilib. Obyektlərə isə investorlar tərəfindən 45,5 milyon manat investisiya yönəldilib.**



Xankəndi şəhərində, Ağdərə və Xocalı rayonlarında Bərpa, Tikinti və İdarəetmə Xidmətinin ictimaiyyətlə əlaqələr şöbəsindən verilən məlumata görə, bunu çıxışında həmin yaşayış sahələrində Azərbaycan Respublikası Prezidentinin xüsusi nümayəndəsinin müavini Səbuhi Qəhrəmanov deyib.

S.Qəhrəmanovun sözlərinə görə, fəaliyyətə başlamış obyektlər üzrə 2 minə yaxın şəxs işlə təmin olunub. Mövcud müqavilələr üzrə digər obyektlər fəaliyyətə başladıqdan sonra iş yerlərinin sayının 5 minə çatacağı nəzərdə tutulub.

Qeyd edək ki, Vergi Məcəlləsinə əsasən, işğaldan azad olunmuş ərazinin rezidentləri 2023-cü ilin yanvarın 1-dən etibarən 10 il müddətinə gəlir və əmlak, torpaq və sadələşdirilmiş vergidən azad ediliblər. Bu təşviq mexanizmləri Qarabağın iqtisadiyyatının bərpası prosesinə yerli investorlarla yanaşı, xarici investorların da cəlb edilməsinə şərait yaradır.

# Azərbaycan OPEC seminarında

**Avstriyanın paytaxtı Vyanada yerləşən Hofburq sarayında OPEC-in 9-cu Beynəlxalq Seminarı keçirilib. Toplantıda ölkəmiz geniş nümayəndə heyəti ilə təmsil olunub.**



"Birlikdə yol xəritəsi tərtib edərək: qlobal enerjinin gələcəyi" adlanan 2 günlük seminar çərçivəsində enerji sahəsinin inkişafına həsr olunmuş 12 sessiya keçirilib. Seminarın ilk günündə iştirakçılar neft bazarındakı mövcud vəziyyəti və gələcək proqnozları, enerji sahəsinin maliyyələşdirilməsi və inkişaf etməkdə olan ölkələrdə enerji çatışmazlığının aradan qaldırılması yollarını müzakirə ediblər.

Energetika naziri Pərviz Şahbazov "Neft bazarları: enerji təhlükəsizliyi, inkişaf və rifah" mövzusunda keçirilən nazirlər sessiyasında çıxış edib. Nazir ölkəmizin enerji trilemmasında – təchizatın təhlükəsizliyi, əlçatanlıq və dayanıqlılıq arasında balansın qorunmasında, xüsusilə Avropaya neft-qaz təchizatında oynadığı rolundan danışıb. Azərbaycanın hazırda 20-dən çox ölkəni neft, 12 ölkəni isə qaz ilə təchiz etdiyi vurğulanıb. Bildirilib ki, Azərbaycan qazı hazırda Gürcüstanda qaz istehlakının 78 faizini, Bolqarıstanda 50 faizdən çoxunu, Yunanıstanda 18 faizini, İtaliyada təxminən 16 faizini, Türkiyədə isə 18,5 faizini təmin edir və hazırda Cənub Qaz Dəhlizinə üzv olmayan ölkələrdən əlavə olaraq 14 milyard kubmetr həcmində qaz tələbi mövcuddur.

Energetika naziri deyib ki, Azərbaycanın təbii qaz potensialı Avropanın enerji təhlükəsizliyində mühüm rol oynaya bilər, lakin bu potensialın tam reallaşması investisiya və uzunmüddətli öhdəliklər əsasında mümkündür. Onun sözlərinə görə, yeni yataqların işlənməsi və infrastrukturun genişləndirilməsi bu baxımdan əsas şərtlərdir. Qeyd olunub ki, beynəlxalq tərəfdaşlarla birlikdə işlənilən 5 karbohidrogen layihəsindən 2030-cu ilə qədər əlavə neft-kondensat hasilatı gözlənilir. Həmçinin dənizdə və quruda perspektivli strukturlar üzrə işlər aparılır.

P.Şahbazov 2050-ci ilə qədər enerji balansında neft-qazın payının 53 faizdən yüksək olmasına dair proqnozlara rəğmən ənənəvi enerji resurslarının inkişafı ilə bağlı hazırkı məhdudiyyətlərin gələcəkdə təchizat çatışmazlığı ilə nəticələnə biləcəyini vurğulayıb: "Neft-qazın enerji qarışığımızda əsas yer tutduğunu və bu tendensiyanın gələcəkdə də davam edəcəyini nəzərə alaraq, bu sahəyə investisiyalar təxirə salınmamalıdır. Davamlı enerji təchizatı sərmayə olmadan mümkün deyil. Enerji layihələrinə sərmayənin azalması gələcəkdə tədarükdə fasilələrə və real risklərə gətirib çıxara bilər".

Yeri gəlmişkən, Pərviz Şahbazov Qaz İxrac Edən Ölkələr Forumunun (GECF) bu il oktyabrın 23-də Qətərdə keçiriləcək Nazirlər Toplantısına dəvət alıb. Bu barədə qərar energetika naziri P.Şahbazovun Vyanada Qaz İxrac Edən Ölkələr Forumunun (GECF) Baş katibi Mohamed Hamellə görüşü zamanı qəbul olunub. Görüşdə Azərbaycanın təşkilatla əməkdaşlığı və qlobal qaz sektorunun inkişafı ilə bağlı fikir mübadiləsi aparılıb. Söhbət zamanı GECF-in COP29 çərçivəsində təbii qazın ekoloji üstünlüklərinin vurğulanması, onun əlçatan, sərfəli və davamlı enerji mənbəyi kimi tanıdılması, dekarbonizasiya sahəsində texnoloji nailiyyətlərin nümayişi və bu istiqamətdə dialoq və təcrübə mübadiləsinə şərait yaradılması məqsədi daşıyan panel və pavilyonlarının əhəmiyyəti xatırladılıb, Azərbaycanın bu təşəbbüslərə göstərdiyi dəstəyə görə təşəkkür edilib.

Bundan əlavə, tədbir çərçivəsində P.Şahbazov Neft İxrac edən Ölkələr Təşkilatının (OPEC) Baş katibi Haysam Əl-Qaysla da görüşüb. Görüşdə neft bazarının tənzimlənməsinin cari vəziyyəti, neft sənayesində inkişaf tendensiyaları və "OPEC plyus" formatında əməkdaşlığa dair məsələlər müzakirə edilib. Söhbət zamanı neft bazarında sabitliyin qorunub saxlanmasında OPEC və qeyri-OPEC ölkələrinin əməkdaşlığının töhfələri qeyd edilib, Azərbaycanın bu prosesdə rolu yüksək qiymətləndirilib.

Konfransın ikinci günündə isə BMT-nin İqlim Dəyişikliyi üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransına həsr olunmuş sessiya keçirilib. Tədbirdə Azərbaycan Prezidentinin iqlim məsələləri üzrə xüsusi nümayəndəsi, COP29-un sədri Muxtar Babayev və Braziliya Xarici İşlər Nazirliyinin İqlim, Enerji və Ətraf Mühit üzrə katibi, COP30-un sədri Andre Korrea iştirak ediblər. Gün ərzində, həmçinin OPEC-in baş katibi tərəfindən qurumun hər il dərc olunan neft bazarına dair uzunmüddətli proqnozuna dair hesabat təqdim edilib. Tədbirin digər sessiyalarında isə dayanıqlı inkişaf və enerji sahəsində innovativ texnologiyaların tətbiqi mövzuları müzakirə olunub.

# 6 ayda qeyri-neft ixracı 10 faiz artıb

**2025-ci ilin yanvar-iyun aylarında Azərbaycanın qeyri-neft sektoru üzrə ixracı ötən ilin müvafiq dövrü ilə müqayisədə 9,9 faiz artaraq 1,8 milyard ABŞ dolları təşkil edib. Bu barədə məlumat İqtisadi İslahatların Təhlili və Kommunikasiya Mərkəzinin "İxrac icmalı"nın iyul sayında yer alıb.**



Nəşrin məlumatına görə, 2025-ci ilin birinci yarısında yeyinti məhsullarının ixracı 19,1 faiz artaraq 564,7 milyon dollara bərabər olub. Hesabat dövründə ixrac olunan şəkər əvvəlki ilin müvafiq dövrünə nəzərən 7,4 milyon dollar və ya 54,4 faiz, kimya sənayesi məhsulları 48,7 milyon dollar və ya 38,7 faiz, meyvə-tərəvəz 81,2 milyon dollar və ya 24,3 faiz, pambıq iplik 1,8 milyon dollar və ya 16,6 faiz, qara metallar və onlardan hazırlanan məmulatlar 5,1 milyon dollar və ya 12,5 faiz, çay 62,5 min dollar və ya 2 faiz, alüminium və ondan hazırlanan məmulatlar isə 666,8 min dollar və ya 0,7 faiz artıb.

2025-ci ilin yanvar-iyun aylarında aqrar məhsulların ixracı 21,9 faiz artaraq 455,2 milyon dollar, aqrar-sənaye məhsullarının ixracı isə 7,7 faiz çoxalaraq 145 milyon dollara bərabər olub. Bütövlükdə, aqrar və aqrar-sənaye məhsullarının birgə ixracı 18,2 faiz artaraq 600,3 milyon dollar təşkil edib.

# BƏƏ şirkəti Cəbrayılda transformator buraxacaq

**İqtisadiyyat Nazirliyinin tabeliyindəki İqtisadi Zonaların İnkişafı Agentliyinin məlumatına görə, Birləşmiş Ərəb Əmirliklərinin "SENSEMI DMCC" şirkətinin Azərbaycandakı nümayəndəliyinə agentliyin idarəçiliyində olan "Araz Vadisi İqtisadi Zonası" Sənaye Parkının rezidentliyi statusu verilib və həmin müəssisənin transformator istehsalı layihəsini həyata keçiriləcəyi nəzərdə tutulub.**

Yeni rezident tərəfindən adıçəkilən sənaye parkının 2 hektar ərazisində transformator istehsalı müəssisəsinin yaradılması planlaşdırılıb. Müasir avadanlıqlardan istifadə ediləcək müəssisədə il ərzində 3 min ədəd transformator istehsalı nəzərdə tutulub. Layihənin investisiya dəyəri 17 milyon manata yaxındır.

Qeyd edək ki, "Araz Vadisi İqtisadi Zonası" Sənaye Parkında hazırda investisiya portfeli 140 milyon manat olan 18 sahibkarlıq subyekti rezident, 4 sahibkar isə qeyri-rezident kimi qeydiyyatdan keçib.

*Səhifəni hazırladılar:*
***Vaqif BAYRAMOV,***
***Mirbağır YAQUBZADƏ***
***XQ***

**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev 22 may 2025-ci il tarixdə "Naxçıvan şəhərində yerləşən Möminə xatun türbəsi dünya əhəmiyyətli tarix-memarlıq abidəsinin bərpası və konservasiyası ilə bağlı tədbirlər haqqında" sərəncamı ölkə rəhbərinin milli-mənəvi dəyərlərimizin qorunub yaşadılmasına göstərdiyi diqqət və qayğının növbəti təzahürüdür.**

# Milli dövlətçiliyimizin 9 əsrlik yadigarı

*Möminə xatun türbəsi Atabəylərin ölməz ana sevgisi abidəsidir*



Möminə xatun

Tarixi keçmişimizə dərin ehtiramı ifadə edən sənəddə deyilir: "Naxçıvan şəhərində yerləşən böyük tarix və mədəniyyət yadigarı Möminə xatun türbəsi Azərbaycan milli memarlığının möhtəşəm abidəsi və Şərq memarlığının incilərindən biridir. XII əsrin görkəmli Azərbaycan memarı Əcəmi Naxçıvaninin dühası ilə yaradılmış bu nadir və monumental sənət nümunəsi öz kompozisiya həllinə, kamilliyinə və zərifliyinə görə bütövlükdə İslam aləminin şah əsərləri sırasında fəxri yer tutur. Misilsiz gözəlliyə malik türbə Azərbaycanda həmin dövrlərdə yüksək inkişaf etmiş mədəniyyətin və dövlətçilik ənənələrinin mövcudluğunun əyani təcəssümüdür". Göründüyü kimi, bu sənəd həm də mədəniyyət incilərimizin dünyaya tanıdılması baxımından böyük önəm daşıyır.

Ulu öndər Heydər Əliyev qədim Naxçıvanda Möminə xatun türbəsi kimi nadir sənət əsərinin ucaldılmasını mədəniyyətin və dövlətçiliyin yüksək səviyyədə olması ilə əlaqələndirərək demişdir: "Naxçıvan ərazisini götürsək, bu kiçik ərazidə həddindən çox dünya miqyaslı tarixi-memarlıq abidələri var. Onlar yüz illərlə durub, yaşayıbdır. Düzdür, bizlər çox vaxt bu abidəni gözəl memarlıq abidəsi kimi təbliğ edirik. Bu abidənin memarlıq qiyməti ilə bərabər, bizim üçün, bəlkə, daha da böyük qiyməti Azərbaycanın qədim dövlət olmasını göstərməsidir. Bu təkcə memarlığın zənginliyini yox, dövlətçiliyin nə qədər zəngin olduğunu, nə qədər möhkəm olduğunu da göstərir".

Azərbaycan tarixinin və mədəniyyətinin XII-XIV əsrlər dövrü intibah dövrü kimi xarakterizə olunur. XII əsrin ortalarından Eldənizlər xanədanının (1136-1225) hökmranlıq etdiyi Azərbaycan dövləti təşəkkül tapdı. Naxçıvan XII əsrin 30-70-ci illərində Azərbaycan Atabəylər dövlətinin əsas mərkəzi şəhəri, paytaxtı olmuşdur. Eldənizlər dövlətinin banisi Atabəy Şəmsəddinin hakimiyyətinin ilk dövrlərindən dövlətin siyasi, "padşahlıq iqamətgahı" Naxçıvan şəhərində yerləşmişdir.

"Əcaib-əd-dünya" əsərində yazılır: "Naxçıvan Eldənizlər dövründə tam tərəqqiyə çatdı. Orada padşahlıq iqamətgahı (darülmülk) yaratdılar və dövlətxana təsis etdilər". Şəmsəddin Eldənizin hakimiyyəti dövründə (1146-1175) Naxçıvan Atabəylər dövlətinin əsas iqtisadi, siyasi və mədəniyyət mərkəzi kimi tanınmışdır. Şəmsəddin Eldənizin daimi yaşayış yeri Naxçıvan şəhəri olmuşdur. Naxçıvan vilayətinin torpaqları tac (xass) torpağı idi. Şəmsəddin Eldəniz dövrünün görkəmli dövlət xadimi kimi şöhrət qazanmışdı. O, qurduğu dövləti qüdrətləndirmək, ərazilərini genişləndirmək üçün böyük işlər görüb. "Böyük Atabəy" titulu alan Şəmsəddin Eldənizin böyük oğlu Cahan Pəhləvan onun əmir-hacibi, Qızıl Arslan isə ordunun baş komandanı təyin edilmişdir.

Şəmsəddin Eldənizin ölümündən sonra, oğlu Məhəmməd Cahan Pəhləvan zamanı (1175-1186) dövlətin paytaxtı Naxçıvandan Həmədan şəhərinə köçürüldü (1175). Bu dövrdə Azərbaycan torpaqlarını Məhəmməd Cahan Pəhləvanın kiçik qardaşı Qızıl Arslan (1186-1191) idarə edirdi. Eldənizlərin bütün hakimiyyəti dövründə Naxçıvan şəhəri ikinci paytaxt statusunu saxlayırdı.

"Əcaib-əd-dünya" əsərində Naxçıvan şəhəri haqqında belə yazılıb: "Orada çoxlu saray, köşk, eyvan vardır. Şəhərin yaxınlığında daşdan qala tikilmişdir. Qalada mədrəsə və məscid vardır. Bütün binalar gəcdən və bişmiş kərpicdən inşa edilmişdir. Köşklərin çoxu qəsrlər kimi üç-dörd mərtəbəlidir". Təbrizdən və Bağdaddan sonra Naxçıvan kimi cəlallı və əzəmətli şəhər yox idi.

## "Möminə xatun" türbəsi

Sultan II Toğrulun hakimiyyəti dövründə (1132-1135) Şəmsəddin Eldəniz sultanın şəxsi məmlüklərindən biri olmuşdur. Sultanın qadını dövlət işlərində onun ən yaxın məsləhətçisi Möminə xatun Eldənizə xüsusi iltifat göstərirdi. Sultan Şəmsəddinin sadiqliyini yüksək qiymətləndirərək ona əmir rütbəsi verir və azyaşlı oğlu Arslan şaha atabəy təyin edir. 1136-cı ildə Arrana yiyələnən Eldəniz tədricən bütün Azərbaycana sahib olur. Şəmsəddin Eldəniz öz dövrünün bacarıqlı dövlət xadimi olmuşdur.

Sultan II Toğrul öldükdən sonra (1134) Şəmsəddin Eldəniz Möminə xatunla evlənir. Möminə xatun Azərbaycanın ağıllı və diplomat qadınlarından olmuşdur. O, Atabəylər dövlətinin xarici və daxili siyasətində ərinin və oğlanlarının yaxın köməkçisi və məsləhətçisi olmuşdur. Sədrəddin əl-Hüseyni bildirir ki, Möminə xatun həmişə Şəmsəddin Eldənizin ölkə səyahətlərində müşayiət edirdi, dövlət əhəmiyyətli məsələlərin həllində onun fikri ilə hesablaşırdılar.



Möminə xatun türbəsi

Möminə xatun xalq arasında da böyük hörmətə layiq idi, çünki ölkə vətəndaşlarının tale və maraqlarına biganə deyildi, mədəniyyətin, maarifin inkişafına köməklik edirdi. Bu ağıllı və hörmətəlayiq qadının şərəfinə Naxçıvanda nadir və möhtəşəm məqbərə tikilmişdir. Elə bu sədaqətinə görə o, 1175-ci ildə vəfat etdikdən sonra əri Şəmsəddin Eldəniz onun məzarı üzərində əzəmətli türbə tikdirmək haqqında qərar vermişdir. Möminə xatun 30 sentyabr 1175-ci ildə Naxçıvanda əbədiyyətə qovuşmuş, ondan bir ay sonra Şəmsəddin Eldəniz də dünyadan köçmüşdür.

Özülü 1175-ci ilin oktyabrında qoyulan məqbərənin inşası onların böyük oğlu Məhəmməd Cahan Pəhləvan tərəfindən 1186-cı ilin aprel ayında başa çatdırılmışdır. Beləliklə Möminə xatun və Şəmsəddin Eldənizin dəfn olunduqları məqbərə 10 il 3 aya inşa edilmişdir. Təəssüf ediləsi haldır ki, bir sıra yazılarda, hətta tədqiqat əsərlərində Möminə xatun məqbərəsinin inşa tarixində səhvlərə yol verilmişdir. Türbənin tikilməsinə başlandığı tarixi onun istifadəyə verilməsi tarixi kimi vermişlər.

## Əcəmi Naxçıvani

Naxçıvanda memarlıq sənəti XII əsrdə yüksək səviyyəyə çatmışdır. Çoxsaylı dini memarlıq abidələri və mülki binalar, zəngin ornamentlər və boyalarla bəzədilmiş əzəmətli məscidlər, türbələr, saraylar, karvansaraylar, körpülər, qala və bürclər, mədrəsələr, bəzəkli yaşayış evləri, zəngin tərtibatlı hamamlar və s. inşa edilmişdir.

XII əsrdə Naxçıvanda yaşayıb yaratmış, Naxçıvan memarlıq məktəbinin əsasını qoymuş Əcəmi Əbubəkr oğlu Naxçıvaninin yaratdığı əsərlərdən ikisi dövrümüzdə də əzəmətlə ucalır: Naxçıvan şəhərindəki Yusif Küseyr oğlu və Möminə xatun türbələri.

Əcəmi Naxçıvani Yusif Küseyr oğlu türbəsini 1162-ci ildə tikmişdir. Memar təkcə Azərbaycanda deyil, islam aləminin ən hündür və incə kompozisiyalı türbələrindən sayılan Möminə xatun türbəsini 1186-cı ildə ucaltmışdır. Həmin dövrdə türbə böyük bir memarlıq kompleksinə daxil idi.

Naxçıvan memarlıq məktəbinin yüksək nailiyyətlərinin yaradıcısı, bu məktəbin çiçəklənməsini təmin edən, memarlıq təzahürünün klassiki və Naxçıvan memarlıq məktəbini geniş beynəlxalq səviyyəyə çıxaran Əcəmi Naxçıvani olmuşdur. Məktəbin əsasını qoymuş memarın yaradıcılıq dəst-xəttinin parlaq cizgiləri də məhz bu şəhərdə və abidələrdə izlənilir.

Əcəmi Əbubəkr oğlu Naxçıvan memarlıq məktəbinin ən görkəmli siması olaraq orta əsr Azərbaycan memarlığının inkişafında dərin və silinməz izlər buraxmış, özündən sonrakı Azərbaycan memarlıq sənətinə istiqamətverici təsir göstərmişdir. Əcəmi Naxçıvaninin memarlıq üslubu baştağ və onun cinahlarında duran sərbəst minarələrin qurulması kompozisiyasının yaradılmasıdır. Bu cür kompozisiyanın Əcəmiyə kimi olması elmə məlum deyil.

Memarlıq əsərlərində "əl-Bənna" ifadəsi ilə təqdim edən Əcəmi, bir əlyazmada qeyd edildiyi kimi, "Şeyxül mühəndis" (mühəndislər başçısı) ayamasını daşımasıdır. O dövrün, eləcə də sonrakı dövr sənətkarları da elmə yiyələnməli idilər. Memar üçün sənət və elm bir zərurət idi. Məhz buna görə memar-sənətkar riyazi, həndəsi, astronomik biliklərə dərindən yiyələnməli idi. Əcəmi Naxçıvani, zəmanəsinin elmi biliklərinə yiyələnmiş hərtərəfli inkişaf etmiş şəxsiyyəti olmuşdur.

## Türbənin quruluşu

Əcəmi Əbubəkr oğlu Naxçıvaninin şah əsəri Möminə xatun türbəsidir. Türbə Şəmsəddin Eldənizin həyat yoldaşı Möminə xatunun şərəfinə ucaldılmışdır (1175-1186). Türbə yeraltı (sərdabə) və yerüstü hissələrdən ibarətdir. Ümumi hündürlüyü 34 metr olmuş, sonralar 8 metr hündürlükdə xarici örtüyü dağılmışdır. Sərdabə hissəsi 10 bucaqlıdır. Mərkəzdə yerləşmiş sütundan onbucaqlının hər küncünə doğru bir tağ salınmışdır. Türbənin yerüstü hissəsi xaricdən 10 guşəli, daxildən isə dairəvidir. Abidə bişmiş kərpicdən tikilmişdir. Onun bucaqları çıxıntı şəklində, səthləri isə batıq formada qurulmuşdur. Türbənin bucaqlarındakı çıxıntılar kufi xətti ilə işlənmiş kitabələrlə örtülmüşdür. Bu kitabələrin uzunluğu 500 metrə çatır.

Türbənin bütün bəzək tərtibatı onun xarici səthindədir. Abidənin xarici on üzünün hər biri stalaktik tac kompozisiyası ilə tamamlanan, çox da dərin olmayan taxça əmələ gətirmişdir. Üzlərin hamısının səthi müxtəlif səciyyəli həndəsi ornamentlə örtülmüşdür. Türbənin ornamental bəzəyi bişmiş kərpicdən tərtib olunmuşdur. Bəzəyə firuzəyi kaşı, şirəli kərpicin çox sadəliklə, lakin dəqiqliklə daxil edilməsi kərpicdən əmələ gətirilən mürəkkəb şəbəkə rəsmlərinin oxunmasına imkan verir. On üzün hər birində müxtəlif olan ornament rəsmi hər yerdə eyni xarakterlidir. Bir çox ornamentlərin rəsmlərinin əsasını çoxguşəli ulduz təşkil edir. Üzlərdə ən çox təsadüf olunan ornament ünsürü 5, 6, 8 və çoxgüşəli ulduzlardan, altı və səkkizbucaqlı fiqurlardan ibarətdir.

Haşiyələnmiş taxçaların yuxarısında kufi kitabəli friz yerləşdirilmişdir. Kaşı ilə işlənmiş kitabə kompozisiyada əhəmiyyətli yer tutur. Memar Əcəmi kufi xətli kitabələri həndəsi sistemləri xatırladan mürəkkəb naxış şəbəkələrinə uyğunlaşdırmışdır. Həmin kufi xətli kitabələrdən biri çox ibrətamizdir: "Biz gedirik, ancaq qalır ruzigar. Biz ölürük, əsər qalır yadigar".

Türbənin üzlərindəki naxışlar Əcəmi Naxçıvaninin həndəsi ornamentlər yaratmaq sahəsində mahir sənətkar olduğunu əks etdirməklə yanaşı, eyni zamanda onun gözəl nəbati ornament bəzəyi ustası olduğunu göstərir. O, müxtəlif rəsmli medalyonların hamısını sadəlik xarakterinə görə oxşar nəbati ornamentlərlə çərçivələmişdir.

## Abidənin kitabələri

Möminə xatun türbəsi haqqında bəzi məlumatları kitabələrdən öyrənmək olur. Türbənin eksteryerində 14, interyerində 5 kitabə vardır. Türbənin günbəzi ilə gövdəsini birləşdirən kəmər üzərindəki kitabədə Möminə xatının vəfat tarixindən bəhs olunur. Kitabənin yazıları ağ, yerlik isə sürməyi rəngli kaşı parçaları ilə tərtib edilmişdir.

Türbənin üzərində olan kitabələri öyrənən alimlərdən biri, tarixçi-etnoqraf Əjdər Ələsgərzadə olmuşdur. O, belə bir nəticəyə gəlmişdir ki, onüzlü türbənin bütün üzləri kənardan Qurani-Kərimin 36-cı surəsi olan "Yasin"in mətni ilə haşiyələnib. İki dəfə təkrar olunmaqla bu surə bir dəfə birinci üzdən beşinciyə, o biri dəfə altıncı üzdən onun¬cu üzədək davam edir. Hər bir üzdə yazı sağda aşağıdan yuxarıya yönəlir, sonra yuxarıda üfüqi davam edir və aşağı istiqamətlənir.

Türbənin 10 üzünün hər birinin yuxarısında eyni mənada olan 10 ədəd dini məzmunlu kitabə yerləşir. Türbə işi hər bir vəchinin ətrafını əhatə edən enli kəmər üzərində yerləşən dini xarakterli yazılar qırmızı və formalı kərpiclərin düzülüşü ilə başa çatdırılmışdır. Türbənin qapısı üstündəki birinci kitabədə türbənin inşaat tarixi, ikinci kitabədə isə türbənin usta-memarı naxçıvanlı Əcəmi Əbubəkr oğlunun adı yazılmışdır. Türbənin interyerindəki 5 kitabədən biri daxili friz kəməri üzərində, iki, üç, dörd və beşinci kitabə isə daxili günbəz divarında yerləşir. Bu dörd kitabə iri həcmli dairəvi formalı qönçələrdən ibarətdir. İnteryerdəki yazılar dini məzmun daşıyır. Yazılar kirəc materialı üzərində oyma üsul ilə edilmişdir.

Türbənin daxili qüllənin uca interyerini qapayan günbəzin iç səthində dörd dairəvi medalyon perpendikulyar oxlar üzərində qoyulmuşdur. Nadir gəctəraşlıq əsərləri olan bu medalyonların kompozisiya özəyi "Allah" yazısıdır. Kitabələr Əcəminin əsərlərində o dövrədək görünməyən bədii-estetik dəyər və önəm alır. Kufi kitabələrinin bolluğu, mürəkkəbliyi, bitkinliyi həndəsi ornamentlərlə qaynayıb qarışması baxımından Möminə xatun türbəsinin Ön Asiya regionunda bənzəri yoxdur.

Abidənin kitabələri haqqında xarici ölkə alimləri də bəhs etmişlər. Məşhur şərqşünas Hartman tədqiqatlarında kitabələrin təhlilinə yer verdiyindən alman memarı E.Yakobstal bunları kitabına əlavə etmişdir.

## 9 əsrin şahidi

Möminə xatun türbəsi memarlıq sənətinin şah əsəri, orta əsr memarlıq tarixinin yüksək zirvələrindən biridir. Ona görə də bu abidə bir çox alimlərin, xüsusilə sənət adamlarının diqqətini cəlb etmiş və yaradıcılıqlarında bundan faydalandıqlarını qeyd etmişlər. Fransız səyyahı Dübya-de Monpere, akad. Fren, H.Xanıkov, İ.Djebatya, alman memarı E.Yakobstal, şərqşünas Hartman, akad. M.Alpatov, türk memarı Sinan və b. türbə haqqında çox yüksək fikirlər söyləmiş, praktik işlərində bu sənət əsərindən faydalanmışlar.

Məşhur sənətşünas, akademik M.Alpatov üççildlik "Ümumdünya incəsənət tarixi" əsərində Möminə xatun türbəsini təhlil edərək yazmışdır: "Belə yüksək memarlıq forması duyğusuna, kompozisiyanın belə klassik kamilliyinə və mükəmməl işlənməsinə bu zamanlar Orta Avropada təsadüf etmək mümkün deyildir. Naxçıvan türbəsindən klassik şərq ədəbiyyatının ən yaxşı əsərləri Firdovsinin "Şahnamə" (X-XI əsr) və yaxud Nizaminin "Leyli və Məcnun" (XII əsr) poemasında olduğu kimi insanpərvərlik nəfəsi gəlir".

Avstriya sənətşünası E.Dits həmmüəllifi olduğu "Türk sənəti tarixi" əsərində məşhur türk memarı Sinanın yaradıcılığından bəhs edərkən deyir ki, Sinanın İstanbulda tikdiyi bəzi türbələr, şübhəsiz ki, Naxçıvan türbələrinin təsiri nəticəsində əmələ gəlmişdir.



Ümummilli lider Heydər Əliyev və Prezident İlham Əliyev Möminə xatun türbəsində

Ulu öndər Heydər Əliyev 1999-cu ilin oktyabr ayında Naxçıvanda rəsmi səfərdə olarkən Möminə xatun türbəsini ziyarət etmiş (14 oktyabr) və orada çıxış edərək demişdir: "Bu abidənin qiyməti yoxdur. Çox vaxt, elə bu gün də bunu gözəl memarlıq abidəsi kimi təbliğ edirlər. Bu təbiidir, doğrudan da belədir. Dağılanlar dağılıb, amma qalanlar içərisində Möminə xatun məqbərəsi XII əsrdə, orta əsrlərdə Azərbaycanın nə qədər zəngin mədəniyyəti olduğunu, doğrudan da böyük memarlıq məktəbi olduğunu göstərir. Bilirik ki, Əcəmi Naxçıvani və onun yaratdığı məktəb təkcə Naxçıvanı əhatə etmir, Şərq aləminin böyük bir hissəsində onun memarlıq üslubu, memarlıq məktəbi davam edib, böyük əsərlər yaradıblar".

## Nadir bərpa və mühafizə layihəsi

Möminə xatun türbəsi Azərbaycan milli memarlığının incilərindən biri kimi, 840 ilə yaxındır ki, insanları öz sehrində saxlayır, onlarda sənətə, mədəniyyətə sevgi və məhəbbət aşılayır.

Sovetlər dövründə tarix və mədəniyyət abidələrinə, xüsusilə də milli respublikalarda olan abidələrə elə də böyük diqqət və qayğı olmayıb. Eləcə də bu fikirləri Naxçıvan abidələri, o cümlədən Möminə xatun türbəsi haqqında da demək olar. Qayğısızlığın nəticəsidir ki, Möminə xatun türbəsinin ətrafında olan bir neçə abidə dağılmışdır.

Naxçıvan xanlığı Rusiya tərəfindən işğal edildikdən (1828) sonra rus hərbçi şərqşünaslar, etnoqraflar və arxeoloqlar bu abidələrdə axtarışlar və qazıntılar aparmışlar. 1953-cü ildə Moskvadan gəlmiş bir neçə tədqiqatçı Möminə xatun türbəsində axtarışlar aparmış, əldə etdikləri materialları özləri ilə aparmışlar. 1957-ci ildə isə türbənin sərdabə hissəsində qazıntı işləri aparılmış, sərdabədəki məzarların baş daşları və sümükləri mərkəzə aparmışlar (Elmə məlumdur ki, türbənin sərdabəsində Möminə xatun, Şəmsəddin Eldəniz və övladları Məhəmməd Cahan Pəhləvan dəfn edilmişdir).

Ulu öndər Heydər Əliyevin Azərbaycanda hakimiyyətinin həm birinci, həm də ikinci dövründə Möminə xatun türbəsini dağıdılmaqdan xilas etmək üçün abidənin özündə bərpa işləri, ətrafında isə quruculuq işləri görülmüşdür. Ümummilli lider 1999-cu il oktyabrın 14-də türbəni ziyarət etmiş və bərpa edilməsi ilə əlaqədar aid təşkilatlara tapşırıqlar vermişdir.

Prezident Heydər Əliyev 2002-ci il avqustun 12-də AMEA Naxçıvan Bölməsinin yaradılmasına həsr olunmuş müşavirədəki giriş nitqində Naxçıvandakı tarix-mədəniyyət abidələri, onların əhəmiyyəti və öyrənilməsi zəruriliyindən bəhs edərkən demişdir: "Mən indi desəm ki, Möminə xatun türbəsi haqqında geniş təsvirli, müasir poliqrafiya səviyyəsində hazırlanmış albom, onun haqqında tarixi mənbələr və başqa şeylər toplusu varmı? Hesab edirəm ki, yoxdur, mən görməmişəm. Ayrı-ayrı bukletlər var, broşurlar var. Ancaq elə bircə bu abidə böyük bir kitaba bərabərdir. Yəqin ki, kitab da bunun yanında heç bir şeydir. Amma o, kitabda əks etdirilməyibdir. Onun həm memarlıq xüsusiyyətləri, həm mühəndis işləri, inşaat işləri, tikinti materialları, abidənin yaranması tarixi və sair. Onun hər bir fraqmenti müasir poliqrafiya üsulundan istifadə edilərək albomda əks olunsa, onun özü elə Azərbaycan mədəniyyətinin nə qədər zəngin olduğunu göstərəcəkdir".

Yuxarıda qeyd olunduğu kimi, Prezident İlham Əliyevin sərəncamı ilə abidə yüksək səviyyədə bərpa və restavrasiya ediləcək. Bunun üçün dövlət başçısı aid təşkilatlara tapşırıqlar verib və ilkin işlər üçün vəsait də ayırıb. Qətiyyətlə inanırıq ki, Möminə xatun türbəsi bundan sonra da hələ min illərlə insanlara sənətin gözəllik və incəliyini aşılayacaq, xalqımız isə bundan qürur duyacaq.

UNESCO siyahısında yer tutan Möminə xatun türbəsinin bərpası ilə bağlı Prezident sərəncamı Azərbaycan mədəniyyətinin qorunması və inkişafına əhəmiyyətli töhfə olacaqdır.

***İsmayıl HACIYEV***
***AMEA Naxçıvan Bölməsinin sədri, akademik***

Redaksiyaya məktub

# Əziz Əliyev zamanın özünün heykəlləşdirdiyi ölməz şəxsiyyətdir

## *Onun abidəsini isə indiki nəsillər ucaltmalıdır*



**Hörmətli redaksiya, ölkənin anadilli mətbuatının ən qocaman və bayraqdar nəşri olan "Xalq qəzeti"nin 10 aprel 2025-ci il tarixli sayında çap olunmuş "Əziz Əliyevin heykəli hardadır?" adlı irihəcmli yazını böyük maraqla oxuyub kollektivimizdə müzakirə etdikdən sonra təəssürat və düşüncələrimizi sizə göndərməyi qərara aldıq.**

Qərbi Azərbaycana Qayıdış hərəkatında önəmli istinadgahlardan birinə çevrilən bu qədim türk yurdunun mədəni irsinin fədakarlıqla qorunub yaşadılan, canlı abidəsi olan Cəfər Cabbarlı adına İrəvan Dövlət Azərbaycan Dram Teatrının kollektivi üçün yurdumuzun bu tarixi bölgəsi ilə bağlı hər şey çox əziz və qiymətlidir. Qeyd olunan yazıda Bakıda abidəsinin ucaldılması ilə bağlı söhbət açılan görkəmli dövlət xadimi və səhiyyə təşkilatçısı Əziz Məmmədkərim oğlu Əliyev Qərbi Azərbaycanın xalqımıza bəxş etdiyi dahi simalardan biridir. Yazının müəllifi görkəmli ədib, ictimai xadim və diplomat Hidayət Orucov da Qərbi Azərbaycanda doğulub böyümüş, uzun illər İrəvan ədəbi-mədəni mühitində sayılıb-seçilən ziyalılardan biri olub.

Hidayət müəllimi bizim teatrla sıx və qırılmaz əlaqələr bağlayır. O, ötən əsrin 70 – 80-ci illərində Ermənistanda xalqımıza qarşı açıq-gizli xəyanətlərin baş qaldırdığı bir dövrdə İrəvan Dövlət Azərbaycan Dram Teatrına bacarıqla rəhbərlik edib. 1988-ci ildə sonuncu kütləvi deportasiya zamanı teatr da qaçqın vəziyyətə düşəndə qarşımıza çıxan, bizi himayə edən, məskunlaşmağımıza və fəaliyyətimizi davam etdirməyə kömək edənlərdən biri də görkəmli ziyalı, Dövlət müşaviri Hidayət Orucov olub. O, səfir kimi ölkəmizi xarici dövlətlərdə təmsil etdiyi illərdə də teatrla əlaqəsini kəsməyib, yeni əsərləri ilə repertuarımızı zənginləşdirib, problemlərimizin həllinə çalışıb.

Bütün bunları yada salmaqda məqsədimiz odur ki, Qərbi Azərbaycana Qayıdış hərəkatının bizim də tarixi yurdumuza qayıtmaq ümidlərimizə çıraq tutduğu bir dövrdə bu diyarda yaşadılmış milli dəyərlər, yaradılmış mədəni irsin geniş tanıdılması xalqımızın həmin torpaqların köklü sakinləri olduğunun ən mötəbər təsdiqidir. Hidayət müəllim "Burdan min atlı keçdi" etnoqrafik, bədii-publisistik romanını məhz bu bu mərama xidmət edir. Müəllif Qərbi Azərbaycanın ərazilərində at oynadan, qılınc vuran, Vətən uğrunda canından keçən, milli dəyərləri qoruyub saxlayan ata-babalarımızın obrazlarını ədəbiyyata gətirməklə böyük bir missiya həyata keçirib. İrəvan Azərbaycan Teatrının kollektivi də bu dəyəri yüksək qiymətləndirərək dərhal həmin əsər əsasında tamaşalar hazırlayıb.


12
BAXIŞ BUCAĞI
10 aprel 2025-ci il, cümə axşamı
Xalq qəzeti

Əziz Əliyevin heykəli hardadır?

Hidayət,
Əməkdar incəsənət xadimi

Qərbi Azərbaycandan ötüb keçmiş minlərlə atlının sırasında görkəmli ziyalılarımız Əziz Əliyev və Hidayət Orucovun simaları daha aydın və iri planda seçilir. Hidayət müəllim bu gün milli təəssübkeşliklə Əziz Əliyev şəxsiyyətinin Qərbi Azərbaycan həqiqətini daha da ucaltmaqda, dünyaya göstərməkdə bu nəhəng şəxshəm mənəvi, həm də maddi heykəlləşməsinə müstəsna önəm verir. Əslində, zaman Əziz Əliyev fenomenini çoxdan əbədiləşdirib, könüllərdə heykəlləşdirib. Bizə, indiki nəsillərə isə bir heykəli müstəqil Azərbaycanın paytaxtında layiqli bir məkanda ucaltmaq qalır.

Əziz Əliyevin xalq, Vətən qarşısındakı xidmətləri hər bir azərbaycanlının yaddaşındadır. Bu nəhəng şəxsiyyət Azərbaycan və Dağıstan xalqlarına, Cənubi Azərbaycandakı soydaşlarımıza vicdanla xidmət göstərib. Hidayət müəllim Əziz Əliyevin haqqında çoxsaylı yazılarında Qərbi Azərbaycanın havası, suyu ilə böyümüş, böyük Azərbaycanı ləyaqətlə təmsil etmiş bu şəxsiyyətin parlaq və dolğun obrazını yaradıb, onu sənətdə heykəlləşdirib. Bu baxımdan onun Əziz Əliyevin heykəlinin qoyulması təklifi ilə çıxış etməsi tamamilə təbiidir.

Bütün bunları nəzərə alaraq, dəyərli soydaşımız, sevimli sənətkarımız Hidayət Orucov "Xalq qəzeti"ndə çap olunmuş "Əziz Əliyevin heykəli hardadır?" yazısı ilə milli iftixarımız olan Əziz Əliyevin Bakı şəhərində abidəsinin ucaldılmasının vacibliyini xatırladıb, bizi zamanın hökmünə qulaq asmağa çağırıb.

Cəfər Cabbarlı adına İrəvan Dövlət Azərbaycan Dram Teatrının kollektivi Azərbaycanın və Dağıstanın görkəmli elm və dövlət xadimi, İkinci Dünya müharibəsində qələbəyə layiqli töhfələr vermis Əziz Əliyevin Bakı şəhərinin ən layiqli yerlərindən birində abidəsinin ucaldılması haqqında Hidayət Orucovun təşəbbüsünü alqışlayır, bu təklifi Bakı Şəhər İcra Hakimiyyətinin rəhbərliyinə xatırlatmaqla bir daha dəstəklədiyimizi bildiririk.

*İftixar PİRİYEV,*
*İrəvan Dövlət Azərbaycan Dram Teatrının direktoru, sənət ocağının kollektivi ( 27 imza)*

# Qərbi Azərbaycan irsinə dair fundamental nəşr

**Mingəçevir Şəhər İcra Hakimiyyətinin və Qərbi Azərbaycan İcmasının təşkilatçılığı ilə Mingəçevir Dövlət Universitetində "Qərbi Azərbaycan irsi: Ermənistanda azərbaycanlıların maddi-mədəni irsinin – qəbiristanlıqların sistemli qaydada dağıdılmasının nəticələri və beynəlxalq hüquqi məsuliyyətə dair" hesabat və materiallar kitabının I cildinin təqdimat mərasimi keçirilib.**






Əvvəlcə "Qərbi Azərbaycan irsi: Tədqiqatlar seriyası" filminə baxış keçirilib. Sonra şəhər icra hakimiyyətinin başçısı İlham İsmayılov təqdim olunan kitabın tarixi əhəmiyyəti haqqında geniş məruzə ilə çıxış edib. Qeyd olunub ki, Qərbi Azərbaycanda Azərbaycan xalqının yaratdığı tarixi mədəni irsin öyrənilməsi, təbliğ olunması və tam məhv olunmasının qarşısının alınması, həmin insanların öz ata-baba yurdlarına qayıtması hüquqlarının təmin edilməsi üzrə "Qərbi Azərbaycan İcması" İctimai Birliyinin fəaliyyəti olduqca təqdirəlayiqdir. Bu baxımdan İcmanın rəhbəri Əziz Ələkbərli və tədqiqatçı-alim Səbuhi Hüseynovun ərsəyə gətirdikləri, professor Ədalət Vəliyevin ideya müəllifi olduğu bu kitabının I cildinin çapı xüsusilə təqdirəlayiqdir. Bu təqdimat əsəri sanballı, elmi əsaslara söykənən araşdırmadır. Əminlik var ki, gələcək nəsillər bu tədqiqat əsərindən bəhrələnməklə Azərbaycan xalqının başına gətirilən müsibətlərdən xəbərdar olacaqlar.

Tədbirdə millət vəkili, siyasi elmlər üzrə fəlsəfə doktoru, dosent Aydın Mirzəzadə "İndiki Ermənistan Respublikası ərazisində azərbaycanlılara məxsus qəbiristanlıqların dağıdılması ilə bağlı müasir metodoloji təhlillər və şəxsi təəssüratlar", Mingəçevir Dövlət Universitetinin rektoru, iqtisad üzrə fəlsəfə doktoru, dosent Anar Eminov "Qərbi Azərbaycan İrsi kitabının yazılmasında istifadə edilən texnoloji yeniliklər", MDU-nun magistratura və doktorantura təhsil mərkəzinin müdiri, filologiya üzrə fəlsəfə doktoru, dosent Vəfa Məhərrəmova "Basarkeçər rayonunda Qərbi azərbaycanlılara məxsus qəbiristanlıqların mövcud vəziyyəti haqqında", Qərbi Azərbaycan İcmasının Mingəçevir şəhəri üzrə nümayəndəliyinin rəhbəri, Əməkdar müəllim Mayıl İsmayılov "Qərbi Azərbaycanda dağıdılmış qəbiristanlıqlarla bağlı məlumatlar yerli və xarici mətbuat səhifələrində" mövzularında məruzələrlə çıxış ediblər.

*İlqar HƏSƏNOV*
*XQ*

# Dünya səyyahları Qarabağda



**Dünyanın 15 ölkəsindən 30 səyyah azad Qarabağa səfər edib. Qonaqlar Füzulidə, Şuşada, Xankəndi və Ağdamda olublar.**

Səyyahlar Xankəndinin mərkəzi meydanında həyata keçirilən genişmiqyaslı tikinti-quruculuq işləri ilə tanış olublar. Xankəndi şəhərində, Ağdərə və Xocalı rayonlarında Azərbaycan Respublikası Prezidentinin xüsusi nümayəndəliyinin əməkdaşları onlara görülən işlər barədə məlumat veriblər. Bildirilib ki, infrastrukturun qurulması ilə yanaşı, şəhərin əsl tarixi siması özünə qayıdır və bu gün Xankəndi Azərbaycanın ən gözəl şəhərlərindən birinə çevrilir.

Şuşa şəhərində olduğu kimi, Xankəndi şəhər poçtundan da İrlandiya və Kanadaya məktub göndərilib.

Sonra MTP (Most Traveled People) beynəlxalq səyyahlar klubunun heyəti Ağdam şəhərinə gəlib. Qonaqlar Ermənistan silahlı qüvvələrinin Ağdamda törətdiyi vəhşiliklər, eləcə də şəhər işğaldan azad olunandan sonra Azərbaycan dövlətinin həyata keçirdiyi tikinti-quruculuq işləri ilə tanış olublar.

Qeyd edək ki, beynəlxalq səyyahların 3 gün ərzində Füzuli-Xocavənd-Şuşa-Xankəndi-Xocalı-Ağdam-Kəlbəcər-Laçın-Zəngilan-Cəbrayıl marşrutu üzrə hərəkət etməsi planlaşdırılır.

*XQ*

Rəssamlıq emalatxanası

# "Bir uyuşmaq dəxi var nəqş ilə nəqqaş arasında"...

**Sumqayıtda yaşayıb-yaradan xalçaçı-rəssam, Əməkdar mədəniyyət işçisi, Beynəlxalq Rəssamlar Fondunun üzvü Fazil Abasquluzadəni 30 ildən çoxdur ki, tanıyıram. Ölkəmizdə və xaricdə keçirilən mötəbər sərgilərdə uğurlu iştirakından xəbərim var. Özü bu barədə çox danışmağı sevməsə də, faktlar hər şeyi deyir.**

Əslən Qubadlı rayonunun Cılfır kəndindən olan Fazil Abasquluzadə illərdən bəri arzularını çeşni-çeşni, ilmə-ilmə reallaşdırır. Molberti hana, kətanı xalçalardır. Bu bağlılıq onda lap uşaq yaşlarından yaranıb. Dediyinə görə, nənəsi balaca Fazili qonşu Teymur Müskənli kəndinə aparardı. İlk dəfə orada, hanada xalça toxunduğunu görüb. Bu proses ona çox maraqlı gəlib. Xalça alətləri, hana, üstündə əlvan rəngli saplar sanki uşağı ovsunlayıb. Rəssamlığa meyilli olduğundan, naxışların çəkilməsi, xalça üzərində hər hansı bir təsvirin verilməsi onda güclü maraq yaradıb. Elə bu istəklə də Azərbaycan Pedaqoji İnstitutunun bədii qrafika fakültəsinə daxil olub. Ali məktəbi bitirərək təyinatla İsmayıllı rayonuna yollanandan sonra bu sənətə ömürlük bağlanıb.

– Təbiətin dilbər guşəsi, qədim sənətlərin məskəni olan İsmayıllıda Lahıc xalçaçılıq məktəbinin sirlərini daha dərindən öyrəndim – deyə o bildirdi. – Bununla da biryolluq xalça sənətinə keçdim. İlk əsərlərimi də o vaxtlar yaratmışam. 1993-cü ildə Sumqayıta köçdüm, bacarıqlı toxucuları tapdım, mehriban bir kollektiv yaratdıq. Çünki bu, birgə sənətdir, tək rəssamın işi deyil. Müxtəlif məkanlarda, şəraiti olmayan yerlərdə çalışdıq. Amma ruhdan düşmədik. Yaratdığım bütün xalçaların həmmüəllifləri toxucu xanımlar



– usta Rəmziyə, Leyla, Müqəddəs, Həlimə, Leysan, Südabə, Sarıtel, Validə, Bənövşə, Sonadır. Biz əsasən süjetli və ya portret xalçalar toxuyuruq. Əl işlərimiz dünyanın 25-dən artıq muzeyində saxlanılır. İspaniyada, Fransada, Almaniyada, dəfələrlə Moskvada sərgilərimiz olub.

Əməkdar mədəniyyət işçisi ölkəmizdə xalçaçılığın inkişafını birbaşa Prezident İlham Əliyevin və ölkəmizin 1-ci xanımı – Heydər Əliyev Fondunun prezidenti Mehriban Əliyevanın milli mədəniyyətimizə və onun ayrılmaz hissəsi olan xalçaçılıq sənətinə göstərdiyi diqqətin əyani təzahürü kimi dəyərləndirdi.

Xalçaçı-rəssam illərdir ki, Sumqayıtda, mənim yaşadığım məhəllədəki emalatxanasında fəaliyyət göstərir. Ora gedəndə əvvəlcə həyətdəki böyürtkən kollarına, budaqları gilasla dolu olan ağaclara baxdım. Sonra möcüzəli ünvandakı xalçalar gözümü-könlümü oxşadı. Fazil Abasquluzadənin əsərlərində xalqın tarixi yaddaşından süzülüb gələn rənglərin, naxışların, süjet və obrazların yaratdığı bədii güc xalçanı həqiqi sənət zirvəsinə yüksəldir. İllər öncə Portuqaliyanın paytaxtı Lissabonda 36 dövlətdən peşəkar rəssamların qatıldığı beynəlxalq sərgidə birdən-birə 8 əsəri nümayiş olunub və bəyənilib.

Onun dünya şöhrətli unudulmaz fırça ustası Tahir Salahovla əməkdaşlığı da gözəl nəticələr verib. Tahir müəllimlə bir sərgidə tanış olublar. Görkəmli rəssam özünün rəngkarlıq əsərlərinin xalçaya köçürülməsini istədiyini deyib və yaradıcı əməkdaşlığa başlayıblar. Bu iş xeyli vaxt aparıb, bəzən bir neçə ay çəkib. Toxucu qızların rəssamlıq duyumu da onun yardımçısı olub. Fazil Abasquluzadə Tahir Salahovun ümumilikdə 50-yə yaxın əsərini xalçaya köçürüb. Toxunuş üçün gərək olan sapların hamısını özü boyayıb, materialı isə Təbrizdən gətizdirib. Bu işlərə heyranlıqla baxdığımı görən Fazil Abasquluzadə dedi:

– Tahir Salahovun palitrası çox zəngindir, tez-tez rəng çalarları dəyişir. Biz bu əsərləri 50 sıxlıqla toxumuşuq, yəni hər 10 santimetrdə 50 düyün var. Rəsmləri xalçaya köçürən zaman onların orijinaldakı ölçüsünü olduğu kimi saxlamışıq, müəllifin razılığı ilə qıraqlarında ayrıca haşiyələr, naxışlar işləmişik. Bütün toxunuş prosesi Lətif Kərimovun qoyduğu qaydalara uyğun aparılıb. Beləliklə, kətan üzərində yaranmış əsərlər xalça variantında özünün ikinci ömrünə qədəm qoyub.

Naxışları xalçanın danışan dili adlandıran rəssam əsərlərində milli klassikaya, folklor üslubuna daha çox diqqət yetirir. Məram milli mədəniyyətimizin qədimliyini qoruyub saxlamaq, gələcək nəsillərə ötürməkdir.

Fazil usta tarixi şəxsiyyətlərə həsr olunan xalçalarda onların yaradıcılığını da əks etdirməyə çalışır. Nizami Gəncəviyə həsr etdiyi süjetli bədii-tematik əsəri ABŞ-da Karolina Universiteti muzeyinin fondunda saxlanılır. Bu əsərdə rəssamın dahi şairə olan sevgisi ilə xalça sənətinə bağlılığı gözəl vəhdət təşkil edib.

**Tanınmış şəxsiyyətlərin obrazlarını xalça naxışlarında əbədiləşdirəndə onların bəziləri ilə şəxsən görüşdüyü də olub. Bu barədə dedikləri:**

– Xalq şairi Bəxtiyar Vahabzadə ilə bağlı iki əsərim var. Bəxtiyar müəllimlə sağlığında görüşdüm, bəzi məsləhətlər də verdi. Onun "Şəhidlər" poeması əsasında da xalça yaratmışam, həmin əsər indi Şəki Tarix-Diyarşünaslıq Muzeyindədir. Şəhriyara həsr etdiyim "Heydərbabaya salam" əsərim İsmayıllının Təzəkənd kəndində toxunub, respublika müsabiqəsində 76 rəssamın əsəri içərisində 1-ci yeri tutub. Bundan başqa, Zəlimxan Yaquba, Nüsrət Kəsəmənliyə, Paşa Qəlbinura həsr etdiyim xalçalar var.

Elə şairlərin obrazlarını yaratması Fazil müəllimin poeziya vurğunu olduğunu bəlli edir. Söhbət zamanı onların şeirlərindən çoxlu misallar gətirdi. Məsələn, ulu Şəhriyardan bu misraları əzbər dedi: "Şəhriyar, sən yazan əşarı uzaqdan tanıram mən, Bir uyuşmaq dəxi var nəqş ilə nəqqaş arasında".

Böyük zəfərlə başa çatan 44 günlük Vətən müharibəsindən sonra doğma yurd yerlərinə səfərlər edən Fazil Abasquluzadə qələbə mövzusunda da dəyərli əsərlər yaradır. O, hazırda yeni eskizlər üzərində işləyir.

*Əli NƏCƏFXANLI*
*XQ*

# Süni intellekt texnologiyalarının əmək bazarına təsiri

**Müsahibimiz Azərbaycan Respublikasının Elm və Təhsil Nazirliyinin İnformasiya Texnologiyaları İnstitutunun icraçı direktoru, texnika üzrə fəlsəfə doktoru, dosent Rəşid Ələkbərovdur**



**– Son illərdə süni intellektin sürətli inkişafı və bir çox sahədə tətbiqi cəmiyyətdə bəzi narahatlıq yaradır. Bu narahatlıqlardan biri də süni intellektin iş yerlərində insanları əvəz etməsi, insanların iş yerlərini itirmə təhlükəsi ilə bağlıdır. Bu barədə nə deyə bilərsiniz?**

– Bəli, süni intellektin sürətli inkişafı, şübhəsiz ki, əmək bazarında bəzi dəyişikliklərə səbəb olur. Ən əsas narahatlıq iş yerlərinin itirilməsi məsələsidir. Texnologiyanın tətbiqi ilə bəzi sahələrdə, xüsusilə də fiziki əməyə və təkrarlanan işlərə əsaslanan peşələrdə insanların yerini robotlar ala bilər. Məsələn, pərakəndə satış, çağrı mərkəzləri, sürücülük və bir çox sənaye sahələrində robotlar artıq insanları əvəz etməyə başlayıb. Lakin, bu dəyişikliklər yalnız negativ təsir göstərmir. Süni intellekt, eyni zamanda, yeni iş imkanları yaradır. Məsələn, süni intellektin inkişafı ilə əlaqəli yeni peşələr ortaya çıxır: data analitikləri, maşın öyrənmə mütəxəssisləri, süni intellekt mühəndisləri və s.

Bundan əlavə, süni intellektin inkişafı daha çox işlərin avtomatlaşdırılması və iş mühitinin daha səmərəli olması üçün istifadə olunur. Bəzi işlər daha sürətli və keyfiyyətli şəkildə icra oluna bilər, bu da şirkətlərin istehsal gücünü artırır. Yaradıcılıq, rəhbərlik və müştəri xidməti kimi sahələrdə isə hələ də insan amili önəmlidir, çünki süni intellektin sosial və emosional qabiliyyətləri hələ də məhduddur. Bu səbəbdən, süni intellektin əmək bazarına təsirini yalnız bir tərəfdən qiymətləndirmək düzgün olmaz. Bəzi işlər yox ola bilər, amma yeni iş imkanları və daha məhsuldar iş mühitləri də yaranacaq. Əsas məsələ, insanların bu dəyişikliklərə uyğunlaşması və yeni bacarıqlara yiyələnməsidir.

Dünya miqyasında aparılmış tədqiqatlar göstərir ki, növbəti 10 il ərzində təxminən 30 faizə yaxın peşələr avtomatlaşdırma ilə əvəz oluna bilər. Bu, xüsusilə aşağı ixtisaslı və rutin işlər üçün keçərlidir. Məsələn, kassirlər, məlumat qeydiyyatçıları, bəzi hüquqi köməkçi funksiyalar və hətta sürücülük sahəsində dəyişikliklər artıq müşahidə olunur.

Ancaq bu, "kütləvi işsizlik" mənasına gəlmir. Süni intellekt yeni bacarıqlar tələb edən, daha kompleks və analitik düşüncə tələb edən peşələrə keçidi sürətləndirir. Yəni "iş yerləri itəcək" yox, "işlərin mahiyyəti dəyişəcək" demək daha doğrudur. Əgər fərdlər, xüsusilə gənclər, bu texnologiyalara uyğun bacarıqlara yiyələnərlərsə, onlar əmək bazarında daha da rəqabətqabiliyyətli olacaqlar.

**– Sizcə, hansı sahələrdə süni intellektin təsiri daha güclü hiss olunur və gələcəkdə hansı sahələr daha çox dəyişikliklə üzləşəcək?**

– Birmənalı şəkildə demək olar ki, süni intellektin təsiri artıq bir çox sahələrdə özünü göstərməyə başlayıb. Ən güclü təsir, ilk növbədə, istehsalat və sənaye sahələrində müşahidə olunur. Burada əsasən avtomatlaşdırma və robotlaşdırma prosesləri nəzərdə tutulur. Çoxsaylı təkrar olunan fiziki əməyin yerini artıq maşın öyrənməsi texnologiyalarına əsaslanan sistemlər tutur. Bu isə əmək bazarında ciddi struktur dəyişikliyinə gətirib çıxarır.

İkinci mühüm sahə maliyyə sektorudur. Burada süni intellekt kredit risklərinin qiymətləndirilməsi, fırıldaqçılıq hallarının aşkarlanması və investisiya strategiyalarının formalaşdırılması kimi funksiyaları yerinə yetirir. Əgər əvvəllər bu qərarlar əsasən ekspert mülahizələrinə əsaslanırdısa, indi böyük həcmdə verilən məlumatlar əsasında daha dəqiq və sürətli nəticələr əldə etmək mümkündür.

Səhiyyə sahəsində isə dəyişikliklər həm texnoloji, həm də etik baxımdan dərin təsirə malikdir. Süni intellekt tibbi diaqnozların qoyulması, görüntü analizləri, dərmanların hazırlanması və xəstə monitorinqi kimi proseslərdə mühüm rol oynamağa başlayıb. Bu, həkimin qərarvermə prosesinə yardımçı olur, bəzən isə onu tamamlayır.

Təhsil sahəsi də yaxın gələcəkdə ciddi transformasiyaya məruz qalacaq. Adaptiv öyrənmə platformaları, fərdi tədris trayektoriyalarının qurulması və avtomatlaşdırılmış qiymətləndirmə sistemləri təhsil verənlərin və alanların rolunu dəyişməkdədir. Burada müəllim daha çox istiqamətləndirici, süni intellekt isə operativ funksiyaları yerinə yetirən vasitəçi rolunda çıxış edəcək.

Onu da qeyd edim ki, hüquq sahəsi də getdikcə daha çox məlumat əsaslı modellərlə işləməyə başlayır. Məhkəmə presedentlərinin təhlili, müqavilələrin avtomatik hazırlanması və hüquqi məsləhətlərin generasiyası bu sahədə mümkün dəyişikliklərin yalnız başlanğıcıdır.

Demək olar ki, süni intellektin ən güclü təsiri təkrarlanan və qaydalara əsaslanan sahələrdədir. Lakin gələcəkdə daha yaradıcı və analitik fəaliyyət sahələrində də onun təsiri dərinləşəcək.

**– Azərbaycan əmək bazarı bu qlobal dəyişikliklərdən necə təsirlənir? Bizdə bu sahədə vəziyyət necədir?**

– Azərbaycanın əmək bazarında da süni intellekt və digər rəqəmsal texnologiyaların təsiri hiss edilməkdədir. Qlobal trendlər fonunda, ölkəmizdə bu təsir mərhələli şəkildə özünü göstərməkdədir. Xüsusilə maliyyə və bank sektoru, rəqəmsal xidmətlər, vergi və gömrük sistemləri kimi sahələrdə süni intellekt əsaslı texnologiyaların tətbiqi artıq başlanılıb. Bu, daha çox idarəetmə səmərəliliyinin artırılması, risklərin azaldılması və vətəndaş məmnuniyyətinin yüksəldilməsi məqsədləri daşıyır. Ənənəvi xidmət modelləri getdikcə avtomatlaşdırılmış sistemlərlə əvəz olunmağa başlayır.

İT sektoru isə bu transformasiyanın həm istifadəçisi, həm də aparıcısı rolunu oynayır. Yerli startaplar, proqramçılar və rəqəmsal platformalar bu sahədə getdikcə daha aktiv iştirak etməyə başlayır. Bu proses, eyni zamanda, rəqəmsal peşələrin yayılmasına və texnologiya yönümlü işçi qüvvəsinə tələbin artmasına səbəb olur.

Təbii ki, bəzi sahələrdə texnoloji keçidin sürəti müəyyən obyektiv məhdudiyyətlərlə üzləşir. Bunlar sırasında ixtisaslı kadrların çatışmazlığı, rəqəmsal savadlılıq səviyyəsi, həmçinin əmək bazarında çevik adaptasiya mexanizmlərinin hələ formalaşmaqda olması qeyd edilə bilər. Bu məsələlər daha çox diqqət tələb etsə də, paralel olaraq təhsil sistemində və peşə hazırlığında aparılan islahatlar gələcəkdə bu boşluqların tədricən aradan qalxmasına şərait yarada bilər.

Eyni zamanda, dövlət tərəfindən qəbul olunan strateji sənədlərdə rəqəmsal iqtisadiyyatın inkişafı və süni intellektin tətbiqi prioritet sahələr kimi müəyyən edilib. Bu, o deməkdir ki, həm qanunvericilik, həm də infrastruktur baxımından dəstəkləyici mühit formalaşmaqdadır. Həmçinin, müxtəlif beynəlxalq təşkilatlarla əməkdaşlıq nəticəsində təcrübə mübadiləsi aparılır və yerli mütəxəssislərin bacarıqlarının artırılması istiqamətində layihələr həyata keçirilir.

Əmək bazarında isə süni intellekt texnologiyalarının tətbiqi tədricən iş proseslərini dəyişir, bəzi işlərin avtomatlaşdırılması ilə yanaşı, yeni peşə və ixtisasların yaranmasına səbəb olur. Bu, öz növbəsində əmək bazarının daha rəqabətli və çevik olmasını tələb edir. Ona görə də, davamlı təhsil və peşəkar hazırlıq proqramları xüsusi önəm daşıyır.

Ümumilikdə, Azərbaycan əmək bazarında süni intellektin təsiri hələ erkən mərhələdə olsa da, bu sahədə müəyyən dəyişikliklər müşahidə olunur. Əsas məsələ bu prosesləri beynəlxalq təcrübə fonunda yerli reallıqlara uyğunlaşdıraraq davamlı şəkildə inkişaf etdirməkdir. Bu yanaşma əmək bazarının həm cari tələblərinə cavab verəcək, həm də gələcək çağırışlara hazırlıqlı olmasını təmin edəcək.

**– Süni intellektin təsiri ilə əmək bazarının transformasiyası fonunda gənclərə hansı sahələrdə ixtisaslaşmağı məsləhət görürsünüz?**

– Gənclər üçün ixtisaslaşma istiqamətinin seçilməsi zamanımızın əsas çağırışlarından biridir. Süni intellekt və rəqəmsal texnologiyaların sürətli inkişafı əmək bazarının strukturunu köklü şəkildə dəyişir. Bu şəraitdə uğurlu ixtisaslaşma üçün önəmli olan, gələcəyin tələblərinə cavab verə biləcək və davamlı inkişaf potensialı olan sahələri müəyyən etməkdir.

Bir tərəfdən, İT sektoru süni intellektin mərkəzində dayanır. Proqramlaşdırma, data elmi, maşın öyrənməsi, kiber təhlükəsizlik kimi sahələr hazırda dünya miqyasında ən çox tələb olunan peşələrdəndir. Azərbaycanda da bu sahələrə maraq artmaqdadır və onları öyrənənlərin rəqabət qabiliyyəti yüksəlir. Həmçinin, İT sahəsində çalışmaq imkanları beynəlxalq bazarlara çıxış imkanı verir ki, bu da əlavə üstünlükdür.

Digər tərəfdən, rəqəmsal marketinq və elektron ticarət getdikcə daha çox inkişaf edir. Şirkətlər öz məhsullarını və xidmətlərini onlayn platformalarda daha effektiv təqdim etmək üçün süni intellektdən istifadə edir, müştəri davranışını analiz edir, satış kanallarını optimallaşdırırlar. Bu baxımdan, bu sahədə ixtisaslaşmaq gələcəkdə karyera üçün perspektivli yol hesab olunur.

Səhiyyə sahəsində texnologiyanın rolu sürətlə artır. Tibb informatikası, bioinformatika, səhiyyədə data analizinin tətbiqi kimi sahələr insan sağlamlığının qorunması üçün yeni imkanlar açır. Gənclər və mütəxəssislər bu istiqamətdə ixtisaslaşaraq həm sosial cəhətdən əhəmiyyətli işlərdə iştirak edə, həm də rəqəmsal texnologiyaların qabaqcıl tətbiqlərinə sahib ola bilərlər.

Mühəndislik sahəsi, xüsusilə robototexnika və sənaye avtomatlaşdırması, gələcəyin sənayesini formalaşdırır. Bu istiqamətlərdə peşəkar olmaq yalnız texniki bilik deyil, həm də innovasiya bacarıqları tələb edir. Azərbaycanda sənayenin rəqəmsallaşdırılması getdikcə sürətlənir və bu sahədə mütəxəssislərə tələbat artır.

Bundan başqa, təhsil sahəsində də rəqəmsal transformasiya müşahidə olunur. Adaptiv öyrənmə sistemləri, onlayn tədris platformaları və fərdi təhsil texnologiyaları müəllimlərin və təhsil alanların işini dəyişdirir. Təhsil texnologiyaları üzrə ixtisaslaşmaq həm müasir çağırışlara cavab vermək, həm də təhsil sistemində yeniliklər tətbiq etmək baxımından önəmlidir.

Bütün bu texniki və rəqəmsal sahələrlə yanaşı, insan faktorunu ön plana çıxaran yumşaq bacarıqlar da əvəzsizdir. Kritik düşüncə, problem həlletmə, effektiv kommunikasiya və komanda daxilində işləmə bacarıqları hər bir peşədə uğur üçün vacibdir. Süni intellekt və avtomatlaşdırma bu bacarıqları əvəz edə bilmir, ona görə də onları inkişaf etdirmək həm gənclər, həm də əmək bazarında olan insanlar üçün prioritet olmalıdır.

Son olaraq, ən önəmlisi odur ki, seçilən ixtisas sahəsində ömür boyu öyrənmə anlayışı ön planda olsun. Rəqəmsal texnologiyalar sürətlə dəyişir və işçilər daim öz bilik və bacarıqlarını yeniləməli, yeni trendlərə uyğunlaşmalıdırlar. Bu istiqamətdə dövlət və özəl sektorun təklif etdiyi təlimlərdən, kurslardan aktiv istifadə etmək uğur şansını artıracaq.

Ümumiyyətlə, gələcəkdə uğurlu olmaq istəyənlər həm texniki biliklərə malik olmalı, həm də insan yönümlü, yaradıcı və çevik yanaşmaları inkişaf etdirməlidirlər. Bu yolla əmək bazarında rəqabət qabiliyyətini qorumaq və yeni imkanlardan faydalanmaq mümkündür.

**– Süni intellekt texnologiyaları ilə işləyən robotların gündəlik həyatımıza daxil olduğunu görürük. Bu robotlar əmək bazarının gələcəyi üçün nələr vəd edir?**

– Bu, son illərin ən çox müzakirə olunan suallarından biridir. Bəli, müəyyən sahələrdə – xüsusilə fiziki və təkrarlanan işlərdə – robotlar artıq insan əməyini uğurla əvəz edir. Məsələn, zavodlarda yığım xəttində, anbarlarda çeşidləmə və ya kassir kimi funksiyalarda süni intellekt əsaslı robotlar daha sürətli və dəqiq işləyə bilir. Bu texnologiyalar işin keyfiyyətini artırır, səhvləri azaldır və fasiləsiz fəaliyyət göstərir.

Ancaq insanı tam əvəz etmək məsələsi daha mürəkkəbdir. Yaradıcılıq, empatiya, sosial əlaqə və etik qərarvermə kimi xüsusiyyətlər hələ ki yalnız insana məxsusdur. Məsələn, müəllim, həkim, psixoloq və ya sənətçi kimi peşələrdə robotlar müəyyən texniki yardım göstərə bilsə də, insanın emosional və mədəni kontekstdə verdiyi qərarları tam şəkildə təqlid edə bilməz. Digər tərəfdən, hüquqi və etik məsələlər də bu prosesi ləngidir. Robot bir səhv qərar verdikdə – məsuliyyəti kim daşıyacaq? Bu suallar cavablandırılmadan robotların tam səlahiyyətlə insanı əvəz etməsi real deyil.

Qısası, süni intellektli robotlar insanları tamamilə yox, müəyyən sahələrdə əvəz edə və dəstəkləyə biləcək. Gələcəyin əmək bazarında biz daha çox insan və texnologiyanın birgə fəaliyyəti modelini görəcəyik – yəni "robot insanı əvəz etmir, onunla əməkdaşlıq edir".

**– Prezident İlham Əliyevin təsdiq etdiyi "Azərbaycan Respublikasının 2025–2028-ci illər üçün süni intellekt Strategiyası"nda əmək bazarının transformasiyası ilə bağlı hansı məsələlər öz əksini tapıb?**

– Bu strategiyada əmək bazarının transformasiyası ilə bağlı bir sıra mühüm məsələlər öz əksini tapıb. Bu strategiya, ölkənin rəqəmsal inkişafını sürətləndirmək və süni intellektin tətbiqini genişləndirmək məqsədini güdür. Strategiyanın əsas prioritetlərindən biri, süni intellekt sahəsində ixtisaslı işçi qüvvəsinin hazırlanmasıdır. Bu məqsədlə, Süni İntellekt Akademiyasının yaradılması planlaşdırılır. Akademiya çərçivəsində, 2026–2027-ci illərdə ən azı iki nüfuzlu xarici universitetlə əməkdaşlıq qurulması və süni intellekt sahəsində 500 mühəndisin yetişdirilməsi nəzərdə tutulur. Həmçinin, 3 min nəfərlik süni intellekt icmasının formalaşdırılması planlanır.

Bundan əlavə, dövlət orqanlarında süni intellektin tətbiqini təşviq etmək məqsədilə, müxtəlif dövlət qurumlarından 500 əməkdaşın "Menecerlər üçün süni intellekt" təlimlərindən məzun olması hədəflənir. Bu addım, dövlət idarəçiliyində süni intellektin tətbiqinin genişləndirilməsinə və idarəetmə proseslərinin optimallaşdırılmasına xidmət edəcək.

Strategiyanın digər mühüm aspektlərindən biri, süni intellekt və məlumat idarəetməsi üzrə kadr potensialının gücləndirilməsidir. Bu məqsədlə, yarışma platformalarının istifadəyə verilməsi və interaktiv tədris platformalarında istifadəçi sayının artırılması planlaşdırılır. Bu təşəbbüslər, gənclərin və mütəxəssislərin süni intellekt sahəsində bilik və bacarıqlarını inkişaf etdirməyə yönəlib.

Ümumiyyətlə, "Azərbaycan Respublikasının 2025–2028-ci illər üçün süni intellekt Strategiyası" əmək bazarının transformasiyasını dəstəkləyən və bu sahədə ixtisaslaşmanı təşviq edən bir çərçivə təqdim edir. Bu strategiya, süni intellektin tətbiqi ilə əlaqədar yeni peşə sahələrinin yaranmasına, mövcud peşələrin inkişafına və əmək bazarının müasir tələblərə uyğunlaşmasına şərait yaradacaq.

*Müsahibəni aldı:*
*Səbuhi MƏMMƏDOV*
*XQ*

# Almaniya hərbi xidmətin yeni modeli axtarışında

**Almaniya Federativ Respublikasında hərbi xidmətin yenidən təşkili ilə bağlı qanun layihəsi hazırlanıb. Layihə ölkənin müdafiə potensialının gücləndirilməsinə və regional təhlükəsizlik arxitekturasında aktiv rolunun təmin olunmasına yönəlib.**



Almaniya Müdafiə Nazirliyi tərəfindən hazırlanmış və avqust ayında Bundestaqda müzakirəyə çıxarılması nəzərdə tutulan qanun layihəsi ölkənin müdafiə qabiliyyətinin artırılması məqsədilə şəxsi heyət mexanizmlərində dəyişiklikləri ehtiva edir. Sənədə əsasən, könüllü hərbi xidmətin stimullaşdırılması ilə yanaşı, zərurət yarandığı hallarda ümumi hərbi xidmətin bərpası da hüquqi əsasda mümkün olacaq.

Qanun layihəsində 18 yaşlı bütün kişilərin (qadınların isə könüllü şəkildə) tibbi və şəxsi məlumatları əhatə edən anket formasını doldurması nəzərdə tutulur. Uyğun namizədlər əlavə seçim mərhələsinə cəlb olunacaqlar. Model əsasən İsveç təcrübəsinə əsaslanır və çağırış sisteminin könüllülüyə əsaslanan forması kimi tətbiq ediləcək.

Layihənin icrası üçün ilkin mərhələdə bürokratik və infrastruktur hazırlıqların həyata keçirilməsi planlaşdırılır. Praktiki tətbiq isə 2027-ci ildən gec olmayaraq mümkün hesab edilir. Bu müddətdə həm təlim sistemlərinin gücləndirilməsi, həm də könüllülərin sayının artırılması qarşıya məqsəd qoyulur.

Hazırda Almaniya Silahlı Qüvvələrində 181 min hərbçi, 80 min mülki əməkdaş və 60 minlik ehtiyat heyəti fəaliyyət göstərir. Müdafiə naziri Boris Pistoriusun təqdim etdiyi yeni konsepsiyada 2031-ci ilə qədər əsas heyətin 230 min nəfərə, ehtiyat qüvvələrin isə 260 minə çatdırılması planlaşdırılır.

Almaniya hökuməti bu məqsədlə müdafiə xərclərini əhəmiyyətli dərəcədə artırıb. 500 milyard avroluq xüsusi fondun yaradılması və mövcud 100 milyard avroluq təchizat proqramı ilə birlikdə hərbi infrastrukturun və texniki imkanların gücləndirilməsi istiqamətində ciddi addımlar atılır.

Qanun layihəsinin müzakirəyə çıxarıldığı bir dövrdə ictimai rəyin də dəstəyi müşahidə olunur. Son rəy sorğularına əsasən, vətəndaşların 55 faizi hərbi xidmətin bərpasını dəstəkləyir, 62 faizi isə daha güclü ordunun ölkənin müdafiə qabiliyyəti baxımından zəruri olduğunu bildirir.

Yeni müdafiə konsepsiyası Almaniyanın yalnız daxili təhlükəsizlik ehtiyaclarını deyil, eyni zamanda Avropa təhlükəsizlik sistemində daha fəal rol oynamasını nəzərdə tutur. Regionda baş verən geosiyasi dəyişikliklər fonunda bu islahatlar Almaniyanın NATO və Aİ daxilində müdafiə öhdəliklərini gücləndirmək istiqamətində strateji yanaşma kimi qiymətləndirilir.

Ümumiyyətlə, Almaniyanın hərbi potensialını gücləndirməsi Avropada formalaşmaqda olan yeni təhlükəsizlik arxitekturasının tərkib hissəsidir. Fransa və Polşa ilə rəqabət fonunda Almaniya həm texniki-modernizasiya, həm də insan resursları baxımından irimiqyaslı proqram həyata keçirir.

*SE LAY*
*XQ*

Xalq qəzeti
XQ
xalqqazeti.az
№ 140 (30834) 11 iyul 2025-ci il, cümə

# 40 ildən sonra U-20 sevdası

## Futbol üzrə gənclərin Dünya çempionatı yenidən Azərbaycanda keçirilə bilər

**1985-ci il avqust günləri idi. İsti havalar kimi, "Neftçi"nin də çıxışı azarkeşlərin ürəyini sıxırdı – komanda SSRİ çempionatında ardıcıl üç matçda məğlub olmuş, Rostovda OİK (1:2), Moskvada "Spartak" (0:2) və Leninqradda "Zenit"dən (1:3) xal ala bilməmişdi. Düzdür, daha sonra Ruslan Abdullayevin yetirmələri 6 oyunluq məğlubiyyətsiz seriyaya da imza atdılar, amma bu artıq başqa söhbətin mövzusudur.**




O günlərdə başqa futbol havası da vardı Azərbaycanda. Avqustun sonu – sentyabrın əvvəlində SSRİ-də gənclər arasında (U-20) Dünya çempionatı keçirilirdi və bir qrupun oyunları, həmçinin dörddəbir finalın bir qarşılaşması respublikamızda – Bakıda və hətta Sumqayıtda oldu. Azarkeşlər Meksika, Çin, Paraqvay, İngiltərə və Nigeriyanın gənc futbolçularının çıxışını izləyə bildilər.

Zaman keçdi, siyasi xəritələr dəyişdi, müstəqillik qazandıq. 40 il sonra artıq Azərbaycan dost və qardaş Özbəkistanla birlikdə 2027-ci ildə bu mötəbər turnirə ev sahibliyi etmək üçün namizədliklərini irəli sürürlər. Bu xəbəri ilk dəfə Özbəkistan Prezidenti Şavkat Mirziyoyev iyulun əvvəlində Bakıya səfəri zamanı Azərbaycan Prezidenti İlham Əliyevlə görüşündən sonra mətbuata birgə bəyanatları zamanı açıqladı: "Azərbaycanın minifutbol üzrə yığmasını bir daha təbrik edirəm. Onlar Dünya çempionu oldular. Biz Azərbaycan futbolçularının uğurlarına sevinirik. Qərara aldıq FIFA-ya birlikdə müraciət edək ki, Azərbaycan və Özbəkistan bu kateqoriyada futbol üzrə Dünya çempionatını birgə təşkil etsinlər. Düşünürəm ki, bu, gənclərimiz üçün ortaq uğur olacaq".

O zaman söhbətin konkret hansı yarışdan getdiyi açıqlanmasa da, bir neçə gün sonra hər şey aydınlaşdı. İki ölkə müxtəlif sahələrdə sıx əməkdaşlığı futbolda da davam etdirmək qərarına gəliblər. Xeyirli olsun!

*

Azərbaycan artıq bu cür böyük futbol tədbirlərinin təşkilində təcrübəli sayılır. Müstəqillik dövründə AVRO-2020-nin oyunları, UEFA Avropa Liqasının finalı, U-17 Avropa çempionatı və 17 yaşadək qızlar arasında Dünya çempionatına ev sahibliyi etmişik. Özbəkistan da bu mənada geridə qalmır – Asiyanın U-20 və U-23 çempionatları, futzal üzrə Dünya çempionatının keçirilməsi ölkənin təşkilatçılıq bacarığına olan inamı göstərir.

Bəli, Azərbaycan futbolda Avropanı, Özbəkistan isə Asiyanı təmsil edir. Özü də indiyədək U-20 Dünya çempionatı, eyni zamanda, birdən artıq ölkədə keçirilməyib. Azərbaycan və Özbəkistanın ortaq layihəsi sözügedən yarış üçün ilk təcrübə və iki qitənin təşkilatçılıq səylərinin birləşməsi, həm də futbolun qlobal ruhunu əks etdirən simvolik bir addım olacaq.

U-20 Dünya çempionatı özbəklərə də yad turnir deyil. Onlar gənclərin mundialında 5 dəfə iştirak edib, 2 dəfə də yarımfinala yaxınlaşıblar. 2024-cü ildə ilk dəfə Olimpiya Oyunlarının futbol turnirində təmsil olunublar. 2026-cı ilin Dünya çempionatı isə əsas milli komandaları üçün yeni tarix olacaq. Futbolçularının "Mançester Siti" (Abdukodir Xusanov) və "Roma" (Eldor Şomurodov) kimi klublarda oynaması ilə Özbəkistan futbolu adından daha çox söz etdirməyə başlayıb.

Ölkəmiz ev sahibi seçilsə, Azərbaycan komandası da ilk dəfə U-20 Dünya çempionatında iştirak hüququ qazanacaq. Amma futbolçularımızın vaxtilə SSRİ yığmasının heyətində bu yarışa qatılmaları danılmaz faktdır. 1979-cu ildə "Neftçi"nin 19 yaşlı oyunçuları İqor Ponomaryov və Vladimir Mixaylevski finalda Maradonalı Argentinaya qarşı mübarizə aparmışdılar. O vaxt Ponomaryov hesabı açsa da, oyunda sonuncu qola Dieqo özü imza atmışdı - 1:3. 1989-cu il mundialında isə 18 yaşlı Arif Əsədov SSRİ komandasının heyətində yer alsa da, meydana çıxmaq ona nəsib olmamışdı...

FIFA üzvlərinin 20 yaşadək futbolçulardan ibarət kişi milli komandaları arasında iki ildən bir təşkil edilən və hazırda rəsmən "FIFA U-20 Dünya kuboku" adlanan turnirin 1977-ci ildə Tunisdə keçirilən ilk yarışında da azərbaycanlı imzası var. Gənclər mundialının ilk hakimlərindən biri azərbaycanlı Eldar Əzimzadə olub!

*

Ümumi nəticələrə baxsaq, gənclər futbolunda cənubi amerikalıların aşkar üstünlüyü diqqəti çəkir. Argentinalıların altı, braziliyalıların isə beş U-20 Dünya çempionluğu var. Böyük futbolda hərəyə dörd Dünya kubokuna sahib İtaliyanın gənclər mundialında heç vaxt birinci olmaması, Almaniyanın yalnız uzaq 1981-ci ildə zirvəni fəth etməsi də turnirlə bağlı maraqlı faktlardandır.

FIFA U-20 Dünya çempionatını "sabahın super ulduzlarının turniri" kimi təqdim edir ki, bu da təsadüfi deyil. Vaxtilə gənclər mundialında əfsanəvi Dieqo Maradonadan (1979) başqa sonralar Azərbaycan millisinin baş məşqçisi olmuş Robert Prosineçki (1987), həmçinin Lionel Messi (2005), Pol Poqba (2013), Erlinq Haaland (2019) kimi futbolçuların ulduzu parlayıb – onlar turnirin "Qızıl top" və ya "Qızıl buts" mükafatlarını qazanıblar. Norveçli forvard 6 il bundan əvvəl Hondurasa 12:0 hesabı ilə qalib gəldikləri oyunda 9 qol vurması ilə də tarix yazıb!

Gənclərin Dünya çempionatı bu il də keçiriləcək – yarış bizə uzaq Çilidə olacaq. Sentyabr-oktyabrda 24 komandanın qatılacağı turnirdə bayrağı bizim rənglərə oxşayan Okeaniya təmsilçisi Yeni Kaledoniya da ilk dəfə qüvvəsini sınayacaq.

2027-ci ildə təşkil ediləcək növbəti U-20 Dünya çempionatı ev sahibinin müəyyənləşməsi ilə bağlı isə FIFA artıq bu il qərar verməlidir. Azərbaycan və Özbəkistan tandemi seçilsə, bu, "tarix təkrarlanır" ifadəsinin doğruluğunu bir daha sübut etmiş olacaq. Bu, həmçinin Azərbaycan futbolunun 1985-in ruhuna, o günlərin xatirəsinə qayıdışı deməkdir.

***Rasim MÖVSÜMOV,***
***idman icmalçısı***

## İDMAN

### Tennisçilərimiz Avropada yarışacaqlar



**Azərbaycanın yeniyetmə və gənc stolüstü tennisçiləri Çexiyanın Ostrava şəhərində təşkil olunacaq Avropa birinciliyində iştirak edəcək. Bu barədə mətbuata Stolüstü Tennis Federasiyasının mətbuat xidmətindən məlumat verilib.**

Azərbaycanı mötəbər yarışda 6 idmançı - Aylin Əsgərova, Mərziyyə Nurmətova, Yağmur Məmmədli, Adil Əhmədzadə, Rüstəm Hacılı və Onur Quluzadə təmsil edəcək. Onlar baş məşqçi Mixail Timofeyev və məşqçilər Elnur Hidayətzadə ilə Ramil Cəfərovun rəhbərliyi altında bacarıqlarını göstərəcəklər.

Qeyd edək ki, turnir iyulun 11-20-si aralığında keçiriləcək. Azərbaycan seçməsi dünən Ostrava şəhərinə yola düşüb.

### Millimiz 3 pillə geriləyib



**Azərbaycan millisi FIFA reytinqində 3 pillə geriləyib. Fernandu Santuşun rəhbərlik etdiyi kollektiv 119-cu pillədən 122-yə enib. Yığma hazırda 1148 xala malikdir.**

Qeyd edək ki, siyahıya 1885 xalla son dünya çempionu Argentina yığması başçılıq edir. İspaniya (1867) ikinci, Fransa (1862) isə üçüncü pillədə yer alıb.

### Messinin yeni rekordu



**"İnter Mayami"nin argentinalı hücumçusu Lionel Messi nadir rekorda imza atıb. Belə ki, o, MLS tarixində ardıcıl 4 matçda dubl edən ilk oyunçu olub. Messi bunu "Nyu İnqlend Revoluşn" klubuna 2:1 hesabı ilə qalib gəldikləri görüşdə dubl müəllifi olmaqla reallaşdırıb.**

Qeyd edək ki, 38 yaşlı ulduz futbolçu daha əvvəl "Kolumbus Kryu" (5:1) və "Monreal İmpakt" (4:1, 4:2) komandalarına qarşı görüşlərdə də dubla imza atıb.

***MH ACIXANLI***
***XQ***

## Azərbaycan alimləri Avstriyada



**Avstriyanın paytaxtı Vyana şəhərində keçirilən "Din və sosial-mədəni transformasiya: Avropa və xaricindəki perspektivlər" mövzusunda beynəlxalq konfransda Azərbaycan alimləri fəal iştirak ediblər.**

Konfrans çərçivəsində Fəlsəfə və Sosiologiya İnstitutunun şöbə müdiri, AMEA-nın müxbir üzvü Könül Bünyadzadə, AMEA-nın akademik Ziya Bünyadov adına Şərqşünaslıq İnstitutunun şöbə müdiri professor Roida Rzayeva və Azərbaycan İlahiyyat İnstitutunun kafedra müdiri, dosent Anar Qafarov "Bölünmüş dünyada inanc ilə ağıl arasında körpü qurmaq: interdisiplinar perspektiv" mövzusunda keçirilən paneldə məruzələrlə çıxış ediblər.

Konfransda, həmçinin AMEA-nın Fəlsəfə və Sosiologiya İnstitutunun elmi işçisi Xanımağa İsmayılova dinləyici qismində panel müzakirələrinə qoşulub.

Tədbir çərçivəsində Azərbaycanın Avstriyadakı Mədəniyyət Mərkəzində Azərbaycan alimlərinin iştirakı ilə görüş keçirilib.

Görüş zamanı iştirakçılar arasında elmi əməkdaşlıq imkanları və perspektivlər müzakirə edilib, eyni zamanda, Azərbaycan elmi və mədəniyyətinin beynəlxalq müstəvidə təbliğinin əhəmiyyəti vurğulanıb.

***XQ***

## Yayda qulaqcıq – çirklənmə, qıcıq...

**Səhərdən-axşama qulaqcıqla gəzənlərə pis xəbər var. Rusiyalı həkim Yelena Şurayeva yayda qulaqcıqların infeksiyalara səbəb olduğunu bildirib.**

Onun sözlərinə görə, yayda, xüsusilə isti və rütubətli havada qulaqcıq taxmamaq lazımdır. Əgər onu taxmaq çox vacibdirsə, 1 saatdan sonra mütləq çıxarıb fasilə vermək lazımdır. Həkimin sözlərinə görə, qulaqcıqlardan cəmi 30 dəqiqə istifadə etdikdən sonra qulaq kanalının temperaturu 2,4 dərəcə, rütubəti isə 35 faiz yüksəlir.

Yayda bu, "pseudomonas aeruginosa və staphylococcus aureusun" (stafilakokk) çoxalması üçün ideal şərait yaradır. Bundan əlavə, sıx qulaq yastıcıqları əlavə olaraq epiteli zədələyir və ventilyasiyanı bloklayır.

Buna görə də, 60 dəqiqəlik məhdudiyyətin olmamasına baxmayaraq, hər 40–50 dəqiqədən sonra qulaqdaxili qulaqcıqları 10 dəqiqəlik çıxartmaq daha yaxşıdır. Aktiv tərləmə halında isə qulaqcıq 20–30 dəqiqədən sonra çıxarılmalıdır.

Fasilə zamanı qulaq seyvanı qurudulmalıdır. Qulaqcıqlar heç kimlə paylaşılmamalıdır. Onları hər gün spirtlə, salfetlə silmək də vacibdir. İdman üçün açıq modelləri seçmək daha yaxşıdır.

***Z.HÜSEYNLİ***
***XQ***



## Hava

### Yağmursuz bir yay günü...



**Milli Hidrometeorologiya Xidmətindən verilən məlumata görə, bu gün Bakıda və Abşeron yarımadasında hava şəraitinin dəyişkən buludlu olacağı, əsasən yağmursuz keçəcəyi gözlənilir. Lakin iyulun 10-dan 11-nə keçən gecə və səhər yarımadanın bəzi yerlərində qısamüddətli az yağış yağacağı ehtimalı var. Şimal-qərb küləyi əsəcək, gündüz cənub-şərq küləyi ilə əvəzlənəcək.**

Havanın temperaturu gecə 20-25, gündüz 31-36 dərəcə isti olacaq. Atmosfer təzyiqi 757 millimetr civə sütunu, nisbi rütubət gecə 65-70, gündüz 45-50 faiz təşkil edəcək.

Azərbaycanın rayonlarında hava şəraitinin əsasən yağmursuz keçəcəyi gözlənilir. Lakin gündüz bəzi dağlıq ərazilərdə qısamüddətli yağış yağacağı, şimşək çaxacağı ehtimalı var. Mülayim şərq küləyi əsəcək. Havanın temperaturu gecə 20-25, gündüz 33-38, dağlarda gecə 8-13, gündüz 20-25 dərəcə isti olacaq.

***XQ***

## ALLAH RƏHMƏT ELƏSİN

Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyasının rektorluğu, professor-müəllim heyəti və Həmkarlar İttifaqı Komitəsi hüquq kafedrasının dosenti

**ABDULƏLİ ABDULLAYEVİN**

vəfatından kədərləndiklərini bildirir və mərhumun ailəsinə dərin hüznlə başsağlığı verirlər.

---

Azərbaycan Dillər Universitetinin rektorluğu və professor-müəllim heyəti professor

**RƏHMAN BƏDƏLOVUN**

vəfatından kədərləndiklərini bildirir və mərhumun ailəsinə dərin hüznlə başsağlığı verirlər.

BAŞ REDAKTOR
ƏFLATUN AMAŞOV

TELEFONLAR:
Reklam və elanlar: 493-82-21
Qəbul şöbəsi: 493-24-75
Məsul katib: 493-61-02
Texniki şöbə: 493-59-64
Mühasibatlıq: 498-85-29
Email: xalqqazeti@gmail.com
info@xalqqazeti.az
+994(51) 280-16-44

"Xalq qəzeti"nin kompüter mərkəzində yığılıb və səhifələnib, "Azərbaycan" nəşriyyatında çap olunub.

ÜNVANIMIZ:
AZ-1000, Bakı şəhəri, Bülbül prospekti, 30.
Şəhadətnamə 022273

İNDEKS 0282
TİRAJ 3145
SİFARİŞ 1413
QİYMƏTİ 60 qəpik

Növbətçi redaktor
Səbuhi MƏMMƏDOV
Çapa imzalanmışdır 00:00